# Musiqi

MÜƏLLİM ÜÇÜN
METODİK VƏSAİT









9

OQTAY RƏCƏBOV, NAZİM KAZIMOV,
CEYRAN MAHMUDOVA

# Musiqi 9

*Ümumtəhsil məktəblərinin
9-cu sinfi üçün «Musiqi» fənni üzrə*

**MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin
03.06.2016-cı il tarixli 369 №-li əmri ilə
təsdiq edilmişdir.*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2016**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

**«Təhsil Nəşriyyat-Poliqrafiya»**

Müəllim üçün metodik vəsaitlə bağlı rəy, irad və təkliflərin tahsil_az@yahoo.com
və derslik@edu.gov.az elektron ünvanlara göndərilməsi xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!





# Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi *Üzeyir Hacıbəylinin,*
sözləri *Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş ........................................................................................5
İzahat vərəqi...............................................................................6
IX sinif «Musiqi» fənni üzrə dərslərin illik planlaşdırılması..............10
Məzmun standartları və inteqrasiyanın tətbiqi ................................14

## QƏDİM ÇALĞI ALƏTLƏRİ HƏR BİR XALQIN MƏNƏVİ DƏYƏRİDİR

**1-ci mövzu.** Azərbaycan xalq çalğı aləti – tar ................................16
**2-ci mövzu.** Tar və Simfonik Orkestr.............................................19
**3-cü mövzu.** Azərbaycan xalq çalğı aləti – kamança......................22
**4-cü mövzu.** Kamança və Simfonik Orkestr...................................25
**5-ci mövzu.** Azərbaycan xalq çalğı aləti – qanun (kanon) .............28
**6-cı mövzu.** Azərbaycan xalq çalğı aləti – saz................................31
**7-ci mövzu.** Azərbaycan xalq çalğı aləti – ud .................................34
**8-ci mövzu.** Kiçik Summativ Qiymətləndirmə.................................37
**9-cu mövzu.** Çalğı aləti – qarmon ...................................................39
**10-cu mövzu.** Azərbaycan xalq çalğı aləti – balaban .....................42
**11-ci mövzu.** Azərbaycan xalq çalğı aləti – zurna ..........................45
**12-ci mövzu.** Azərbaycan xalq çalğı aləti – tütək...........................48
**13-cü mövzu.** Kiçik Summativ Qiymətləndirmə...............................51
**14-cü mövzu.** Azərbaycan xalq zərb çalğı aləti – nağara...............52
**15-ci mövzu.** Azərbaycan xalq zərb çalğı alətləri – dəf, qaval və dümbək ............................................................55
**16-cı mövzu.** Sinif konsertinə hazırlıq ............................................58
**17-ci mövzu.** Böyük Summmativ Qiymətləndirmə ..........................58

## AZƏRBAYCAN MUSİQİ MƏBƏDLƏRİ VƏ MUSİQİ MƏDƏNİYYƏTİ

**18-ci mövzu.** Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ................................................59

**19-cu mövzu.** «Şahsənəm» operası və rus bəstəkarı
Reynqold Qliyer........................................................62
**20-ci mövzu.** Müasir mövzuda ilk Azərbaycan operası..................65
**21-ci mövzu.** Müslüm Maqomayev adına Azərbaycan
Dövlət Filarmoniyası ................................................68
**22-ci mövzu.** Üzeyir Hacıbəyli adına Azərbaycan
Dövlət Simfonik Orkestri ..........................................71
**23-cü mövzu.** Azərbaycan Dövlət Xor Kapellası............................74
**24-cü mövzu.** Qara Qarayev adına Azərbaycan
Dövlət Kamera Orkestri ...........................................77
**25-ci mövzu.** Sinif konsertinə hazırlıq ............................................80
**26-cı mövzu.** Kiçik Summativ Qiymətləndirmə................................80

## AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ MUSİQİ KOLLEKTİVLƏRİ

**27-ci mövzu.** Azərbaycan Dövlət Musiqili Teatrı.............................81
**28-ci mövzu.** Əməkdar kollektiv, Səid Rüstəmov adına
Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri.........84
**29-cu mövzu.** Azərbaycan Xalq Çalğı Alətləri ansamblları.............87
**30-cu mövzu.** «Dan ulduzu» Kamera-İnstrumental Ansamblı ........90
**31-32-ci mövzular.** «Bənövşə» Uşaq Xoru .......................................93
**33-cü mövzu.** Sinif konsertinin keçirilməsi .......................................96
**34-cü mövzu.** Böyük Summativ Qiymətləndirmə ............................96
Mahnı repertuarı..........................................................................98
İstifadə olunmuş ədəbiyyat.........................................................127

# GİRİŞ

Ümumtəhsil məktəblərində incəsənətlə bağlı fənlər arasında musiqi fənni əhəmiyyətli yer tutur. Mənəvi-estetik təsir gücünə, didaktik mahiyyətinə, musiqi incəsənətinin qayda-qanunlarını, incəliklərini öyrətmə imkanlarına görə müstəsna əhəmiyyətə malik olan bu fənn əvəzolunmaz tərbiyəedici funksiya daşıyır.

Musiqi təliminin vəzifələrinə daxildir:

– musiqini duymağın, sevməyin, ondan həzz almağın, onu düzgün başa düşüb qiymətləndirməyin formalaşdırılması;

– şəxsiyyətin mənəvi-estetik keyfiyyətlərinin, dünya görüşünün inkişaf etdirilməsi;

– estetik hislərin, bədii-estetik zövqün tərbiyə edilməsi;

– musiqi ifaçılığı və musiqi yaradıcılığı qabiliyyətlərinin formalaşdırılması;

– şagirdlərin musiqiyə dair bilik, bacarıq və vərdişlərə yiyələnmələrinin təmin edilməsi.

Musiqi dərsləri təhsilverici, inkişafetdirici, tərbiyəedici funksiyalara malikdir.

Bu məqsədlə, musiqinin tərbiyəedici təsirini artırmaq, həyatla əlaqəsini möhkəmlətmək üçün dərsliyə vətənpərvərlik, humanizm, dostluq hislərini inkişaf etdirən müxtəlif janrlı əsərlər daxil edilmişdir.

Milli musiqi nümunələri, milli-mədəni irsimizin tərənnümü ilə bağlı əsərlər dərslikdə xüsusi yer tutur. Milli dəyərlər, ümumbəşəri dəyərlər fonunda və onlarla vəhdətdə təqdim olunur. Beləliklə, millilikdən ümumbəşəriliyə doğru istiqamət dərsliyin ana xəttini təşkil edir.

Ümumtəhsil məktəblərində musiqi fənninin səmərəli tədrisini təmin etmək üçün həyatiliyə, emosionallığa, məşğələlərin kompleks mərhələlik əsasında aparılmasına fikir verilməlidir. Mahnı oxuma, musiqili-ritmik hərəkətlər, notla oxuma, improvizasiya və musiqi dinlənilməsi mərhələsində şagirdlərə verilən bilik, bacarıq və vərdişlər müxtəlif istiqamətlərdə inkişaf etdirilsə də, mahiyyət etibarilə bir məqsəd əsas götürülür: böyüməkdə olan gənc nəslin mənəvi-estetik tərbiyəsini, bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırmaq, onları hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi yetişdirmək və müstəqil Azərbaycan Respublikasının layiqli vətəndaşı kimi həyata hazırlamaq.

## İZAHAT VƏRƏQİ

IX sinif üzrə «Musiqi» komplekti dərslikdən və müəllim üçün metodik vəsaitdən ibarətdir. VIII və digər aşağı siniflərdə olduğu kimi bu vəsaitdə də hər bir dərsə aid mövzu, məzmun standartları, inteqrasiya, iş metodları, hər dərslə əlaqədar planlaşdırma, qiymətləndirmə cədvəli, həm də musiqi repertuarı öz əksini tapmışdır. Müəllim dərsə hazırlaşarkən şagirdlərin bilik səviyyələrini, qavrama qabiliyyətlərini və eyni zamanda yaş xüsusiyyətlərini nəzərə almalıdır. Digər tərəfdən müəllim yeni mövzunu şagirdlərə başa salmaq üçün əyani, texniki və köməkçi vasitələrdən istifadə etməyi bacarmalıdır.

Şagirdlərin qiymətləndirilməsi beş bal sisteminə əsaslanır. Bunun üçün müəllim aşağıdakı meyarları nəzərə almalıdır:

1. Musiqi ifaçılığı (mahnıların ifa olunması, sadə musiqi alətlərində ifa bacarığı);
2. Sual-cavabla mövzunu əhatə etmə bacarığı;
3. Yeni ideya və təkliflərin təqdim olunması bacarığı;
4. Qrup üzrə işlərdə fəallığı, işgüzar təkliflərlə çıxışetmə qabiliyyəti;
5. Problemə yaradıcı yanaşma, ümumiləşdirmə qabiliyyəti, təqdimat etmə məharəti və s.

Hər bir məzmun vahidinin sonunda şifahi, yazılı və musiqili testlər təklif olunur.

Musiqi dərsliyində mövzuların məzmununa uyğun məlumatlar və illüstrasiyalar, bəstəkarların portretləri, mahnıların notları və mətnləri, tapşırıqlar və suallar öz əksini tapmışdır. Dərsliyin sonunda dərslik daxilində notları əks olunmamış mahnıların notları, dərsdənkənar məşğələlərdə, bayram konsertlərində ifa olunacaq mahnıların not və sözləri öz əksini tapmışdır. Digər tərəfdən tədrisdən kənar musiqi viktorinalarında, nəzəri musiqi müsabiqələrində istifadə etmək üçün uşaq musiqisi yazan Azərbaycan bəstəkarlarının yaradıcılığı ilə əlaqədar bioqrafik sxem və məlumatlar da dərsliyin sonunda öz əksini tapmışdır.

Dərslik hazırlanarkən aşağıdakı pedaqoji prinsiplərə riayət olunmuşdur:

– məktəblilərin yaş xüsusiyyətlərinə uyğunluğu;

– dərsliyin məzmunu seçilərkən gender bərabərliyi, etnik və dini məsələlərə düzgün yanaşma;

– dərsliyin məzmununda verilən biliklərin elmi əsaslandırılması, cəlbedici və asan qavranılması;

– dərslikdəki illüstrasiyaların mövzulara uyğunluğu;

– dərsliyin məzmununa uyğun olaraq dizayn edilməsi;

– digər fənlərlə inteqrasiya.

## QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

Hər bir dərsdə aşağıdakı qiymətləndirmə cədvəlindən istifadə etmək olar:

| № | Meyarlar / Qrup | I (zəif) | II (orta) | III (yaxşı) | IV (əla) |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini ifadə edir | | | | |
| 2. | Musiqi nümunələrini fərqləndirir | | | | |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır | | | | |
| 4. | Təqdimat edir | | | | |
| 5. | Mahnı melodiyasını oxuyur | | | | |
| 6. | Rəqs edir, musiqinin ritmini tutur | | | | |
| 7. | Musiqi nümunələrinin xanə ölçülərini və tonallığını müəyyən edir | | | | |

## DƏRSİN RESURSLARI

«Musiqi» fənninin mövzularını daha yaxşı qavramaq, mənimsəmək üçün şagirdlərin bilik, bacarıq və vərdişlərini formalaşdıraraq inkişaf etdirmək üçün tədris prosesində çox vacib olan resurslardan istifadə etmək lazımdır. Bunlar aşağıdakılardan ibarətdir:

– məktəblilərin mənimsədikləri bilik, bacarıq və vərdişlər;
– dərslik;
– musiqi aləti kimi  fortepiano;
– notlar;
– portretlər;
– şəkillər;
– sxem və plakatlar;
– kompüter;
– maqnitofon və disk;
– DVD-pleyer.

Qeyd olunan resurslardan müəllim dərs prosesində səmərəli şəkildə istifadə etməlidir.

## IX sinif «Musiqi» fənni üzrə standartlar

***IX sinfin sonunda şagird:***

* Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri (Ü.Hacıbəyli, F.Əmirov, V.Mustafazadə, Q.Qarayev, F.Əlizadə, İ.S.Bax, R.Qliyer, İ.Ştraus, B.Bartok, C.Gerşvin, L.V.Bethoven) və onların geniş yayılmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir;
* Azərbaycan musiqi folklor nümunələri (mahnı, rəqs), muğam və aşıq havalarına dair bilik və bacarıqlar nümayiş etdirir;
* musiqi əsərlərinin melodiyası, ritmi və onlarda istifadə edilmiş bədii nümunələr haqqında fikrini nümayiş etdirir;
* musiqi əsərlərini hissi-emosional cəhətdən dərk etdiyini nümayiş etdirir;
* dinlədiyi musiqidən yaranan təəssüratlarını müxtəlif formada ifadə edir;
* mahnını not və mətni ilə oxuyur;
* fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.

## Məzmun xətləri üzrə əsas və alt standartlar

**1. Musiqi aləmi**
**Şagird:**

*1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında bilik və bacarıqlar nümayiş etdirir.*

1.1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri (Ü.Hacıbəyli, F.Əmirov, V.Mustafazadə, Q.Qarayev, F.Əlizadə, İ.S.Bax, R.Qliyer, İ.Ştraus, B.Bartok, C.Gerşvin, L.V.Bethoven) və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir.

1.1.2. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir.

*1.2. Azərbaycan musiqi folklor nümunələri (mahnı, rəqs), muğam və aşıq havalarına dair bilik və bacarıqlar nümayiş etdirir.*

1.2.1. Azərbaycan musiqi folkloru nümunələrinin Qərbi Avropa bəstəkarlarının yaradıcılığına təsiri barədə münasibətini bildirir.

1.2.2. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir.

**2. Emosional dəyərləndirmə**
**Şagird:**

*2.1. Musiqi əsərlərinin melodiyası, ritmi və onlarda istifadə edilmiş bədii nümunələr haqqında fikrini nümayiş etdirir.*

2.1.1. Azərbaycan və dünya bəstəkarlarının musiqili səhnə əsərlərində istifadə olunmuş bədii nümunələr haqqında təqdimat edir.

*2.2. Musiqi əsərlərini hissi-emosional cəhətdən dərk etdiyini nümayiş etdirir.*

2.2.1. Simfonik orkestrdə ifa olunan musiqinin emosional təsiri haqqında fikrini izah edir.

2.2.2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir.

*2.3. Dinlədiyi musiqidən yaranan təəssüratlarını müxtəlif formada ifadə edir.*

2.3.1. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir.

**3. Musiqili fəaliyyət**
**Şagird:**

*3.1. Mahnını not və mətni ilə oxuyur.*

3.1.1. Mahnını ikisəsli a kapella (müşayiətsiz) oxuyur.

*3.2. Fərdi, qrup və kollektiv ifaçılıq bacarığı nümayiş etdirir.*

3.2.1. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

## IX sinif «Musiqi» fənni üzrə dərslərin illik planlaşdırılması

| Təlim vahidi | № | Dərsin mövzusu | Xorla ifa olunan mahnılar və onların müəllifləri | Dinlənilən musiqi nümunələri və onların müəllifləri | Saat |
|---|---|---|---|---|---|
| Qədim çalğı alətləri hər bir xalqın mənəvi dəyəridir | 1. | Azərbaycan xalq çalğı aləti – tar | «Oxu, tar» – S.Rüstəmov, M.Müşfiq | «Çahargah» muğamından bir parça | 1 |
| | 2. | Tar və Simfonik Orkestr | «Oxu, tar» – S.Rüstəmov, M.Müşfiq | 1. Ü.Hacıbəyli. «Leyli və Məcnun» operasından elçilik səhnəsində səslənən muğamdan bir hissə<br>2. H.Xanməmmədov. «Tar və Simfonik Orkestr üçün 1 №-li Konsert»in I hissəsindən əsas mövzu | 1 |
| | 3. | Azərbaycan xalq çalğı aləti – kamança | «Mehriban olaq» – Ş.Axundova, İ.Coşqun | 1. «Şüştər» muğamından bir parça<br>2. «O olmasın, bu olsun» bədii filmindən musiqi parçası | 1 |
| | 4. | Kamança və Simfonik Orkestr | 1. H.Xanməmmədov. «Kamança və Simfonik Orkestr üçün Konsert» əsərindən I hissənin köməkçi mövzusundan bir parça<br>2. «Mehriban olaq» – Ş.Axundova, İ.Coşqun | H.Xanməmmədov. «Kamança və Simfonik Orkestr üçün Konsert»in ekspozisiyası | 1 |
| | 5. | Azərbaycan xalq çalğı aləti — qanun (kanon) | 1. «Bayatı-Şiraz» muğamı. «Bərdaşt» şöbəsindən qanun musiqi alətində ifa olunan musiqi parçası<br>2. «Qarabağ bayatıları» – A.Dadaşov, N.Kəsəmənli | 1. «Bayatı-Şiraz» muğamından bir parça<br>2. S.Ələsgərov. «Qanun və fortepiano aləti üçün Poema»dan bir parça | 1 |
| | 6. | Azərbaycan xalq çalğı aləti — saz | 1. «Vaqif gözəlləməsi» aşıq havasından bir parça<br>2. «Qarabağ bayatıları» – A.Dadaşov, N.Kəsəmənli | 1. «Misri» aşıq havası<br>2. Ü.Hacıbəyli. «Koroğlu» operasından «Koroğlunun aşıq mahnısı» | 1 |
| | 7. | Azərbaycan xalq çalğı aləti – ud | 1. «İstiqlal bayramı» – R.Şəfəq, V.Mirzə | 1. «Şur» muğamından bir parça<br>2. A.Gəray «Bağçakürd» | 1 |
| | 8. | **Kiçik Summativ Qiymətləndirmə** | | | 1 |

| Təlim vahidi | № | Dərsin mövzusu | Xorla ifa olunan mahnılar və onların onların müəllifləri | Dinlənilən musiqi nümunələri və onların müəllifləri | Saat |
|---|---|---|---|---|---|
| Qədim çalğı alətləri hər bir xalqın mənəvi dəyəridir | 9. | Çalğı aləti – qarmon | 1. «Vağzalı» – Azərbaycan xalq rəqsi<br>2. «İstiqlal bayramı» R.Şəfəq, V.Mirzə | 1. «Vağzalı». Azərbaycan xalq rəqsi<br>2. T.Bakıxanov «Qarmon və Simfonik Orkestr üçün Konsert»in I hissəsindən bir parça | 1 |
| | 10. | Azərbaycan xalq çalğı aləti – balaban | 1. «Sarı gəlin». Azərbaycan xalq mahnısı<br>2. «Şəhərimiz» – S.Rüstəmov, M.Seyidzadə | 1. «Sarı gəlin». Azərbaycan xalq mahnısı<br>2. O.Rəcəbov. «Göyçək Fatma» cizgifilm-operasından «Qızlar xoru» | 1 |
| | 11. | Azərbaycan xalq çalğı aləti – zurna | 1. «Bağdagülü» Azərbaycan xalq rəqsinin melodiya-sından bir parça<br>2. «Şəhərimiz» – S.Rüstəmov, M.Seyidzadə | 1. «Bağdagülü» Azərbay-can xalq rəqsi. Zurna-çılar dəstəsinin ifasında<br>2. C.Quliyev. «Zurna və Simfonik Orkestr üçün Uvertüra». Əsərdən bir parça | 1 |
| | 12. | Azərbaycan xalq çalğı aləti – tütək | 1. «Çoban baya-tısı»ndan bir hissə<br>2. «Mübarək» – Ə.Cavanşirov, H.Ziya | 1. «Çoban bayatısı». Tütəkdə ifa edilir<br>2. A.Rzayeva, M.Dilbazi. «Çoban Qara» | 1 |
| | 13. | **Kiçik Summativ Qiymətləndirmə** | | | 1 |
| | 14. | Azərbaycan xalq zərb çalğı aləti – nağara | 1. «Yallı» Azərbaycan xalq rəqsindən bir parçanı ikisəsli oxumaq<br>2. «Mübarək» – Ə.Cavanşirov, H.Ziya | 1. «Yallı» Azərbaycan xalq rəqsi. Zurnaçıların ifasında<br>2. C.Cahangirov. «Xalq Çalğı Alətləri Orkestri üçün Yallı» | 1 |
| | 15. | Azərbaycan xalq zərb çalğı alət-ləri – dəf, qaval, dümbək | 1. Ə.Dadaşov. «Baya-tı-Şiraz» rəngindən bir parça<br>2. «Mübarək» – Ə.Cavanşirov, H.Ziya | 1. «Dilkeş təsnifi». İfa edir Xalq artisti Arif Babayev<br>2. «Qavalla rəqs». İfa edir Xalq artisti Əminə Dilbazi | 1 |
| | 16. | **Sinif konsertinə hazırlıq** | | | 1 |
| | 17. | **Böyük Summativ Qiymətləndirmə** | | | 1 |

| Təlim vahidi | № | Dərsin mövzusu | Xorla ifa olunan mahnılar və onların müəllifləri | Dinlənilən musiqi nümunələri və onların müəllifləri | Saat |
|---|---|---|---|---|---|
| Azərbaycan musiqi məbədləri və musiqi mədəniyyəti | 18. | Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı | 1. Ə.Bədəlbəyli. «Qız Qalası» baleti. «Müqəddimə»dən bir parça<br>2. «Çayımızın adı var». Azərbaycan xalq mahnısı | 1. M.Maqomayev. «Şah İsmayıl» operasının «Uvertüra»sından bir parça<br>2. F.Əmirov. «Sevil» operası. «Vals»dan bir parça | 1 |
| | 19. | «Şahsənəm» operası və rus bəstəkarı Reynqold Qliyer | 1. «Ənzəli» xalq rəqsindən bir parça<br>2. «Çayımızın adı var». Azərbaycan xalq mahnısı | 1. R.Qliyer. «Şahsənəm» operasından «Ənzəli» rəqsi<br>2. R.Qliyer «Şahsənəm» operasından «Şahsənəmin ariyası» | 1 |
| | 20. | Müasir mövzuda ilk Azərbaycan operası | 1. M.Maqomayev – «Nərgiz» operasından «Əlyarın ariyası»ndan bir parça<br>2. «Gəncliyimiz» – R.Hacıyev, T.Mütəllibov | 1. M.Maqomayev. «Nərgiz» operasından «Əlyarın ariyası»<br>2. M.Maqomayevin «Nərgiz» operasının III pərdəsindən «Nərgizin qəmli mahnısı» | 1 |
| | 21. | Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası | 1. «Bəh, bəh» Azərbaycan xalq mahnısını notla oxumaq<br>2. «Babanın yolu daşdı». Azərbaycan xalq mahnısı | 1. C.Cahangirov. «Çahargah» xor əsərindən bir parça<br>2. F.Əmirov. «Nizami» simfoniyası. «Skertso» adlanan II hissədən bir parça | 1 |
| | 22. | Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri | 1. «Əlində sazın qurbanı» Azərbaycan xalq mahnısını notla oxumaq<br>2. «Əziz ana» – Ə.Hüseynzadə, R.Məmmədov | 1. F.Əmirov «Kürd-ovşarı» simfonik muğamından bir parça.<br>2. Niyazi. «Rast» simfonik muğamından «Əlində sazın qurbanı» | 1 |
| | 23. | Azərbaycan Dövlət Xor Kapellası | 1. C.Cahangirov. «Füzuli» kantatasının II hissəsindən bir parça<br>2. «Novruz bayramı» – R.Şəfəq, S.Mustafa | 1. C.Cahangirov. «Füzuli» kantatasının II hissəsi<br>2. N.Əliverdibəyov. A kapella xor kollektivi üçün «Bayatı-Şiraz» | 1 |
| | 24. | Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri | 1. «Qarabağ şikəstəsi» zərbi-muğamından bir parça<br>2. «Novruz bayramı» – R.Şəfəq, S.Mustafa | 1. Q.Qarayev. «İldırımlı yollarla» baletindən «Afrikalı qızların rəqsi»<br>2. «Qarabağ şikəstəsi». İfa edir Xalq artisti Alim Qasımov | 1 |
| | 25. | **Sinif konsertinə hazırlıq** | | | 1 |
| | 26. | **Kiçik Summativ Qiymətləndirmə** | | | 1 |

| Təlim vahidi | № | Dərsin mövzusu | Xorla ifa olunan mahnılar və onların müəllifləri | Dinlənilən musiqi nümunələri və onların müəllifləri | Saat |
|---|---|---|---|---|---|
| Azərbaycan musiqi mədəniyyəti və musiqi kollektivləri | 27. | Azərbaycan Dövlət Musiqili Teatrı | 1. Ü.Hacıbəyli. «O olmasın, bu olsun». «Məşədi İbadın mahnısı»<br>2. «Azərbaycan» – E.Sabitoğlu, B.Vahabzadə | 1. Ü.Hacıbəyli. «Arşın mal alan». «Əsgərin ariyası»<br>2. Ü.Hacıbəyli. «O olmasın, bu olsun». «Məşədi İbadın mahnısı» | 1 |
| | 28. | Əməkdar kollektiv, Səid Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri | 1. Ü.Hacıbəyli. «Çahargah» fantaziyasından bir parça<br>2. «Komandanım, əmr et» – O. Rəcəbov, Ə.Əhməd. | Ü.Hacıbəyli. «Xalq Çalğı Alətləri Orkestri üçün I fantaziya» | 1 |
| | 29. | Azərbaycan Xalq Çalğı Alətləri ansamblları | 1. «Şur» muğamının «Simayi-şəms I» rəngindən bir parça<br>2. «Komandanım, əmr et» – O.Rəcəbov, Ə.Əhməd | «Çahargah» muğamından bir parça. İfa edir Xalq artisti Z.Xanlarova | 1 |
| | 30. | «Dan ulduzu» Kamera-İnstrumental Ansamblı | 1. «Laçın» Azərbaycan xalq mahnısını notla oxumaq<br>2. «Nə gözəldir Azərbaycan!» – E.Sabitoğlu, İ.Kəbirli | 1. G.Əliyeva. «Şüştər» rapsodiyası<br>2. «Laçın». Azərbaycan xalq mahnısı. İfa edir A.İslamzadə | 1 |
| | 31-32. | «Bənövşə» Uşaq Xoru | 1. «Qızıl dan». A.Dadaşov, M.Yaqub<br>2. «Ey Tanrım, arxa ol bizim İlhama» – O.Rəcəbov, G.Tənha | 1. Q.Hüseynli, T.Mütəllibov. «Cücələrim» mahnısı | 2 |
| | 33. | **Sinif konsertinə hazırlıq** | | | 1 |
| | 34. | **Böyük Summativ Qiymətləndirmə** | | | 1 |

# Məzmun standartları və inrteqrasiyanın tətbiqi

| Mövzular | Məzmun standartları | | | | | | | | | | İnteqrasiya | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1.1. | | 1.2. | | 2.1. | 2.2. | | 2.3. | 3.1. | 3.2. | Fən-daxili | Fənlərarası | | |
| Alt standartlar | 1.1.1. | 1.1.2 | 1.2.1. | 1.2.2. | 2.1.1. | 2.2.1. | 2.2.2. | 2.3.1. | 3.1.1. | 3.2.1. | | Əd. | H.B. | T.İ. |
| 1. | | | 1.2.1. | 1.2.2. | | | | 2.3.1. | | 3.2.1. | 3.1.1. | 1.1.5. | | 3.1.1. |
| 2. | 1.1.1. | | | | | 2.2.1. | | | | 3.2.1. | 3.1.1. | 1.2.3. | | |
| 3. | | | | 1.2.2. | | | | 2.3.1. | | 3.2.1. | 3.1.1. | 1.2.1. | 1.2.1. | |
| 4. | 1.1.1. | | | | | 2.2.1. | | | | 3.2.1. | 3.1.1. | 1.1.1. | | 3.1.1. |
| 5. | 1.1.1. | | | | | | 2.2.2. | 2.3.1. | | 3.2.1. | 3.1.1. | | | |
| 6. | 1.1.1. | | | | | | 2.2.2. | | | 3.2.1. | | 1.1.5. | 3.1.1. | |
| 7. | | | | 1.2.2. | | | 2.2.2. | | | 3.2.1. | 3.1.1. | | | 3.1.1. |
| 8. | 1.1.1. | 1.1.2. | | 1.2.2. | | 2.2.1. | 2.2.2. | 2.3.1. | | 3.2.1. | | | | |
| 9. | 1.1.1. | | | | | 2.2.1. | | | | 3.2.1. | | 1.2.2. | | |
| 10. | | | | 1.2.2. | | | 2.2.2. | | | 3.2.1. | 3.1.1. | | | |
| 11. | 1.1.1. | | | | | 2.2.1. | | | | 3.2.1. | | | | |
| 12. | | | | 1.2.2. | | | 2.2.2. | | | 3.2.1. | | 1.2.4. | 3.2.1. | 3.1.1. |
| 13. | | | | 1.2.2. | | | 2.2.2. | | 3.1.1. | 3.2.1. | 3.1.1. | | | |
| 14. | | | | 1.2.2. | | | 2.2.2. | | 3.1.1. | 3.2.1. | | | | |
| 15. | | | | | 2.1.1. | | 2.2.2. | 2.3.1. | | 3.2.1. | | 2.1.1. | 3.2.2. | |
| 16. | | | | | | | | | 3.1.1. | 3.2.1. | | | | |
| 17. | 1.1.1. | 1.1.2. | | | 2.1.1. | | | | 3.1.1. | 3.2.1. | | | | |
| 18. | 1.1.1. | 1.1.2. | | | | | | 2.3.1. | | 3.2.1. | 3.1.1. | 2.1.2. | 3.2.1. | |
| 19. | | | 1.2.1. | | 2.1.1. | | 2.2.2. | | | 3.2.1. | 3.1.1. | | | 1.3.1. |
| 20. | | | | 1.2.2. | 2.1.1. | | | 2.3.1. | | 3.2.1. | | 2.1.1. | | |
| 21. | 1.1.1. | | | | | | 2.2.2. | | | 3.2.1. | 3.1.1. | | | 1.3.1. |
| 22. | | 1.1.2. | | 1.2.2. | | 2.2.1. | | | | 3.2.1. | | 2.1.1. | 3.2.1. | |
| 23. | | 1.1.2. | | 1.2.2. | | | 2.2.2. | 2.3.1. | | 3.2.1. | 3.1.1. | | | 1.1.1. |
| 24. | | 1.1.2. | | 1.2.2. | 2.1.1. | | 2.2.2. | | 3.1.1. | | | | | |
| 25. | | | | | | | | | 3.1.1. | 3.2.1. | | | | |

| Alt standartlar | Mövzular | Məzmun standartları | | | | | | | | | | İnteqrasiya | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1.1. | | 1.2. | | 2.1. | 2.2. | | 2.3. | 3.1. | 3.2. | Fən-daxili | Fənlərarası | | |
| | | 1.1.1. | 1.1.2 | 1.2.1. | 1.2.2. | 2.1.1. | 2.2.1. | 2.2.2. | 2.3.1. | 3.1.1. | 3.2.1. | | Əd. | H.B. | T.İ. |
| | 26. | 1.1.1. | | 1.2.1. | | 2.1.1. | | | | | 3.2.1. | | | | |
| | 27. | | 1.1.2. | | 1.2.2. | 2.1.1. | | 2.2.2. | | | 3.2.1. | 3.1.1. | 1.1.5. | 3.2.2. | |
| | 28. | | 1.1.2. | | 1.2.2. | | | 2.2.2. | 2.3.1. | | 3.2.1. | 3.1.1. | 1.1.4. | | 1.1.1. |
| | 29. | | | | 1.2.2. | | | 2.2.2. | 2.3.1. | | 3.2.1. | 3.1.1. | | | |
| | 30. | | | | 1.2.2. | | | | 2.3.1. | | 3.2.1. | 3.1.1. | | | |
| | 31-32. | | 1.1.2. | | | | | 2.2.2. | 2.3.1. | | 3.2.1. | 3.1.1. | | | |
| | 33. | 1.1.1. | | | 1.2.2. | | | 2.2.2. | | | 3.2.1. | | | | |
| | 34. | 1.1.1. | | 1.2.1. | | | | 2.2.2. | | | | | | | |

## QƏDİM ÇALĞI ALƏTLƏRİ HƏR BİR XALQIN MƏNƏVİ DƏYƏRİDİR

### 1-ci MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – TAR

**MƏQSƏD:**

1. Milli dəyərimiz olan muğam ilə əlaqədar biliklərini nümayiş etdirir. 2. Azərbaycan muğamına dair bilik və bacarığını nümayiş etdirir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, Venn diaqramı, müzakirə, müqayisə

**1**

Uşaqlar tarın ifasında səslənən «Çahargah» muğamından bir parçanın təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim şagirdlərin birinə Nizami Gəncəvinin «İskəndərnamə» poemasından tar musiqi aləti haqqında olan hissəni oxumağı tapşırır. Şeirin ifadəli oxusunu «Çahargah» muğamı müşayiət edir. Müəllim eyni zamanda şagirdlərin diq-

1-ci mövzu

**AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — TAR**




*Mehriban Əliyeva*

Olduqca qədim musiqi mədəniyyəti olan Azərbaycan xalqının gözəl səs tembrinə malik çoxlu sayda çalğı aləti var. Bu çalğı alətlərini öz adlarından dünyaya təqdim edənlərin bütün cəhdlərinə baxmayaraq, tar, kamança, qanun, tənbur, qopuz, saz, ud, qoşa-nağara, nağara, dümbək, balaban, zurna, qarazurna, tütək, ney, qaval və digər çalğı alətləri elə bu günə kimi Azərbaycan xalqına məxsus olaraq qalır. Məhz Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük zəhməti və səyi nəticəsində muğamlarımız və aşıq musiqimiz kimi qədim çalğı alətlərimiz də dünyanın mədəniyyət təşkilatları tərəfindən tanınmış, onların Azərbaycan xalqına məxsus olduğu təsdiq edilmişdir.

Qədim çalğı alətlərinin adına klassiklərimizin əsərlərində rast gəlinir. Nizami Gəncəvinin «İskəndərnamə» poemasında tar musiqi aləti belə xatırlanır:

*Müğənni, tək bircə gecə də çal tar,*
*Məni bu dar yolda əzabdan qurtar!*
*Bəlkə, genişlənsin, açılsın yolum,*
*Köçüm bu daşlıqdan, asudə olum...*

Tar sözü «daramaq» feilindən törəyib. Azərbaycan dilində «tarım» sözü (bərk dartılıb çəkilmiş) indi də var. Tar sözü «tel», «sap» kimi də izah edilir.

8

qətini lövhədən aşılmış tar musiqi alətinin təsvirinə, həm də tarı təkmilləşdirən tarzən Sadıqcanın XVI əsr Təbriz rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Mir Seyid Əlinin miniatür üslubunda işlənmiş avtoportretinə yönəldir. Müəllim sonra tar aləti və adıçəkilən şəxsiyyətlər haqqında məlumat verir.

3

Tədqiqat aparmaq üçün müəllim şagirdlərə belə bir sualla müraciət edir: ***«Müasir tar çalğı alətini kim və nə vaxt təkmilləşdirmiş, bunun nəticəsində tarda hansı dəyişikliklər baş vermişdir və bu alət hansı zamanlardan mövcuddur?»***

Tədqiqatın aparılması üçün sinif iki qrupa bölünür. I qrupa Sadıqcanın təkmilləşdirdiyi tar musiqi aləti haqqında internet resurslarından və dərslikdə verilən materiallardan istifadə edərək məlumat toplamaq, II qrupa isə dahi Nizaminin «İskəndərnamə» poemasından tar çalğı alətinə aid olan şeir parçasına və Təbrizli rəssam Mir Seyid Əlinin avtoportretinə əsaslanaraq tarın nə zaman mövcud olduğunu müəyyən etmək tapşırılır.


1-ci mövzu

*Musiqi dinləyək*

**«Çahargah» muğamından bir parça**

Mirzə Sadıq (Sadıqcan)

Qədim tarixə malik olan çalğı alətlərinin əsasında yaranmış və əsrlər boyu formalaşdırılmış tar XIX əsrin ikinci yarısında tarzən Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) tərəfindən təkmilləşdirildi. Onun forma və quruluşunda dəyişikliklər edildi. Sadıqcan tarın əldə tutma qaydasını da dəyişdi, onu diz üstündən sinəyə qaldırdı və simlərinin sayını 5-dən 11-ə qədər artırdı. Məhz Sadıqcanın təkmilləşdirdiyi tar bu gün Qafqazda, Orta Asiyada da geniş yayılmışdır.

*Yeni mahnı öyrənək*

**OXU, TAR**

*Musiqisi Səid Rüstəmovun, sözləri Mikayıl Müşfiqindir.*

I

Oxu, tar! Oxu, tar!
Səsindən ən gözəl şeir dinləyim.
Oxu, tar! Oxu, tar!
Nəğməni od tutub alışan
Ruhuma, qəlbimə çiləyim.
Oxu, sevgim mənim,
Oxu, arzum mənim,
Oxu, ürəyim.
Oxu, tar! Oxu, tar!
Səni kim unudar?!
Oxu, tar! Oxu, tar!

II

Oxu, tar! Oxu, tar!
Ey ana yurdumun şirin şərbəti.
Oxu, tar! Oxu, tar!
Bakımın, Gəncəmin,
Şəkimin, Şirvanımın
Alovlu sənəti.
Milim, Muğanımın,
Şuşam, Naxçıvanımın
Şərəfi, şöhrəti!
Oxu, tar! Oxu, tar!
Səni kim unudar?!
Oxu, tar! Oxu, tar!

9

**DİFERENSİAL TƏLİM**

1. Mövzu ilə əlaqədar televiziya və radioda dinlədiyi tar ifaçılarının adını söyləyir.
2. Tar musiqi alətinin şəklini çəkir.

**NƏTİCƏ**

Məktəblilər belə bir nəticəyə gəlirlər ki, əgər XII əsrdə dahi Nizami tar aləti haqqında məlumat veribsə, deməli, bu musiqi aləti hələ ondan çox-çox əvvəllər mövcud imiş.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Səid Rüstəmovun şair Mikayıl Müşfiqin sözlərinə yazdığı «Oxu, tar» mahnısı öyrədilir. Mahnının xarakteri müəyyənləşdirilir, poeziya və musiqi arasında əlaqələr aydınlaşdırılır.

**Tapşırıq 1.** «Oxu, tar» mahnısının sözləri və musiqisinin xarakterləri arasında uyğunluğu açıqlayın.

**Tapşırıq 2.** «Oxu, tar» mahnısının məzmununa uyğun şəkil çəkin.

**Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:**

1. Müəllimin təqdimatı ilə.
2. Şagirdlər tərəfindən fərdi şəkildə.


1-ci mövzu

III

Ey böyük xalqımın şirini, şərbəti,
Alovlu sənəti, ülvi məhəbbəti.
Ey tarçı, çal, oxu, könlümü al, oxu,
Vur sazı sinənə, çal, aşıq, çal, oxu,
Qəlbimi al, oxu.
Oxu, tar! Oxu, tar!
Səni kim unudar?!
Oxu, tar! Oxu, tar!

*Mikayıl Müşfiq*

*Xalq artisti, bəstəkar Səid Rüstəmov, Xalq artisti, müğənni Gülağa Məmmədov və Xalq Çalğı Alətləri Orkestri*

SUALLAR

1. Hansı qədim Azərbaycan xalq çalğı alətlərini tanıyırsan?
2. Kim tar çalğı alətinin forma və quruluşunu təkmilləşdirmişdir?
3. Nizami Gəncəvinin «İskəndərnamə» poemasında tar necə xatırlanıb?

TAPŞIRIQ: Muğam üçlüyü hansı xalq çalğı alətlərindən ibarətdir və muğam, əsasən, hansı alətin müşayiəti ilə ifa edilir? Bu barədə danış.

10

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. XIX əsrin ikinci yarısında tar musiqi alətini kim təkmilləşdirmişdir?**

a) Qurban Pirimov ☐ b) Sadıqcan ☐ c) Bəhram Mansurov ☐

**2. «Oxu, tar» mahnısının xarakteri necədir?**

a) şən ☐ b) qəmli ☐ c) həyəcanlı ☐

## 2-ci MÖVZU. TAR VƏ SİMFONİK ORKESTR

**MƏQSƏD:**

1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Simfonik orkestrdə ifa olunan musiqinin emosional təsiri haqqında fikrini izah edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.



2-ci mövzu

**TAR VƏ SİMFONİK ORKESTR**

Dahi bəstəkar Üzeyir Hacıbəyli tar çalğı alətinin texniki ifaçılıq imkanlarına, səslənmə xüsusiyyətlərinə istinad edərək: «Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və mühümüdür», — deyirdi. Tar bir solo aləti olmaqla bərabər, eyni zamanda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli tərəfindən dünya musiqi tarixində ilk dəfə Simfonik Orkestrin tərkibində səsləndirilmişdir. Bu hadisə 1908-ci il yanvarın 25-də bəstəkarın «Leyli və Məcnun» operasının premyerasında baş vermiş və bu günə kimi də tar aləti adıçəkilən muğam operasının tamaşalarında vokal partiyalarını oxuyan ifaçıların monoloq kimi ifa etdikləri muğam parçalarını müşayiət edir.

*Xalq artisti, tarzən Ramiz Quliyev və Simfonik Orkestr*

*Musiqi dinləyək*

**Üzeyir Hacıbəyli. «Leyli və Məcnun» operasından elçilik səhnəsində səslənən muğamdan bir hissə**

Qeyd etmək lazımdır ki, tardan bütün opera boyu bəstəkar məhz dediyimiz qaydada, yəni müşayiətçi kimi istifadə etmişdir. Sonradan Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyov, Müslüm Maqomayev, Şəfiqə Axundova muğam operalarında tar musiqi alətindən daha geniş şəkildə istifadə etmişlər.

*Üzeyir Hacıbəyli*

*Məhəmməd Füzuli*

Bəstəkarlarımızın muğam operalarına müraciət etmələrinin əsas səbəbi opera kimi mürəkkəb musiqi janrının muğamlarımıza görə tamaşaçılar tərəfindən asan başa düşülməsi olmuşdur.

11

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, Venn diaqramı, müzakirə, müqayisə

**1** Uşaqlar Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» operasından «Leylinin atası ilə Məcnunun atasının elçilik səhnəsi»ndə səslənən muğam musiqisini dinləyirlər. Müəllim muğam operaları yazmış Azərbaycan bəstəkarlarının adlarını sadalayır və şəkillərini şagirdlərə göstərir.

**2** Müəllim məktəblilərə Azərbaycanda muğam operalarının yaranmasının əsas səbəbini aydınlaşdırır və Venn diaqramı vasitəsilə klassik operaların muğam operalarından fərqli və oxşar cəhətlərini göstərir. Məlum olur ki, muğam operalarını klassik opera janrından fərqləndirən əsas cəhət milli operalarımızdakı dialoq səhnələrində sırf muğam musiqisindən istifadə olunmasıdır. Bundan sonra məktəblilərə verilmiş Venn diaqramı cədvəlində şagirdlər klassik və muğam operalarının fərqli və oxşar cəhətlərini yazırlar. Bir şagird isə bu cəhətləri ümumiləşdirərək lövhədəki Venn diaqramına doğru cavabları yazır.

3

Tədqiqat sualı verilməmişdən əvvəl bəstəkar Hacı Xanməmmədovun «Tar və Simfonik Orkestr üçün 1№li Konsert» əsərinin I hissəsindən əsas mövzu səsləndirilir.

Müəllim şagirdlərə tədqiqatın aparılması üçün belə sualla müraciət edir: ***«Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» operasında və Hacı Xanməmmədovun dinlədiyiniz əsərində tarın rolu nədən ibarətdir?»***

Sinif iki qrupa bölünür. I qrup «Leyli və Məcnun» operasında, II qrup «Tar və Simfonik Orkestr üçün 1 №li Konsert» əsərində tarın rolunu aydınlaşdırırlar.

## DİFERENSİAL TƏLİM

1. Məşhur tarzənləri şəkillərindən tanıyır.
2. Tarda eşitdiyi musiqi nümunələrinin adını söyləyir.

2-ci mövzu



*Hacı Xanməmmədov*



*Hacı Məmmədov*

Xalq artisti, bəstəkar Hacı Xanməmmədov tardan simfonik orkestrdə solo aləti kimi istifadə etmişdir. O, tar və simfonik orkestr üçün konsertlər yazmış və bununla da yeni bir janra həyat vermişdir. Bəstəkar tar aləti və simfonik orkestr üçün 5 konsert yazmış və onun 1 №li konsertinin solisti Azərbaycan Respublikasının Xalq artisti, tarzən Hacı Məmmədov, sonralar isə Əhsən Dadaşov olmuşdur.

**Klassik Avropa operası ilə muğam operasının oxşar və fərqli cəhətləri**

| Oxşar cəhətlər | Fərqli cəhətlər |
|---|---|
| 1. Solist-müğənnilərin ifasında səslənir. | 1. Müğənni və xanəndələrin ifasında səslənir. |
| 2. Simfonik orkestrin ifasında səslənir. | 2. Simfonik orkestrin tərkibinə tar aləti də əlavə edilməklə səslənir. |
| 3. Xoreoqrafiya elementləri ilə zənginləşdirilir. | 3. Muğamlardan opera boyu dialoqlarda istifadə edilir. |
| 4. Xor ifasından istifadə edilir. | |
| 5. Hər ikisi opera adlanır. | |

**BUNU DA BİLİN**

Konsert solo musiqi aləti, simfonik və kamera orkestrləri üçün yazılmış mürəkkəb quruluşlu musiqi janrıdır. Bu əsərlərdə ifaçı-solist öz virtuoz ifaçılıq qabiliyyətlərini göstərir, orkestr isə onunla bir növ dialoqda iştirak edir. Konsert, adətən, üç hissədən ibarət olur. Birinci hissə sonata-alleqro, ikinci hissə mürəkkəb üçhissəli, üçüncü hissə isə rondo və ya rondo-sonata quruluşunda yazılır. Klassik Avropa bəstəkarlarından Frans Jozef Haydn, Volfqanq Amadey Motsart, Lyudviq van Bethoven, Edvard Qriq, rus bəstəkarlarından Pyotr İliç Çaykovski, Sergey Raxmaninov, Sergey Prokofyev, Dmitri Şostakoviç və digərləri bu janrda klassik nümunələrin müəllifidirlər. Azərbaycanda Qara Qarayev, Fikrət Əmirov, Azər Rzayev, Cahangir Cahangirov, Vasif Adıgözəlov və başqa bəstəkarlar da konsert janrında gözəl əsərlər yazmışlar. Bu əsərlər vaxtaşırı dünyanın ən məşhur konsert salonlarında ifa olunmaqla bərabər, eyni zamanda yeni nəsil musiqiçilərin inkişafında da böyük rol oynamışdır.

12

## NƏTİCƏ

«Leyli və Məcnun» operasında tar alətindən müşayiətçi, «Tar və Simfonik Orkestr üçün 1№li Konsert» əsərində isə solo kimi istifadə edilmişdir.

**Yaradıcı tətbiqetmə.** Səid Rüstəmovun Mikayıl Müşfiqin sözlərinə bəstələdiyi «Oxu, tar» mahnısı notlarla və sözləri ilə oxunulur.

**Tapşırıq 1.** Səid Rüstəmovun əvvəlki siniflərdə öyrəndiyiniz mahnılarının adlarını söyləyin.

**Tapşırıq 2.** Adlarını müəyyənləşdirdiyiniz mahnıların məzmununa uyğun şəkillər çəkin.


2-ci mövzu

*Musiqi dinləyək*

**Hacı Xanməmmədov. «Tar və Simfonik Orkestr üçün 1 №-li Konsert»in I hissəsindən əsas mövzu**

*Mahnıdan bir parçanı notla və sözləri ilə oxuyaq*

**OXU, TAR**

*Musiqisi Səid Rüstəmovun, sözləri Mikayıl Müşfiqindir.*



**SUALLAR**

1. Tar çalğı alətini ilk dəfə Simfonik Orkestrin tərkibinə kim daxil etmişdir?
2. Tar və simfonik orkestr üçün konsert musiqi janrının ilk müəllifi hansı bəstəkardır?
3. Daha hansı bəstəkarlar tar və simfonik orkestr üçün konsert janrında əsərlər yazmışlar?

**TAPŞIRIQ:** İnternet resurslarından istifadə etməklə «Leyli və Məcnun» operasında tar alətindən neçə dəfə istifadə olunduğunu müəyyənləşdir.

13

**Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:**

1. Şagirdlərin internetdən əldə etdikləri məlumatlar vasitəsilə.
2. Müəllimin təqdimatı ilə.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Tar və simfonik orkestr üçün konsert janrının ilk müəllifi kim olmuşdur?**

a) Səid Rüstəmov ☐ b) Ramiz Mirişli ☐ c) Hacı Xanməmmədov ☐

**2. «Oxu, tar» mahnısının tempi necədir?**

a) alleqro ☐ b) andante ☐ c) moderato ☐

# 3-cü MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – KAMANÇA

**MƏQSƏD:**

1. Milli dəyərlərimizdən olan muğamlar haqqında biliklərini göstərir. 2. Dinlədiyi musiqidən yaranan təəssüratlarını ifadə edir. 3. Mahnını birsəsli, qrup və xor tərkibində oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, Venn diaqramı, müzakirə, müqayisə

**1**

Uşaqlar bəstəkar Şəfiqə Axundovanın İsgəndər Coşqunun sözlərinə yazdığı «Mehriban olaq» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim şagirdlərdən birinə Nizami Gəncəvinin «Xosrov və Şirin» poemasından kamança çalğı alətinə aid olan şeir parçasını Habil Əliyevin kamançada ifa etdiyi «Şüştər» klassik muğamının təranələri altında ifadəli oxutdurur. Müəllim şagirdlərin diqqətini həm də lövhədə asılmış ka-



3-cü mövzu

AZƏRBAYCAN XALQ
ÇALĞI ALƏTİ — KAMANÇA

Kamança qədim, simli çalğı alətidir.

«Kamança» sözünün «kaman» hissəsi farsca «yay», «qövs» deməkdir, «ça» isə kiçiltmə şəkilçisidir. Bu alət farslara türklərdən keçib. Türklər bu aləti «qişek» adlandırırlar. Qədim tarixçilər kamançanın Orta Asiyadan, yaxud Hindistandan gəldiyini yazırlar.

XVI əsrdə Təbrizli rəssam Mir Seyid Əlinin «Musiqi məclisi» əsərində qədim bərbət, dəf, kamança alətləri öz əksini tapmışdır.

Dahi Nizami Gəncəvi «Xosrov və Şirin» poemasında belə yazır:

*Kaman Musa kimi yanır, inləyir,*
*Çalan xanəndəni durub dinləyir.*
*Oxuyan bir gözəl qəzəl başladı,*
*Bu keyfi-işrəti çox alqışladı.*

*Xalq artisti Habil Əliyev*

*Kamança*

*Musiqi dinləyək*

**«Şüştər» muğamından bir parça. İfa edir Habil Əliyev**

Milli musiqi mədəniyyətimizdə tar, kamança və əlində qaval olan xanəndədən ibarət «Azərbaycan Xalq Çalğı Alətləri üçlüyü» adlanan musiqi kollektivi çox geniş yayılmışdır. Azərbaycan Xalq Çalğı Alətləri üçlüyü xalq arasında «Muğam üçlüyü» kimi tanınır.

*Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun» operettası əsasında çəkilmiş filmdən fraqment. Azərbaycan Xalq Çalğı Alətləri üçlüyü — Xan Şuşinski, Bəhram Mansurov, Tələt Bakıxanov*

14

mança musiqi alətinə yönəldir. Eyni zamanda məşhur kaman ustası Habil Əliyevin də şəkli lövhədən asılır.

3

Müəllim tədqiqatın aparılması üçün şagirdlərə bu sualla müraciət edir: ***«Uşaqlar, sizcə, kamança musiqi aləti nə vaxt yaradılmışdır?»***

Şagirdlərin verdikləri cavablardan məlum olur ki, əgər dahi Nizaminin əsərlərində XII əsrdə bu musiqi aləti ilə əlaqədar məlumatlar olubsa, deməli, kamançanın yaranması ondan da çox-çox əvvəllərə aid edilə bilər.

Bundan sonra müəllim kamança musiqi alətinin, solo alət kimi Azərbaycan Xalq Çalğı Alətləri üçlüyündə də istifadə olunduğunu sübut etmək üçün Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun» filmindən Xan Şuşinski (xanəndə), Bəhram Mansurov (tar) və Tələt Qasımov (kamança) üçlüyü olan kadrı göstərir.

3-cü mövzu

Muğam üçlüyü həm muğamlarımızı, həm də xalq mahnılarımızı və təsnifləri çox böyük məharətlə ifa edir.

*Musiqi dinləyək*

**«O olmasın, bu olsun» bədii filmindən Azərbaycan Xalq Çalğı Alətləri üçlüyünün ifasında musiqi parçası**

*Yeni mahnı öyrənək*

**MEHRİBAN OLAQ**

*Musiqisi Şəfiqə Axundovanın,*
*sözləri İsgəndər Coşqunundur.*



*Xalq artisti, bəstəkar*
*Şəfiqə Axundova*

I

Duyğularım dilə gəldi yenə,
Ey insanlar, qulaq asın mənə.

*Nəqərat:*
Min könüldə bir can olaq,
Daha da mehriban olaq.
Mehriban, qayğıkeş bir insan olaq,
Mehriban olaq, mehriban olaq.

II

Təmiz eşqi, məhəbbəti tutaq,
Deyək, gülək qəm-qüssədən uzaq.

*Nəqərat:*

III

İllər ötür biz doluruq yaşa,
Məhəbbətlə vuraq ömrü başa.

*Nəqərat:*

**SUALLAR**

1. Kamança çalğı alətinin tarixi haqqında nə bilirsən?
2. Kamança çalğı alətinin adının mənası nədir?
3. Məşhur tar və kamança ifaçılarından kimləri tanıyırsan?

**TAPŞIRIQ:** Bu günə kimi tanıdığın Azərbaycan xalq çalğı alətlərinin tarixi haqqında təqdimat hazırla.

15

**DİFERENSİAL TƏLİM**

1. Televiziya kanallarından və radio dalğalarından tanıdığı kamança alətində çalan musiqiçilərin adını söyləyir.
2. Kamança musiqi alətinin şəklini çəkir.

**NƏTİCƏ**

Şagirdlər belə bir nəticəyə gəlirlər ki, kamança qədim musiqi aləti olaraq solo və musiqi kollektivləri tərkibində istifadə olunur.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Şəfiqə Axundovanın İsgəndər Coşqunun sözlərinə yazdığı «Mehriban olaq» mahnısı öyrədilir. Mahnının xarakteri, sözləri ilə melodiyası arasında uyğunluq müəyyənləşdirilir.

**Tapşırıq 1.** «Mehriban olaq» mahnısının ritminə uyğun əl çalın.

**Tapşırıq 2.** «Mehriban olaq» mahnısının məzmununa uyğun şəkil çəkin.

**Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:**

1. Şagirdlərin internetdən aldıqları məlumatlara əsasən.
2. Müəllim tərəfindən təqdimat şəklində.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Nizami Gəncəvinin hansı poemasında kamança haqqında məlumat var?**

a) «Leyli və Məcnun» ☐ b) «Xosrov və Şirin» ☐ c) «Yeddi gözəl» ☐

**2. «Mehriban olaq» mahnısı hansı rəqsin intonasiyaları əsasında yazılıb?**

a) «Yallı» ☐ b) «Cəngi» ☐ c) «Vağzalı» ☐

# 4-cü MÖVZU. KAMANÇA VƏ SİMFONİK ORKESTR

**MƏQSƏD:**

1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Simfonik orkestrdə ifa olunan musiqi əsərinin emosional təsiri haqqında fikrini izah edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.


4-cü mövzu

KAMANÇA VƏ SİMFONİK ORKESTR

Ədalət Vəzirov və Simfonik Orkestr

Azərbaycan musiqi mədəniyyəti tarixində ilk dəfə kamança və simfonik orkestr üçün konsert janrında 1990-cı ildə Azərbaycan Respublikasının Xalq artisti, professor Hacı Xanməmmədov «Kamança və Simfonik Orkestr üçün Konsert» əsərini yazmışdır.

Bu əsərin ilk quruluşunda kamançada solo ifanı Ədalət Vəzirov etmişdir.

Konsertin I hissəsinin I mövzusunda (əsas mövzu) bəstəkar «Çahargah», II mövzusunda isə (köməkçi mövzu) «Şur» və «Segah» muğamlarının intonasiyalarından istifadə etmişdir.

*Musiqi dinləyək*

**Hacı Xanməmmədov. «Kamança və Simfonik Orkestr üçün Konsert»in ekspozisiyası**

Xalq artisti Hacı Xanməmmədov «Bir dəqiqə» (librettosu Məhərrəm Əlizadənindir), «Bütün əsrlər yaxşıdır» (librettosu Aleksandr Xaldeyevindir) musiqili komediyalarının, «Xalq Çalğı Alətləri Orkestri üçün Simfoniyyetta»nın, «Azərbaycan eskizləri», «Kolxoz», «Bayram» süitalarının, həm də çoxsaylı mahnıların müəllifidir. Azərbaycanın milli musiqi xəzinəsində kamança və simfonik orkestr üçün konsert janrında Səid Rüstəmov, Ramiz Mirişli və başqa bəstəkarların da əsərləri yer almışdır.

*Notla oxuyaq*

**Hacı Xanməmmədov. «Kamança və Simfonik Orkestr üçün Konsert» əsərindən I hissənin köməkçi mövzusundan bir parça**



16

## İstifadə olunan iş üsulları

Beyin həmləsi,
Venn diaqramı,
müzakirə, müqayisə

**1**

Şagirdlər Şəfiqə Axundovanın İsgəndər Coşqunun sözlərinə bəstələdiyi «Mehriban olaq» mahnısının tərənələri altında sinfə daxil olurlar.

**2**

Müəllim bəstəkar Hacı Xanməmmədovun «Kamança və Simfonik Orkestr üçün Konsert» əsəri, əsərin ilk ifaçısı Əməkdar artist Ədalət Vəzirov haqqında məlumat verir, onların şəkillərini göstərir. Sonra əsərin I hissəsinin əsas və köməkçi mövzuları səsləndirilir. Bundan sonra şagirdlər dinlədikləri iki mövzunun xaraktercə fərqini müəyyənləşdirirlər.

3

Tədqiqat aparmaq üçün müəllim şagirdlərə belə bir sualla müraciət edir: ***«Uşaqlar, dinlədiyiniz bu iki musiqi parçaları bir-birindən nə ilə fərqlənirlər?»***

Cavablar müxtəlif olsa da, müəyyənləşdirilir ki, birinci mövzu, yəni əsas mövzu cəld, ikinci – köməkçi mövzu isə aramlı səslənir və xaraktercə lirikdir. Bundan sonra müəllim bəstəkar Hacı Xanməmmədovun yazdığı digər əsərlər haqqında da qısa məlumat verir.

Müzakirə nəticəsində müəllimin köməyi ilə şagirdlər belə bir fikrə gəlirlər ki, kamança solo, xalq üçlüyündə və Xalq Çalğı Alətləri ansambllarında (orkestrində) ifaçı kimi iştirak etdiyi kimi, eyni zamanda simfonik orkestrin tərkibində solo ifaçı kimi iştirak edə bilər.


4-cü mövzu

*Mahnını notla və sözləri ilə oxuyaq*

**MEHRİBAN OLAQ**

*Musiqisi Şəfiqə Axundovanın, sözləri İsgəndər Coşqunundur.*



**SUALLAR**

1. Azərbaycanda «Kamança və Simfonik Orkestr üçün Konsert» ilk dəfə kim tərəfindən yazılmışdır?
2. Hacı Xanməmmədov daha hansı musiqi əsərlərinin müəllifidir?
3. Kamança və simfonik orkestr üçün konsert janrında daha hansı bəstəkarlar əsərlər yazmışdır?

**TAPŞIRIQ:** Cəlil Məmmədquluzadənin «Kamança» hekayəsinin məzmununu danış.

17

**DİFERENSİAL TƏLİM**

1. Məşhur kamança ifaçılarını şəkillərindən tanıyır.
2. Kamançada eşitdiyi musiqi nümunələrinin adlarını söyləyir.

**NƏTİCƏ**

Kamançada solo musiqi aləti kimi muğamlarımızı çalmaqla bərabər, eyni zamanda simfonik orkestrin tərkibində solist kimi ciddi bəstəkar musiqiləri ifa etmək mümkündür.

**Yaradıcı tətbiqetmə.** Şəfiqə Axundovanın İsgəndər Coşqunun sözlərinə bəstələdiyi «Mehriban olaq» mahnısını notla və sözləri ilə oxuyur.

**Tapşırıq 1.** Şəfiqə Axundovanın əvvəlki illərdə oxuduğunuz mahnılarının adlarını söyləyin.

**Tapşırıq 2.** Adlarını söylədikləriniz mahnıların melodiyalarını yada salaraq oxuyun.

**Mahnının müəllifləri ilə tanışlıq müxtəlif cür olur:**

1. Şagirdlərin təqdimatı ilə.
2. Müəllimin təqdimatı ilə.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Kamança və Simfonik Orkestr üçün Konsert»i ilk dəfə kim yazıb?**

a) Hacı Xanməmmədov ☐ b) Ramiz Mirişli ☐ c) Səid Rüstəmov ☐

**2. Hacı Xanməmmədovun «Kamança və Simfonik Orkestr üçün Konsert» əsərinin ilk ifaçısı kim olub?**

a) Şəfiqə Eyvazova ☐ b) Habil Əliyev ☐ c) Ədalət Vəzirov ☐

## 5-ci MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – QANUN (KANON)

**MƏQSƏD:**
1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə

**1**

Şagirdlər sinfə bəstəkar Azər Dadaşovun Nüsrət Kəsəmənlinin sözlərinə bəstələdiyi «Qarabağ bayatıları» mahnısının təranələri altında daxil olurlar.

**2**

Müəllim qanun musiqi alətinin şəklini şagirdlərə göstərir və onun haqqında məlumat verir. Şagirdlərdən biri dahi Azərbaycan şairi Məhəmməd Füzulinin «Yeddi cam» əsərindən qanun (kanon) aləti haqqında şeir parçasını ifa-



5-ci mövzu

**AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — QANUN (KANON)**

*Qanun*

Qanun yastı sazlar ailəsinə mənsub olub, dartımlı-simli xalq çalğı alətidir.

Qanun Yaxın və Orta Şərqdə, həmçinin də Azərbaycanda tarixən geniş yayılmışdır.

Bir sıra qədim musiqi traktatlarında qanun musiqi alətinin böyük türk alimi Əbu Nəsr Məhəmməd əl-Fərabi (870—950) tərəfindən icad olunduğu söylənilir. Digər mənbələrdə isə Fərabinin bu alət üzərində müxtəlif ixtiralar etdiyi fikri irəli sürülür. Bu musiqi aləti yunan dilində «kanon» adlanır və mənası da «dəyişməyən» deməkdir. Yaxın Şərqdə — Misirdə, Assuriyada, Yunanıstanda, İranda geniş yayılmış qanun Orta Asiyadan Anadoluya köç edən türklər vasitəsilə bütün Qafqaza yayılmışdır. Bu musiqi aləti Azərbaycanın klassik şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, Məhsəti Gəncəvi poeziyasında da öz parlaq əksini tapmışdır.

Qanun alətini Məhəmməd Füzuli «Yeddi cam» əsərində belə təsvir edib:

*Bir gün gecə məclisimiz vardı ki, ondan,*
*Çox-çox uzağa qalmış idi dərd, qəm, hicran.*
*Xam nəğmələrlə edərək aləmi məmnun,*
*Bir huri-mələk çalırdı iri bir qanun.*

Keçmişdə qanun aləti, əsasən, saray xanımları tərəfindən ifa olunurdu.

Qanun aləti ilk dəfə Azərbaycan Respublikasının Xalq artisti, böyük bəstəkar, professor Səid Rüstəmov tərəfindən 1959-cu ildə Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil edilmişdir. 1983-cü ildə Azərbaycan Xalq artisti, professor Süleyman Ələsgərov Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq Çalğı Alətləri kafedrasında qanun çalğı alətinin bir milli alət kimi tədris olunmasına nail olmuşdur.

18

dəli oxuyur və bu alətin ifasında «Bayatı-Şiraz» muğamından bir parça səsləndirilir.

**3**

Tədqiqat aparmaq üçün müəllim şagirdlərə belə bir sualla müraciət edir: ***«Qanun musiqi aləti klassiklərimizin əsərlərində öz ifadəsini necə tapıb və bu alət neçənci əsrdə xalqın sevimli musiqi alətinə çevrilib?»***

Bundan sonra «Bayatı-Şiraz» muğamının «Bərdaşt» şöbəsindən bir parça notla unison şəkildə şagirdlər tərəfindən ifa olunur və dinlənilən muğam parçası ilə müqayisə edilir.

Müqayisə nəticəsində şagirdlər müəyyənləşdirirlər ki, dinlədikləri və notla ifa etdikləri musiqi nümunələri bir-birinə bənzəyir. Bundan sonra şagirdlərə qanun musiqi aləti üçün musiqi əsərləri yazmış Azərbaycan bəstəkarları haqqında məlumat verilir və Süleyman Ələsgərovun müəllifi olduğu «Qanun və fortepiano aləti üçün Poema»dan bir parça səsləndirilir.



5-ci mövzu

*Musiqi dinləyək*

**«Bayatı-Şiraz» muğamından bir parça. Qanun (kanon) musiqi alətinin ifasında**

**BUNU DA BİLİN**

Azərbaycanın ilk qanun ifaçısı Azərbaycan Respublikasının Əməkdar artisti Asya Tağıyeva olub və 1959-cu ildə onun ifasında ilk dəfə bu alətdə «Bayatı-Şiraz» və «Çahargah» muğamları vala yazılıb.

*Asya Tağıyeva*

*Notla oxuyaq*

**«Bayatı-Şiraz» muğamı. «Bərdaşt» şöbəsindən qanun musiqi alətində ifa olunan musiqi parçası**



Qanun musiqi alətində təkcə Azərbaycan xalq musiqi nümunələri olan muğamlar, rəqslər, mahnılar deyil, eyni zamanda klassik Avropa, rus və Azərbaycan bəstəkarlarının əsərlərini də müvəffəqiyyətlə ifa etmək mümkündür. Qanun musiqi aləti üçün Azərbaycan bəstəkarlarından Süleyman Ələsgərov, Dadaş Dadaşov və başqaları müxtəlif janrlarda musiqi əsərləri yazıb. Onlardan biri də Süleyman Ələsgərovun «Qanun və fortepiano aləti üçün Poema» əsəridir.

*Musiqi dinləyək*

**Süleyman Ələsgərov. «Qanun və fortepiano aləti üçün Poema»dan bir parça**

19

**DİFERENSİAL TƏLİM**

1. «Bayatı-Şiraz» muğamının melodiyasını notla ifa edir.
2. «Bərdaşt» şöbəsinin melodiyasının ritmini əl ilə çalır.

## NƏTİCƏ

Qanun (kanon) qədim Azərbaycan musiqi alətində xalq musiqi nümunələri ilə bərabər, eyni zamanda professional musiqi nümunələri də çalmaq mümkündür.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Azər Dadaşovun şair Nüsrət Kəsəmənlinin sözlərinə yazdığı «Qarabağ bayatıları» mahnısı öyrədilir.

**Tapşırıq 1.** «Qarabağ bayatıları» mahnısına dirijorluq edin.

**Tapşırıq 2.** Qarabağdakı məşhur qalaların adını yadınıza salın.

**Musiqi əsərlərinin müəllifləri haqqında məlumat müxtəlif cür verilə bilər:**

1. İnternetdən şagirdlərin aldıqları məlumatlara əsasən.
2. Müəllimin təqdimatı ilə.

5-ci mövzu

*Yeni mahnı öyrənək*

**QARABAĞ BAYATILARI**

*Musiqisi Azər Dadaşovun,*
*sözləri Nüsrət Kəsəmənlinindir.*

I

Qarabağım — qar bağım,
Yaşıl ümid yarpağım.
Oyağam, əsgərinəm,
Yatsam, sən ol yorğanım.

*Nəqərat:*
Bu torpağı əkərəm,
Min nazını çəkərəm.
Yurduma kəc baxanın
Mən gözünü tökərəm.

II

Şuşam qalamdı mənim,
Yurdum, anamdı mənim.
Mən onun balasıyam,
O da balamdı mənim.

*Nəqərat:*

III

Əsgəran əsgərimdi,
Xankəndi dərd-sərimdi.
Hər kəs yerini tapsın,
Bura mənim yerimdi.



*Azər Dadaşov*



*Əsgəran qalası*

**SUALLAR**

1. Qanun çalğı alətinin tarixi haqqında nə bilirsən?
2. Qanun (kanon) sözünün mənası nədir?
3. Azərbaycan bəstəkarları qanun aləti üçün hansı əsərləri yazmışdır?

**TAPŞIRIQ:** «Qarabağ bayatıları» mahnısı haqqında şifahi təqdimat hazırla.

20

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Dinlədiyiniz və oxuduğunuz muğam şöbəsi hansı muğama aiddir?**

a) «Şur» ☐ b) «Bayatı-Şiraz» ☐ c) «Segah» ☐

**2. «Qanun və fortepiano aləti üçün Poema» əsərinin müəllifi kimdir?**

a) Azər Dadaşov ☐ b) Süleyman Ələsgərov ☐ c) Oqtay Rəcəbov ☐

## 6-cı MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – SAZ

**MƏQSƏD:**

1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların geniş yayılmış əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

6-cı mövzu

### AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — SAZ

Saz qədim Azərbaycanda geniş yayılmış, mizrabla çalınan simli alətdir. Türk dünyasının rəmzi, ulu ozan sənətinin ayrılmaz tərkib hissəsi olan saz aləti armudşəkilli gövdəyə malikdir. Azərbaycanda üç cür sazdan istifadə olunur: cürə saz (4—6 simli, ən kiçik saz), qoltuq saz (6—7 simli, orta saz) və tavar saz və yaxud ana saz (8—9 simli, ən iri saz).



*Şah İsmayıl Xətai*

Xalq Çalğı Alətləri Orkestrinin və Ansamblının tərkibinə, adətən, qoltuq saz daxil edilir. Sazın cingiltili səsi, şaqraq tembri var. Saz musiqi alətindən solo ifa məqsədilə və yaxud başqa alətlərlə vəhdətdə istifadə olunur.

Çox qədim tarixə malik olan saz Səfəvilər dövlətinin banisi və ilk şahı, klassik Azərbaycan şairi Şah İsmayıl Xətainin qoşmalarından birində belə tərənnüm edilib:

*Bu gün ələ almaz oldum mən sazım,*
*Ərşə dirək çıxar mənim avazım.*
*Dörd iş vardır hər qarındaşa lazım:*
*Bir elm, bir kəlam, bir nəfəs, bir saz.*

Saz Şah İsmayıl Xətainin dövründə artıq indiki şəklini almışdı.

Saz sözü «köklənmiş», «ahəngdar», «mükəmməl» mənasını verir.

Azərbaycanda saz alətində, əsasən, el aşıqları çalırlar. Aşıqlar yuxarıda adları çəkilən bütün saz növlərindən istifadə edirlər.



*Qoltuq saz* | *Tavar saz* | *Cürə saz*

21

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə, klaster

**1**

Əvvəlki dərsdə olduğu kimi şagirdlər sinfə Azər Dadaşovun Nüsrət Kəsəmənlinin sözlərinə bəstələdiyi «Qarabağ bayatıları» mahnısının təranələri altında daxil olurlar.

**2**

Müəllim Şah İsmayıl Xətainin şəklini lövhədən asır və onun yaradıcılığından Azərbaycan xalq çalğı aləti saza həsr edilmiş şeiri oxuyur. Bundan sonra müəllim saz çalğı aləti, onun növləri haqqında məlumatları şəkillərə əsaslanaraq şagirdlərə sadə dildə aydınlaşdırır.

## 3

Müəllim şagirdlərə belə bir tədqiqat sualı ilə müraciət edir: ***«Saz alətində aşıqlar musiqinin müşayiəti ilə hansı şeir nümunələrini ifa edirlər?»***

Sonra şagirdlərə məşhur müasir aşıq musiqisi ifaçısı Aşıq Ədalətin ifasında «Misri» havası dinlədilir və «Vaqif gözəlləməsi» aşıq havası notla ifa edilir.

Professional bəstəkar Üzeyir Hacıbəylinin «Koroğlu» operasında «Aşıq mahnısı» nümunəsinin istifadə etməsi şagirdlərə aydınlaşdırılır və bu nümunə səsləndirilir. Şagirdlər müəllimin köməyi ilə dinlənilən və notla ifa olunan musiqi nümunələrini müqayisə edərək belə bir fikrə gəlirlər ki, aşıq musiqisi xalq yaradıcılığı nümunəsi olmaqla bərabər, eyni zamanda professional musiqidə də özünə yer tapmışdır.


6-cı mövzu

*Musiqi dinləyək*
**«Misri» aşıq havası**

Azərbaycanın milli aşıq musiqisi yaradıcılığında Abbas Tufarqanlı, Aşıq Qurbani, Molla Cümə, Xəstə Qasım, Sarı Aşıq, Miskin Abdal, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir, Mikayıl Azaflı, Aşıq Ədalət kimi görkəmli sənətkarların imzası var.

*Aşıq Ədalət*

*Notla oxuyaq*
**«Vaqif gözəlləməsi» aşıq havasından bir parça**

Moderato

*Musiqi dinləyək*
**Üzeyir Hacıbəyli. «Koroğlu» operasından «Koroğlunun aşıq mahnısı». İfa edir Əməkdar artist Ramil Qasımov**

Dahi bəstəkarımız Üzeyir Hacıbəyli eyniadlı operasında Azərbaycanın el qəhrəmanı Koroğlunu bir aşıq kimi təqdim etmişdir. Koroğlu el xilaskarı olmaqla bərabər, eyni zamanda sazda çalıb-oxuyan aşıqdır. Bu, onun xalqla yaxınlığına işarədir. Dahi Üzeyir Hacıbəyli dinlədiyimiz nümunədə Azərbaycan aşıq musiqisi intonasiyalarından, ritmindən çox böyük məharətlə istifadə etmişdir.

*Üzeyir Hacıbəylinin «Koroğlu» operasının dördüncü pərdəsindən «Aşıq» mahnısı. Koroğlu rolunda — Ramil Qasımov*

22

**DİFERENSİAL TƏLİM**

1. Saz alətinin müxtəlif növlərinin adlarını söyləyir.
2. Saz alətinin şəklini çəkir.

**NƏTİCƏ**

Aşıq yaradıcılığı xalq musiqisinə aid olmaqla bərabər, bir sıra Azərbaycan bəstəkarlarının, xüsusilə Üzeyir Hacıbəylinin «Koroğlu» operasında da özünə yer tapmışdır.

**Yaradıcı tətbiqetmə.** Azər Dadaşovun Nüsrət Kəsəmənlinin sözlərinə bəstələdiyi «Qarabağ bayatıları» mahnısı notla və sözləri ilə ifa edilir.

**Tapşırıq 1.** «Qarabağ bayatıları» mahnısının məzmununa uyğun şəkil çəkin.


6-cı mövzu

*Mahnını dinləyək, notla və sözləri ilə oxuyaq*

QARABAĞ BAYATILARI

*Musiqisi Azər Dadaşovun,*
*sözləri Nüsrət Kəsəmənlinindir.*



**SUALLAR**

1. Saz aləti haqqında nə deyə bilərsən?
2. Neçə cür saz aləti var və bu alətlər bir-birindən nə ilə fərqlənir?
3. Saz alətində ifa edən ustad sənətkarlardan kimləri tanıyırsan?

**TAPŞIRIQ:** Saz aləti haqqında şifahi təqdimat hazırla.

23

**Tapşırıq 2.** Məşhur aşıqların adlarını yada salın və söyləyin.

**Musiqi əsərləri haqqında məlumatları müxtəlif cür vermək olar:**

1. Esse şəklində şagirdlər tərəfindən.
2. Müəllimin sual-cavabı nəticəsində.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Koroğlu» operasında «Koroğlunun aşıq mahnısı»nı oxuyan müğənninin adı nədir?**

a) Bülbül ☐ b) Ramil Qasımov ☐ c) Samir Cəfərov ☐

**2. Aşıqlar hansı Azərbaycan xalq musiqi alətində çalırlar?**

a) tarda ☐ b) sazda ☐ c) kamançada ☐

## 7-ci MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – UD

**MƏQSƏD:**

1. Azərbaycan muğamlarına dair bilik və bacarıqlarını nümayiş etdirir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə

**1**

Şagirdlər bəstəkar Rəşid Şəfəqin Valeh Mirzənin sözlərinə yazdığı marş tempində «İstiqlal bayramı» mahnısı təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim lövhəyə məşhur ud ifaçısı Əhsən Dadaşovun və ud alətinin şəkillərini asır və bu alətin yaranması, Avropada yayılaraq lütnya adı alması, 1970-ci ildə gözəl tarzənimiz Əhsən



7-ci mövzu

AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — UD

Dünya musiqi mədəniyyətinə ən vacib, ən zərif və ən maraqlı alət kimi daxil olan ud, əsasən, Ərəbistan, Türkiyə, İran və bir çox Şərq xalqları arasında geniş yayılmış mizrabla çalınan simli musiqi alətidir. Ərəblər udu alətlərin şahı adlandırmışlar. Məhz ərəblər ilk dəfə bu ecazkar musiqi alətini Avropaya gətiriblər. Belə ki, VIII əsrdə İspaniya ərəblər tərəfindən istila olundu və o zamandan ud aləti ispan xalqının sevimli alətinə çevrildi.

Ud

Sonradan bu alət İspaniyadan İtaliyaya, Fransaya, Almaniyaya və Avropanın digər ölkələrinə keçib geniş yayıldı. Artıq XV—XVII əsrlərdə ud aləti hər yerdə səslənirdi. Odlar yurdu Azərbaycana bu musiqi alətinin gəlişi XI əsrin sonlarına təsadüf etmiş və 1930-cu illərədək ölkəmizdə geniş yayılmışdır.

Sonralar bir müddət yaddan çıxan bu alət 1970-ci ildə gözəl tarzənimiz, musiqişünas Əhsən Dadaşovun səyi ilə ilk dəfə Xalq Çalğı Alətləri Ansamblının, sonradan da Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil edilir.

Əhsən Dadaşov

Müasir dövrdə ud musiqi alətində solo şəklində muğamlar, dünya və Azərbaycan bəstəkarlarının müxtəlif janrlı əsərləri ifa olunur.

24

Dadaşovun səyi nəticəsində Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil edilməsi haqqında məlumat verir.

**3**

Şagirdlərdən biri dahi Məhəmməd Füzulinin «Yeddi cam» əsərindən ud haqqında bir parçanı vəznlə oxuyur, müəllim isə bu alətin ifasında klassik «Şur» muğamından bir parçanı müşayiətçi kimi səsləndirir. Tədqiqat aparmaq məqsədilə müəllim şagirdlərə belə bir sualla müraciət edir: ***«Uşaqlar, eşitdiyiniz şeir parçası ilə dinlədiyiniz muğam arasında xaraktercə uyğunluq vardırmı?»***

Bu suala şagirdlər müxtəlif cavablar versələr də, ümumiləşdirərkən məlum olur ki, şeir və muğamın hər ikisində daxili bir həyəcan hissi duyulur.

7-ci mövzu

*Musiqi dinləyək*

**«Şur» muğamından bir parça. Udda ifa edir Əhsən Dadaşov**

Udun quruluşu haqqında ilk izahat verən, onu ətraflı şərh və təhlil edən Şərqin böyük musiqi ustadı Əbunəsr Fərabi olmuşdur. Fərabi «Kitab-ül-musiqi-i kəbir» adlı əsərində qeyd edir ki, ud əvvəllər dörd simdən ibarət musiqi aləti idi. Sonradan ona beşinci sim əlavə olundu və daha gur və güclü səslənmə əldə etmək üçün simlər qoşalaşdırıldı.



*Təbriz miniatürləri silsiləsindən. Kamança, ud və dəf musiqi alətlərində ifa edən musiqiçilər. XVIII əsr*

Udun dörd simi kainatın varlığını ifadə edən ünsürlərin — od, su, torpaq və havanın vəhdəti hesab edilirdi. Bu əsrarəngiz musiqi alətinin birinci simi «zir», ikinci «məsna», üçüncü «mislas», dördüncü «bəm» və sonralar əlavə edilmiş beşinci simi isə «hadd» adlandırılmışdır.

Yazılı mənbələrdə bu alətin yaranmasını böyük yunan filosofu Platonun adı ilə əlaqələndirirlər. Lakin bu alətin sonradan təkmilləşməsində böyük Azərbaycan musiqişünası və məharətli ud ifaçısı Səfiəddin Urməvinin çox böyük xidmətləri olmuşdur.

Udun özünəməxsus lətafətli səsini dahi Məhəmməd Füzuli «Yeddi cam» əsərində belə təsvir edir:

*Bir gün yenə mən nəşəli bir bəzm düzəltdim,*
*Mən bu işi bir hikmət üçün bərqərar etdim.*
*Bir ud sədası bu zaman qalxdı həvayə,*
*Yandım, tütünüm çıxdı mənim övci-səmayə.*

25

**DİFERENSİAL TƏLİM**

1. Öyrədilən mahnının ritmini əl ilə tutur.
2. Ud alətini tanıyır və onun haqqında danışır.

**NƏTİCƏ**

Şagirdlər aydınlaşdırırlar ki, müxtəlif incəsənət nümunələri eyni bir hissi ifadə edə bilər. Bundan sonra məşhur tarzən və bəstəkar Adil Gərayın «Bağçakürd» əsəri ud və fortepianonun müşayiətilə səsləndirilir. Şagirdlər bu əsərdə bəstəkarın muğam intonasiyalarından necə istifadə etdiyinin şahidi olurlar.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Rəşid Şəfəqin Valeh Mirzənin sözlərinə yazdığı «İstiqlal bayramı» mahnısı öyrədilir.

**Tapşırıq 1.** «İstiqlal bayramı» mahnısının melodiyasına dirijorluq et.

**Tapşırıq 2.** Mahnının məzmununa uyğun şəkil çək.

**Musiqi əsərləri haqqında məlumat müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin biliklərinə istinad etməklə sual-cavab üsulu ilə.
2. Musiqi məktəbində oxuyan şagirdlərin təqdimatı ilə.


7-ci mövzu

*Musiqi dinləyək*
Adil Gəray. «Bağçakürd»

*Yeni mahnı öyrənək*

İSTİQLAL BAYRAMI

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Valeh Mirzənindir.*

I
Çiçəkləndi elimiz,
Nur səpildi üzlərə!
Taleyin bu töhfəsi,
Qismət oldu bizlərə!

*Nəqarət:*
Düz niyyətlisən
Bu dünyada sən,
Ey mənim ana
Vətənim.

II
Bizi sevməyənləri
Yandırdıq odumuzla.
Adınla bir səslənən
Müqəddəs adımızla.

*Nəqarət:*

SUALLAR
1. Ud musiqi aləti haqqında nə bilirsən?
2. «Yeddi cam» əsərinin müəllifi kimdir?
3. Ud alətini Xalq Çalğı Alətləri Ansamblının və Orkestrinin tərkibinə kim daxil etmişdir?

TAPŞIRIQ: Ud musiqi alətinin dünyada yayılması və məşhurlaşması haqqında esse yaz.

26

MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Ud alətini Azərbaycan Xalq Çalğı Alətləri Ansamblının tərkibinə ilk dəfə kim salmışdır?**

a) Hacı Məmmədov ☐ b) Əhsən Dadaşov ☐ c) Hacı Xanməmmədov ☐

**2. «İstiqlal bayramı» mahnısının xarakteri necədir?**

a) marş ☐ b) lirik ☐ c) vals ☐

## 8-ci MÖVZU. KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

***Şəkilləri göstərilən musiqiçilərin adlarını təyin et.***











### TEST SUALLARI

***1. Azərbaycan tarını kim təkmilləşdirib?***

a) Cəmil Əmirov ☐
b) Mirzə Sadıq Əsəd oğlu ☐
c) Bəhram Mansurov ☐

***2. Mir Seyid Əli hansı ixtisas sahibi idi?***

a) kaman ustası ☐
b) rəssam ☐
c) heykəltəraş ☐

***3. «Oxu, tar» mahnısının bəstakarı kimdir?***

a) Fikrət Əmirov ☐
b) Cahangir Cahangirov ☐
c) Səid Rüstəmov ☐

***4. Üzeyir Hacıbəyli «Leyli və Məcnun» operasını hansı şairin eyniadlı əsəri əsasında yazıb?***

a) Nizami ☐
b) Füzuli ☐
c) Xaqani ☐

***5. Hacı Xanməmmədovun «Kamança və Simfonik Orkestr üçün Konsert» əsərinin ilk ifaçısı kim olub?***

a) Habil Əliyev ☐
b) Ədalət Vəzirov ☐
c) Şəfiqə Eyvazova ☐

***6. Habil Əliyev hansı alətdə çalan sənətkardır?***

a) tar ☐
b) qanun ☐
c) kamança ☐

***7. «Tar, Kamança və Simfonik Orkestr üçün Konsert» əsərinin müəllifi kimdir?***

a) Səid Rüstəmov ☐
b) Hacı Xanməmmədov ☐
c) Ramiz Mirişli ☐

***8. Avropada ud aləti necə adlanırdı?***

a) violonçel ☐
b) lütnya ☐
c) violino ☐

***9. Azərbaycan xalq çalğı aləti ud kimin tərəfindən Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil edilmişdir?***

a) Əhsən Dadaşov ☐
b) Üzeyir Hacıbəyli ☐
c) Tofiq Quliyev ☐

# 9-cu MÖVZU. ÇALĞI ALƏTİ – QARMON

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Simfonik orkestrdə ifa olunan musiqinin emosional təsiri haqqında fikrini izah edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (çoxsəsli) oxuyur.

8-ci mövzu

### ÇALĞI ALƏTİ — QARMON

Tarixən rus xalqına məxsus metal dilçəkli, körüklü çalğı aləti olan qarmon XIX əsrin sonlarından başlayaraq xalqımızın musiqi mədəniyyətinə daxil olmuşdur. Bu musiqi aləti çox tezliklə el şənliklərində, Azərbaycan xalq çalğı alətləri ansambllarının tərkibində özünə layiqli yer tutmuşdur. Müasir dövrdə də qarmon milli Azərbaycan musiqisinin ifası üçün ən məqsədəuyğun çalğı aləti hesab edilir.



*Qarmon*

Belə ki, qarmon musiqi çalğı aləti öz yığcamlığına və müşayiət üçün ritm musiqi alətlərindən başqa heç nə tələb etmədiyinə görə ondan el şənliklərində, bayramlarda tez-tez istifadə edilir.

Bu çalğı alətinin təksəsli və çoxsəsli müşayiət üçün ifaçılıq imkanları olduğundan ondan asanlıqla istifadə etməyin mümkünlüyü xalq arasında qarmonun daha geniş yayılmasına gətirib çıxartmışdır.

Qarmon aləti cazibədar səs tembrinə malikdir. Müasir dövrdə Azərbaycanda istifadə olunan xromatik növlü qarmonun ifaçılıq xüsusiyyətləri və səs quruluşu ənənəvi rus qarmonlarından köklü surətdə fərqlidir. Azərbaycan qarmonunun yan tərəfləri ağacdan, orta hissəsi isə körüklü dördkünc qutudan ibarətdir. Qutunun daxilində ağac lövhələr üzərində xüsusi qayda ilə düzülmüş nazik metal dilçəklər yerləşdirilir. Qarmon musiqi aləti sağ və sol əlin köməyilə körüyü açıb-bağlamaq üsulu ilə səsləndirilir.

Qarmon alətində Azərbaycan muğamları və folklor musiqi nümunələri gözəl ifa edilir.

Azərbaycan qarmon ifaçılığı tarixində məşhur qarmon ifaçıları olmuşdur. Onlardan Əhəd Əliyevi (Kor Əhəd) və onun çox dəyərli tələbələrindən Teyyub Dəmirovu, Məmmədağa Ağayevi, Adil Hüseynovu, Səfərəli Vəzirovu, Abbas Abbasovu, Hacıbala Dadaşovu, Səttar Hüseynovu və başqalarını, qadınlardan Qızxanım Dadaşovanı, Kübraxanım Əliyevanı və digərlərini göstərmək olar. Müasir qarmon ifaçılığı məktəbinin parlaq nümayəndələrindən olan respublikanın Xalq artistləri Aftandil İsrafilovu, Kamil Vəzirovu və Əməkdar artist Zakir Mirzəyevi qeyd etmək lazımdır.

27

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə

**1**

Şagirdlər bəstəkar Rəşid Şəfəqin Valeh Mirzənin sözlərinə bəstələdiyi «İstiqlal bayramı» adlı mahnının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim şagirdlərə mövzunu elan edir və lövhədə tanınmış məşhur qarmon ifaçılarından Xalq artisti Aftandil İsrafilovun və Əməkdar artist Zakir Mirzəyevin şəkillərini asır. Müəllim qarmon musiqi alətinin Azərbaycana gətirilməsi, təkmilləşdirilməsi, tarixi haqqında məlumat verir. Bundan sonra şagirdlər üçün qarmon musiqi alətində Azərbaycanda çox geniş yayılmış «Vağzalı» milli rəqsimiz səsləndirilir. Tədqiqat aparmaq üçün müəllim şagirdlərə belə

sualla müraciət edir: ***«Uşaqlar, bu musiqi nümunəsi, adətən, hansı mərasim zamanı səsləndirilir?»***

Şagirdlərin əksəriyyəti bu musiqinin toylarda «gəlin havası» kimi səsləndirildiyini söyləyirlər. Müəllim daha bir sualla yenə şagirdlərə müraciət edir: «Uşaqlar, daha hansı musiqi alətində gəlin havası ifa olunur?» Şagirdlər cavab verirlər ki, klarnet musiqi alətində də «gəlin havası»nı çalırlar.

**3**

Uşaqlar müzakirə nəticəsində aydınlaşdırırlar ki, qarmon və klarnet tarixən Azərbaycan xalqına məxsus olmadığına baxmayaraq, hər iki musiqi alətindən el şənliklərində, toylarda geniş surətdə istifadə olunduğu üçün onlar xalqın milli mədəniyyətinə yaxından daxil ola bilmişlər.

Bundan sonra bəstəkar Tofiq Bakıxanovun «Qarmon və Simfonik Orkestr üçün Konsert»indən bir parça səslənir.



8-ci mövzu

*Musiqi dinləyək*

**«Vağzalı». Azərbaycan xalq rəqsi. Qarmonda ifa edir Azərbaycan Respublikasının Xalq artisti Aftandil İsrafilov**

«Vağzalı» Azərbaycan xalq rəqsinə el arasında həm də «Gəlin havası» deyilir. Ta qədimdən bu günə kimi bütün Azərbaycan toylarında gəlin bəy evinə yola salınanda onu bu musiqi müşayiət edir.

*Notla oxuyaq*

**«Vağzalı». Azərbaycan xalq rəqsi**

Allegro moderato

*Tofiq Bakıxanov* *Zakir Mirzəyev*

Uzun illər notsuz ifaçılığın Azərbaycanda geniş yayılmasına baxmayaraq, Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Bakıxanov qarmon musiqi alətinin sirlərini dərindən öyrənərək «Qarmon və Simfonik Orkestr üçün Konsert» əsərini yazmış və bu əsəri ilk dəfə qarmonda Əməkdar artist Zakir Mirzəyev ifa etmişdir.

28

**DİFERENSİAL TƏLİM**

1. Öyrənilən mahnının ritmini əl çalmaqla tutur.
2. Mahnının məzmununa uyğun şəkil çəkir.

**NƏTİCƏ**

1. Musiqi üçün heç bir keçilməz sərhəd yoxdur. Məsələn, qarmon həm Qərb, həm də Şərq ifaçılarının ən çox sevdiyi bir çalğı alətidir.

2. Qarmon alətində milli musiqi nümunələri ilə bərabər, bəstəkar musiqisini də ifa etmək mümkündür.

**Yaradıcı tətbiqetmə.** Rəşid Şəfəqin Valeh Mirzənin sözlərinə yazdığı «İstiqlal bayramı» mahnısı solo və xor tərkibində çoxsəsli kimi notlarla və sözləri ilə ifa olunur.

**Tapşırıq 1.** «İstiqlal bayramı» mahnısının xarakteri haqqında fikir söyləyin.



8-ci mövzu

*Musiqi dinləyək*

**Tofiq Bakıxanov. «Qarmon və Simfonik Orkestr üçün Konsert»in I hissəsindən bir parça**

*Yeni mahnını sözləri ilə və notla bir, ikisəsli oxuyaq*

**İSTİQLAL BAYRAMI**

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Valeh Mirzənindir.*



**SUALLAR**

1. Qarmon çalğı aləti Azərbaycana nə vaxt gətirilmişdir?
2. Qarmon çalğı alətindən, əsasən, hansı musiqi nümunələrinin ifası zamanı istifadə olunur?
3. Hansı Azərbaycan bəstəkarı «Qarmon və Simfonik Orkestr üçün Konsert» əsərini yazmışdır?

**TAPŞIRIQ:** Məşhur qarmon ifaçılarından birinin yaradıcılığı haqqında təqdimat hazırla.

29

**Tapşırıq 2.** Rəşid Şəfəqin əvvəlki illərdə öyrənilən mahnılarının adlarını söyləyin.

**Musiqi nümunələri ilə əlaqədar tanışlıq müxtəlif cür olur:**

1. Müəllimin təqdimatı ilə.
2. Fərdi şəkildə şagirdlər tərəfindən.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Qarmon və Simfonik Orkestr üçün Konsert» Azərbaycanda ilk dəfə hansı bəstəkar tərəfindən yazılmışdır?**

a) Nəriman Məmmədov ☐ b) Tofiq Bakıxanov ☐ c) Ramiz Mirişli ☐

**2. Qarmon aləti Azərbaycana hansı ölkədən gətirilmişdir?**

a) Gürcüstandan ☐ b) Rusiyadan ☐ c) Ukraynadan ☐

# 10-cu MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – BALABAN

**MƏQSƏD:**

1. Azərbaycan bəstəkarlarının əsərlərində folklor musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 2. Musiqi əsərlərinin emosional hisslərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə

**1**

Şagirdlər bəstəkar Səid Rüstəmovun Mirmehdi Seyidzadənin sözlərinə yazdığı «Şəhərimiz» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Mövzunun adı müəllim tərəfindən elan olunur və şagirdlərin diqqəti lövhədəki balaban musiqi alətinin, onun məşhur ifaçısı Bəhruz Zeynalovun şəklinə yönəldilir.

Müəllim balaban musiqi aləti, onun yaran-



9-cu mövzu

AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — BALABAN

Balaban

Balaban Azərbaycanın Gəncə, Qazax, Qarabağ, Naxçıvan ərazilərində geniş yayılmış qədim xalq musiqi alətidir. El arasında bu çalğı alətinə, eyni zamanda balaman, mey, yastı balaban da deyilir.

Müştüyünün yastı və yumşaq olmasından asılı olaraq, zərif-incə səsinə görə bu musiqi alətinə bəzən yastı balaban deyilir. Balaban gövdə, qamış, xərək və qapaqdan ibarətdir. Balabanın gövdə hissəsi, əsasən, qoz, ərik, armud, şümşad, tut, zoğal, cır alça və innab ağaclarından hazırlanır. Bu musiqi alətini Mərkəzi Asiyada, Kabardin Balkar Respublikasında baloban, Türkiyədə isə mey adlandırırlar. Türkmənistanda bu musiqi alətinin qamış balaman və ağac balaman kimi növləri də mövcuddur. «Balaban» sözü «bala» — kiçik və «ban» — səs sözlərinin birləşməsindən yaranmışdır. Balaban bir musiqi aləti kimi Azərbaycan xalqının el bayatılarında da özünə yer tapmışdır:

Bəhruz Zeynalov

*Əzizim bala banı,*
*Asta çal balabanı,*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?!*

XIX əsrin əvvəllərində Azərbaycan ərazilərinə kütləvi şəkildə köçürülən ermənilər xalq çalğı alətimiz olan balabanı da özününküləşdirib onu duduk, sonradan erməni duduyu adlandırmışlar. Onlar bu alətdə xüsusi coşquyla ifa edilən Azərbaycan xalq musiqi nümunələrini də mənimsəmişlər.

30

ma tarixi ilə əlaqədar məlumatları verdikdən sonra «Sarı gəlin» Azərbaycan xalq mahnısını balabanda səsləndirir və onun təranələri altında balaban haqqında məlumat verən el bayatısını ifadəli söyləyir. Eyni zamanda uzun illər həm dinlənilən «Sarı gəlin», həm də balabanın ermənilər tərəfindən mənimsənilərək öz adlarına çıxardıqlarını da şagirdlərin diqqətinə çatdırır. Sonra bu mahnı notla şagirdlər tərəfindən oxunulur.

3

Bundan sonra bəstəkar Oqtay Rəcəbovun «Göyçək Fatma» cizgifilm-operasından «Qızlar xoru» səsləndirilir və bu əsər «Sarı gəlin» havasının balabandakı ifası ilə müqayisə edilir.

Müəllim şagirdlərə belə bir tədqiqat sualı ilə müraciət edir: ***«Uşaqlar, dinlədiyiniz və notla ifa etdiyiniz bu iki musiqi nümunəsi arasında hansı əlaqə vardır?»***



9-cu mövzu

*Musiqi dinləyək*

**«Sarı gəlin». Azərbaycan xalq mahnısı. Balabanda ifa edir Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Zeynalov**

*Notla oxuyaq*

**«Sarı gəlin». Azərbaycan xalq mahnısı**

Moderato

**BUNU DA BİLİN**

«Sarı gəlin» qədim Azərbaycan xalq mahnısı ölkəmizin gözəl guşələrindən biri olan Qarabağda el musiqiçiləri tərəfindən yaranmışdır. Bu mahnı öz gözəlliyi və tez yadda qalma xüsusiyyətinə görə digər xalqlar tərəfindən də sevilir. Bu mahnıdan bəstəkar Oqtay Rəcəbov özünün «Soprano və Kamera Orkestri üçün Konsert»ində köməkçi mövzu, «Göyçək Fatma» cizgifilm-operasında isə «Qızlar xoru» kimi istifadə etmişdir.

*Musiqi dinləyək*

**Oqtay Rəcəbov. «Göyçək Fatma» cizgifilm-operasından «Qızlar xoru»**

Balaban musiqi alətinin səs diapazonu kiçik oktavanın sol səsindən II oktavanın do səsinə kimidir.

Bu musiqi alətindən solo kimi, eyni zamanda Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin və ansamblların tərkibində geniş şəkildə istifadə olunur.

31

**DİFERENSİAL TƏLİM**

1. Balaban alətinin hazırlandığı ağac növlərini sadalayır.
2. «Şəhərimiz» mahnısının ritmini əl çalmaqla tutur.

## NƏTİCƏ

Müzakirə və müqayisə nəticəsində şagirdlər belə nəticəyə gəlirlər ki, hər iki musiqi nümunəsinin melodiyası eynidir. Deməli, bəstəkarlarımız müxtəlif milli musiqi alətlərində səslənən melodiyalardan yazdıqları ciddi janrlı əsərlərində də istifadə edirlər.

**Yaradıcı tətbiqetmə.** Səid Rüstəmovun şair Mirmehdi Seyidzadənin sözlərinə bəstələdiyi «Şəhərimiz» mahnısı öyrədilir.

**Tapşırıq 1.** Şəhərimizin atributları haqqında esse hazırlayın.

**Tapşırıq 2.** «Bakı lövhələri» adlı şəkil çəkin.

**Musiqi nümunələri ilə əlaqədar məlumatlar iki cür verilə bilər:**

1. İnternet, televiziya kanalları və radio dalğalarından əldə edilən məlumatlar vasitəsilə.
2. Dərsdə dinlənilən musiqi nümunələrinin xarakterini müəyyənləşdirməklə.



9-cu mövzu

*Mahnını yada salaraq oxuyaq*

**ŞƏHƏRİMİZ**

*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

I

Yer üzündə şəhər olmaz
Bizim gözəl şəhər kimi.
Gecələri işıqlıdı
Al günəşli səhər kimi.

*Nəqərat:*
Bakı, canım Bakı,
Fəxrim, şanım Bakı!
Döyünən ürəyim,
Canım Bakı, qanım Bakı!

II

Abidələr qalxıb göyə
Hər meydanda, meydançada.
Gülümsəyir qərənfillər,
Qızılgüllər hər bağçada.

*Nəqərat:*

*Köhnə Bakı. Qız qalası* — *Yeni Bakı. Olimpiya stadionu*

SUALLAR

1. Balaban haqqında nə bilirsən?
2. Balabanın daha hansı adları vardır?
3. Balaban hansı xalq bayatısında xatırlanır?
4. «Sarı gəlin» Azərbaycan xalq mahnısından hansı bəstəkar öz əsərində istifadə etmişdir.

**TAPŞIRIQ:** Balaban çalğı aləti haqqında şifahi təqdimat hazırla.

32

### MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Göyçək Fatma» uşaq cizgifilm-operasını hansı bəstəkar yazıb?**

a) Oqtay Zülfüqarov ☐ b) Oqtay Rəcəbov ☐ c) Oqtay Kazımi ☐

**2. Balaban çalğı aləti hansı xalqa məxsusdur?**

a) rus ☐ b) Azərbaycan ☐ c) belarus ☐

## 11-ci MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – ZURNA

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Simfonik Orkestrdə ifa olunan musiqinin emosional təsiri haqqında fikrini izah edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (çoxsəsli) oxuyur.



10-cu mövzu

AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — ZURNA

Güclü və zil səsə malik zurna çalğı aləti Azərbaycan ərazisində geniş yayılmışdır.

Zurna sözünün müxtəlif mənaları mövcuddur. Bəzi tədqiqatçılar onun fars dilindən götürülmüş «sur» — şənlik, böyük ziyafət və «nay» — qarğı, qamış sözlərinin birləşməsindən yarandığını söyləyirlər. Qeyd etmək lazımdır ki, «sur» sözü, eyni zamanda farscadan tərcümədə «qala divarı», «öküz» kimi də anlaşılır.

Zurna

Qədim şumer dilində «sur», «sir», «ser» sözləri «ifa etmək», «çalıb-oynamaq» mənasında işlədilirdi. «Kitabi-Dədə Qorqud» dastanında zurnanın qədim adı «surna» kimi verilmişdir. Altay türkləri arasında geniş yayılan bu musiqi aləti tanuklarda «zur», çuvaş, tofa və başqırdlarda isə «sur», «şoor» adlandırılır.

Beləliklə, türk xalqlarına məxsus olan və «zurna», «sırna», «sirnay», «zurnay», «surney», «surnay» və s. kimi adlanan bu musiqi alətinin adı qədim şumer dilində «çalğı», «oxuyan qarğı» deməkdir.

Digər tərəfdən qədim urartu dilində «sur» kəlməsi «silah» kimi başa düşülürdü və təbii ki, coşqulu ahəngə malik səsi olan zurnanı «sur» üstəgəl «na», yəni «döyüş neyi» adlandırırdılar. Qədim türk xalqları döyüşə gedərkən, çövkən oyunu zamanı onları zurna müşayiət edirdi.

Zurna, əsasən, ərik, qoz və tut ağacından yonularaq hazırlanır. Üst hissəsində yeddi, alt hissəsində isə bir oyuq açılır. Əlavə olaraq zurnanın ağız tərəfində daha bir dəlik var. Bu dəlik zurnanı köklənmək üçün nəzərdə tutulub.

Azərbaycanda zurnanın səs tembrinə və ölçülərinə görə cürə, orta cürə və ayaq cürə, həm də əcəmi zurna, qarazurna, şəhabi zurna kimi növləri olmuşdur.

*Zurna çalan qadın. Təbriz miniatürləri silsiləsindən. XVIII əsr*

33

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə

**1**

Şagirdlər bəstəkar Səid Rüstəmovun Mirmehdi Seyidzadənin sözlərinə yazdığı «Şəhərimiz» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim zurna çalğı aləti, onun yaranma tarixi, növləri, qədim miniatürlərdə təsviri, ifa tərzi haqqında məlumat verir.

Bundan sonra müəllim zurna alətindən döyüş meydanlarında da istifadə olunduğunu bildirir. Müəllim qeyd edir ki, zurnaçılar dəstəsinin tərkibində əsas ifaçı usta və uzun müddət bir səsdən istifadə edərək onu müşayiət edənlər isə dəmkeşlərdir. Zurnaçılar dəstəsində zərb alətləri olan nağara, qoşanağara, laqqutu kimi musiqi alətlərindən də istifadə olunur.

Bundan sonra müəllim «Bağdagülü» Azərbaycan xalq rəqsini səsləndirir. Rəqs zurnaçılar dəstəsi tərəfindən ifa edilir.

3

Tədqiqat aparmaq üçün müəllim şagirdlərə bu sualla müraciət edir: ***«Uşaqlar, səslənən musiqi nümunəsində hansı musiqi alətlərinin səsini eşitdiniz?»***

Müxtəlif cavablar alan müəllimin köməyi ilə müzakirə və müqayisə nəticəsində şagirdlər belə fikrə gəlirlər ki, burada əsas melodiyanı ifa edən zurna, müşayiətçilər isə dəmkeş və zərb alətləridir.

Bundan sonra «Bağdagülü» havası ikisəsli şəklində şagirdlər tərəfindən notla ifa edilir.

Bu mərhələlərdən sonra müəllim bəstəkar Cavanşir Quliyevin «Zurna və Simfonik Orkestr üçün Uvertüra» əsərindən bir parçanı səsləndirir.



10-cu mövzu

Hazırda zurnanın orta cürə növündən geniş istifadə olunur.

Zurnaçılar dəstəsinin tərkibində əsas ifaçı olan usta və onu müşayiət edən dəmkeşdən əlavə dəf, nağara, balaban, qoşanağara, laqqutu kimi musiqi alətlərində ifa edənlər də var. Zurnanın səs diapazonu kiçik oktavanın si bemol səsindən üçüncü oktavanın do səsinə qədərdir.

**BUNU DA BİLİN**

Laqqutu müxtəlif ölçülü iki dördbucaq ağac qutudan ibarət zərb alətidir. Azərbaycanın Lerik, Astara, Masallı, Lənkəran, Cəlilabad rayonlarında bu alətdən daha çox istifadə edilir. Bu alət nağara, qoşanağara, qaval və başqa zərb alətləri ilə birlikdə müasir ansambl və orkestrlərin tərkibinə daxil edilir.

*Musiqi dinləyək*

**«Bağdagülü». Azərbaycan xalq rəqsi. Zurnaçılar dəstəsinin ifasında**

*Notla ikisəsli oxuyaq*

**«Bağdagülü». Azərbaycan xalq rəqsinin melodiyasından bir parça**



Zurna musiqi alətini ilk dəfə Üzeyir Hacıbəyli «Koroğlu» operasında orkestrin tərkibinə daxil etmişdir.

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev isə 1980-ci ildə «Zurna və Simfonik Orkestr üçün Uvertüra» yazmışdır.

34

**DİFERENSİAL TƏLİM**

1. Zurna alətini şəkildən tanıyır.
2. «Bağdagülü» havasına ritm tutur.

**NƏTİCƏ**

Zurna çalğı aləti təkcə zurnaçılar dəstəsində deyil, eyni zamanda ciddi janrlı musiqi əsərlərinin ifası zamanı da istifadə olunur.

**Yaradıcı tətbiqetmə.** Şagirdlər bəstəkar Səid Rüstəmovun Mirmehdi Seyidzadənin sözlərinə bəstələdiyi şən xarakterli «Şəhərimiz» mahnısının öyrənilməsi prosesini notla və sözləri ilə oxumaqla davam etdirirlər.

**Tapşırıq 1.** «Şəhərimiz» mahnısına ritmik müşayiət yaradın.
**Tapşırıq 2.** «Şəhərimiz» mahnısına ikinci səs əlavə etməklə oxuyun.


10-cu mövzu

*Musiqi dinləyək*
**Cavanşir Quliyev. «Zurna və Simfonik Orkestr üçün Uvertüra». Əsərdən bir parça**

*Mahnını yada salaraq notla və sözləri ilə oxuyaq*

**ŞƏHƏRİMİZ**

*Musiqisi Səid Rüstəmovun, sözləri Mirmehdi Seyidzadənindir.*



**SUALLAR**

1. Zurna musiqi aləti haqqında nə bilirsən?
2. Zurna musiqi alətinin adının mənası nədir?
3. Bəstəkar Cavanşir Quliyev zurna musiqi aləti üçün hansı əsəri yazmışdır?

**TAPŞIRIQ:** Zurna musiqi alətinin yayılma arealı haqqında təqdimat hazırla.

35

**Dinlənilmiş musiqi nümunələrinin müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:**

1. Müəllimin şifahi təqdimatı ilə.
2. Şagirdlərin kütləvi informasiya vasitələrindən aldıqları məlumatlar əsasında.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**
*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Zurna və Simfonik Orkestr üçün Uvertüra» əsərini kim yazmışdır?**
a) Faiq Sücəddinov ☐  b) Cavanşir Quliyev ☐  c) Dadaş Dadaşov ☐

**2. «Şəhərimiz» mahnısının tempi necədir?**
a) moderato ☐  b) alleqretto ☐  c) adajio ☐

## 12-ci MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ – TÜTƏK

**MƏQSƏD:**

1. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan, aşıq və digər folklor musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müsahibə, müzakirə, müqayisə

**1**

Şagirdlər sinfə Ağabacı Rzayevanın Mirvarid Dilbazinin sözlərinə yazdığı «Çoban Qara» mahnısının təranələri altında daxil olurlar.

**2**

Müəllim şagirdlərə qədim Azərbaycan xalq çalğı aləti olan tütək, onun yaranması, ölkəmizin bölgələrində istifadə olunması haqqında məlumat verir. Şagirdlərdən biri Nizami Gəncəvinin «İskəndərnamə» poemasından



11-ci mövzu

AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTİ — TÜTƏK

Məşhur musiqi tədqiqatçılarının gəldiyi nəticəyə görə tütək çalğı aləti bir çox nəfəs çalğı alətlərinin əcdadı olmuşdur. Hələ qədim zamanlardan bu çalğı aləti Şərq xalqlarına məlum idi və ondan geniş istifadə olunurdu.

Bu alətin səs tembri mülayim və təravətlidir. Azərbaycan ərazisində — Naxçıvan, Gədəbəy, Bərdə, İsmayıllı və Mingəçevirdə aparılan arxeoloji qazıntılardan məlum olmuşdur ki, eramızdan əvvəl ikinci minillikdə insanlar quş və heyvan sümüklərindən də tütəklər hazırlamışlar.

*Tütək*

Nizami Gəncəvinin «İskəndərnamə» əsərində tütək haqqında belə bir əhvalat var. Çoban qamışlıqdan keçərkən bir qamış kəsib ondan tütək düzəldir. Onu çalıb kədərini dağıdır. Gəzintiyə çıxan İskəndər çobanın tütəkdə yanıqlı ifasını eşidir. Onu hüzuruna çağırıb tütəyin sirrini öyrənmək istəyir. Çoban tütəyi belə təsvir edir:

*Təbriz miniatürləri silsiləsindən. XVI əsr*

*Bir quyudan göyərib çıxmış,*
*Şəkərdən şirindir, məncə, bu qamış.*
*Dəldim, yaraladım öz əlim ilə,*
*Hələ kəsilməmiş gəlməzdi dilə.*
*O cansız olsa da, sevirəm cantək,*
*Dilsizdir, mənimçün dildir bu tütək.*

36

tütək haqqında olan şeir nümunəsini ifadəli oxuyur. Məlum olur ki, bu çalğı aləti həm Azərbaycanda, həm də Mərkəzi Asiya ölkələrində geniş yayılmışdır. Müəllim şagirdlərin diqqətinə çatdırır ki, bu çalğı alətini dahi Üzeyir Hacıbəyli Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil etmişdir. Bundan sonra müəllim «Çoban bayatısı» melodiyasını tütəyin ifasında səsləndirir.

3

Tədqiqat sualı kimi müəllim şagirdlərə bu sualla müraciət edir: ***«Uşaqlar, tütək çalğı aləti tembrcə hansı Avropa musiqi alətini xatırladır?»***

Bundan sonra müəllim Soltan Hacıbəyovun «Karvan» əsərində «Hicaz» muğamı intonasiyaları üzərində fleyta aləti tərəfindən ifa olunduğunu şagirdlərin diqqətinə çatdırır. Müəllimin köməyi ilə məktəblilər verilən suala öz cavablarını söyləyirlər. Bundan sonra «Çoban bayatısı» musiqi nümunəsindən bir parça notla ifa olunur.

**11-ci mövzu**

Azərbaycanda və Mərkəzi Asiya ölkələrində tütək alətini qarğıdan, ağacdan və gildən düzəldirdilər.

Tütəyin boruşəkilli gövdəsi ərik, qoz, tut ağaclarından və yaxud qamışdan hazırlanır. Gövdənin üst hissəsində yeddi, alt hissəsində isə bir oyuq olur. Alətin baş tərəfinə – borunun içərisinə yanakı kəsilmiş ağac tıxac daxil edilir.

Bu musiqi alətinin səs diapazonu kiçik oktavanın si səsindən üçüncü oktavanın do səsinə qədərdir.

Dahi Üzeyir Hacıbəyli tütək alətini Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil etmişdir.

*Musiqi dinləyək*

**«Çoban bayatısı». Tütəkdə ifa edilir**

*Notla oxuyaq*

**«Çoban bayatısı»ndan bir hissə**




**BUNU DA BİLİN**

Adətən, çobanlar tərəfindən tütək musiqi alətində ifa olunduğu üçün bu musiqi nümunəsinə «Çoban bayatısı» deyilir. Sonradan professional tütək ifaçıları tərəfindən ifa olunub. Xaraktercə həzin olan bu musiqi nümunəsi ifaçıdan yüksək ifaçılıq qabiliyyəti tələb edir.

Bəstəkar Ağabacı Rzayeva məşhur Çoban Qaraya eyniadlı mahnı həsr etmişdir. Vaxtilə çox sevilən bu mahnının girişində və nəqəratında Xalq Çalğı Alətləri Ansamblında ifa zamanı solo kimi tütək alətindən istifadə olunmuşdur. Bu mahnını Azərbaycan Respublikasının Xalq artistləri Şövkət Ələkbərova və Gülağa Məmmədov ayrı-ayrılıqda çox böyük məharətlə oxumuşlar.

37

**DİFERENSİAL TƏLİM**

1. Tütəyin şəklini çəkir.
2. «Çoban bayatısı» musiqi nümunəsinin xarakterini aydınlaşdırır.

## NƏTİCƏ

Aparılan müzakirələr nəticəsində şagirdlər belə bir yekun rəyə gəlirlər ki, tütək musiqi alətinin səs diapazonu fleyta Avropa musiqi alətinə oxşayır.

Bəstəkar Ağabacı Rzayevanın Mirvarid Dilbazinin sözlərinə bəstələdiyi «Çoban Qara» mahnısı bir daha yada salınır və orada tütək alətinin mahnının əvvəlində və sonunda səslənməsinə diqqət yetirilir.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Əfsər Cavanşirovun Hikmət Ziyanın sözlərinə yazdığı «Mübarək» mahnısının öyrənilməsi ilə əlaqədar iş aparılır.

**Tapşırıq 1.** «Çoban Qara» mahnısına ritmik müşayiət yaradın.

**Tapşırıq 2.** Mahnının məzmununa uyğun şəkil çəkin.

**Mahnı müəllifləri ilə tanışlıq müxtəlif cür ola bilər:**

1. Şagirdlərin internetdən aldıqları məlumatlar əsasında şifahi təqdimat şəklində.
2. Müəllimin şagirdlərə verdiyi suallar əsasında.



11-ci mövzu

*Mahnı dinləyək*

**ÇOBAN QARA**

*Musiqisi Ağabacı Rzayevanın, sözləri Mirvarid Dilbazinindir.*

*Yeni mahnı öyrənək*

**MÜBARƏK**

*Musiqisi Əfsər Cavanşirovun, sözləri Hikmət Ziyanındır.*

**I**

Azərbaycan, bu bayram
Sənə necə yaraşır?!
Nəğmə deyir Kür, Araz,
Göy Xəzər coşub-daşır.

**II**

Oğlun, qızın hünərindən
Çələnglər hörür bu gün.
Dostların Bakımızın
Alnından öpür bu gün.

*Nəqərat:*
Gülür ellərin,
Gülür çöllərin.
Ağ günlərintək
Sənin vüqarlı,
Nurlu, baharlı
Yaşın mübarək.

**SUALLAR**

1. Tütək musiqi aləti haqqında nə bilirsən?
2. Tütəkdə ifa etməyi daha çox hansı peşə sahibləri sevir?
3. Tütək musiqi aləti hansı musiqi kollektivlərində istifadə olunur?
4. «Mübarək» mahnısının müəllifləri kimdir?

**TAPŞIRIQ:** «Tütək Azərbaycan folklorunda» mövzusunda təqdimat hazırla.

38

### MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Tütək tembrinə görə hansı Avropa çalğı alətinə bənzəyir?**

a) klarnet ☐ b) fleyta ☐ c) truba ☐

**2. Hansı dahi Azərbaycan şairi tütək çalğı aləti haqqında şeir yazmışdır?**

a) Məhəmməd Füzuli ☐ b) Nizami Gəncəvi ☐ c) Xaqani Şirvani ☐

## 13-cü MÖVZU. KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*1. Aftandil İsrafilov hansı musiqi alətində ifa edir?*

a) tar ☐
b) qoşanağara ☐
c) qarmon ☐

*2. «Sarı gəlin» Azərbaycan xalq mahnısından bəstəkar Oqtay Rəcəbov hansı uşaq operasında istifadə etmişdir?*

a) «Göyçək Fatma» ☐
b) «Sərçənin sərgüzəştləri» ☐
c) «Tıq-tıq xanım» ☐

*3. «Qarmon və Simfonik Orkestr üçün Konsert» əsərini hansı bəstəkar yazmışdır?*

a) Nəriman Məmmədov ☐
b) Tofiq Bakıxanov ☐
c) Hacı Xanməmmədov ☐

*4. «Zurna və Simfonik Orkestr üçün Uvertüra» əsərini hansı bəstəkar yazmışdır?*

a) Cavanşir Quliyev ☐
b) Səid Rüstəmov ☐
c) Hacı Xanməmmədov ☐

*5. «Çoban Qara» mahnısını hansı bəstəkar yazmışdır?*

a) Şəfiqə Axundova ☐
b) Ağabacı Rzayeva ☐
c) Hökümə Nəcəfova ☐

## 14-cü MÖVZU. AZƏRBAYCAN XALQ ZƏRB ÇALĞI ALƏTİ – NAĞARA

**MƏQSƏD:**

1. Azərbaycan bəstəkarlarının əsərlərindən folklor musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Mahnını ikisəsli müşayiətsiz oxuyur. 4. Mahnını qrup və xor tərkibində (ikisəsli) oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müqayisə, müzakirə, müsahibə

**1**

Məktəblilər sinfə Əfsər Cavanşirovun Hikmət Ziyanın sözlərinə yazdığı «Mübarək» mahnısının təranələri altında daxil olurlar.

**2**

Müəllim nağara çalğı aləti haqqında «Kitabi-Dədə Qorqud» dastanından, Nizami Gəncəvi poeziyasından şeir nümunələri oxuyur. Sonra nağaranın qoltuq, cürə, qoşanağara kimi növlərindən, onların ifaçılıq xüsusiyyətlərindən,



12-ci mövzu

AZƏRBAYCAN XALQ ZƏRB ÇALĞI ALƏTİ — NAĞARA

Qədim eposumuz «Kitabi-Dədə Qorqud»un boylarında adı çəkilən nağara aləti ordunu savaş meydanında müşayiət edən əhəmiyyətli zərb alətlərindən biri hesab edilir.

«Kitabi-Dədə Qorqud»da belə deyilir: «Gumbur-gumbur nağaralar döyüldü, bir qiyamət savaş oldu, meydan dolu baş oldu». Dahi Nizami Gəncəvi isə savaş meydanında nağara sədalarının qələbəyə səsləməsini belə göstərir:

*Çataraq inləyir neyin nəfəsi,*
*Nağara əl çalır, yüksəlir səsi.*

*Nağara*

Göründüyü kimi, qədim hərb savaşlarında nağaraya böyük əhəmiyyət verirdilər. Çox qədim zamanlardan Azərbaycan musiqi mədəniyyətində mövcud olan qoltuq nağara, cürə (balaca) nağara və qoşanağara kimi zərb musiqi alətləri təkmilləşərək bu günə qədər gəlib çıxmış, Xalq Çalğı Alətləri Ansamblının və Orkestrinin tərkibində layiqli yerini tuta bilmişdir. Digər tərəfdən bu çalğı aləti el şənliklərində, toy məclislərində nəfəs alətlərini və sazı müşayiət edir. Balabanı və sazı müşayiət edərkən nağara ovucun içi və barmaqlarla, zurnanı müşayiət zamanı isə ağac çubuqlarla çalınır. Çox qədim keçmişdə zərb musiqi alətinin üstünə qurd dərisindən üzlük çəkilərdi. Bu haqda dahi Nizami Gəncəvi belə yazırdı:

*Cürə (balaca) nağara*

*Coşdu qurd gönündən olan*
*nağara,*
*Dünyanın beynini gətirdi*
*zara.*

*Qoşanağara*

39

qədim dövrdən bu günə kimi onlardan istifadə imkanlarından məlumat verir.

Qeyd olunur ki, bütün Azərbaycan xalq rəqslərinin ifasında mütləq zərb aləti kimi nağaranın müxtəlif növlərindən istifadə olunur. Misal olaraq, «Yallı» Azərbaycan xalq rəqsi dinlənilir və onun təsviri göstərilir.

3

Tədqiqat aparmaq məqsədilə şagirdlərə belə bir sualla müraciət olunur: ***«Uşaqlar, əgər zərb aləti olan nağara olmasaydı, eşitdiyiniz «Yallı» rəqsi necə səslənərdi?»***

Məktəblilər bu sual ətrafında müzakirələrdə iştirak edirlər və sonra «Yallı» Azərbaycan xalq rəqsinin melodiyasını əl çalmaqla ikisəsli notla oxuyurlar.



12-ci mövzu

*Musiqi dinləyək*

**«Yallı». Azərbaycan xalq rəqsi. Zurnaçılar dəstəsinin ifasında**

*Nağaranın müşayiəti ilə «Yallı» rəqsi*

*Notla oxuyaq*

**«Yallı». Azərbaycan xalq rəqsinin melodiyasından bir parçanı ikisəsli oxuyaq**

Allegretto

mf

«Yallı» Azərbaycan xalq rəqsi bəstəkar yaradıcılığında da özünə yer tapmışdır. Cahangir Cahangirov Xalq Çalğı Alətləri Orkestri üçün «Yallı» əsərində qədim zərb alətlərimizdən geniş istifadə etmişdir.

*Musiqi dinləyək*

**Cahangir Cahangirov. «Xalq Çalğı Alətləri Orkestri üçün Yallı»**

40

**DİFERENSİAL TƏLİM**

1. Nağara alətində ritm tutur.
2. Nağaranın şəklini çəkir.

**NƏTİCƏ**

Aparılan müzakirələr belə bir son nəticəyə gəlməyə imkan yaradır ki, əgər «Yallı» Azərbaycan xalq rəqsinin ifası zamanı nağara musiqi aləti olmasaydı, o, çox maraqsız olardı.

**Yaradıcı tətbiqetmə.** Məktəblilər «Yallı» rəqsinin xarakterinə uyğun olan bəstəkar Əfsər Cavanşirovun Hikmət Ziyanın sözlərinə yazdığı «Mübarək» mahnısını əvvəlcə notla, sonra sözləri ilə birlikdə oxuyurlar.

**Tapşırıq 1.** «Yallı» rəqsinin Qədim Qobustan Qayaları üzərindəki təsvirlərini internetdən əldə edin.

**Tapşırıq 2.** Nağaranın müxtəlif növlərinin şəkillərini çəkin və onlar arasında fərqləri göstərin.

**Dinlənilmiş musiqi nümunələri haqqında məlumatlar iki cür verilə bilər:**

1. Şagirdlərin mövzu ilə əlaqədar biliklərindən istifadə etməklə.
2. Müəllimin şifahi təqdimatı ilə.


12-ci mövzu

*Mahnını notla və sözləri ilə oxuyaq*

**MÜBARƏK**

*Musiqisi Əfsər Cavanşirovun, sözləri Hikmət Ziyanındır.*



**SUALLAR**

1. Hansı Azərbaycan zərb alətlərini tanıyırsan?
2. Qədim zamanlarda zərb alətlərindən necə istifadə olunurdu?
3. Xalq Çalğı Alətləri Orkestri üçün «Yallı» hansı bəstəkarın əsəridir?

**TAPŞIRIQ:** Qoltuq nağara, cürə nağara və qoşanağaranın ifa xüsusiyyətləri haqqında qısa təqdimat hazırla.

41

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Nağara hansı musiqi alətləri qrupuna aiddir?**

a) simli ☐ b) nəfəs ☐ c) zərb ☐

**2. «Yallı» Azərbaycan xalq rəqsini, adətən, hansı zərb aləti müşayiət edir?**

a) qoltuq nağara ☐ b) cürə nağara ☐ c) qoşanağara ☐

# 15-ci MÖVZU. AZƏRBAYCAN XALQ ZƏRB ÇALĞI ALƏTLƏRİ – DƏF, QAVAL VƏ DÜMBƏK

**MƏQSƏD:**

1. Musiqi əsərlərinin melodiyası, ritmi və onlarda istifadə edilmiş bədii nümunələr haqqında təqdimat edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.


13-cü mövzu

AZƏRBAYCAN XALQ ZƏRB ÇALĞI ALƏTLƏRİ — DƏF, QAVAL VƏ DÜMBƏK

Dəf | Qaval | Dümbək

Azərbaycanda zərb çalğı alətlərinin tarixi ibtidai yaşayış dövrlərinə gedib çıxır. Bu dövrlərdə insanlar müəyyən vasitələrlə ritmlər yaratmışlar. Azərbaycanın qədim insan məskəni olan Qobustanda, Cingirdağın ətəklərində on-on iki min il əvvələ aid edilən qaya rəsmləri ilə yanaşı, «Qaval daşı» adlanan böyük bir qaya parçası da var. Bu qayanı əl, ayaq və hansısa bir cisimlə döyəclədikdə qavalın tembrinə uyğun səslər alınır. Belə güman edilir ki, həmin qaya daşı qədim əcdadlarımız tərəfindən zərb aləti kimi istifadə olunmuş və bu günə «Qaval daşı» adı ilə gəlib çıxmışdır.

Azərbaycan və eyni zamanda Mərkəzi Asiya xalqları, xüsusilə türkmən, özbək, uyğur və qaraqalpak xalqlarının milli musiqi mədəniyyətində dap, deprek kimi tanınan dəf musiqi alətinin yaranması çox qədimlərə gedib çıxır.

Bəzi mənbələrdə «dəf» (daf, taf) kəlməsinin qədim şumer dilindəki «dup» (lövhə) sözündən götürüldüyü göstərilir. Azərbaycanda qədim zamanlardan bu günə kimi xanəndələr təsnifləri, xalq mahnılarını oxuyarkən həm də əllərindəki dəflə özünün və müşayiətçi musiqiçilərin (tar, kamança) ifasına ritm tuturlar. Ona görə də hər bir xanəndə, eyni zamanda dəf də çalmağı bacarmalıdır.

*Balaban və qavalın müşayiəti ilə musiqi məclisi. Təbriz miniatürləri silsiləsindən. XVI əsr*

42

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müqayisə, müzakirə, müsahibə

**1**

Şagirdlər bəstəkar Əfsər Cavanşirovun Hikmət Ziyanın sözlərinə yazdığı «Mübarək» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim bu dərsdə Azərbaycan xalqına məxsus olan dəf, qaval və dümbək zərb çalğı alətləri ilə əlaqədar məlumatlar verir, onların təsvirini şagirdlərə göstərir. Müəllim qeyd edir ki, bu çalğı alətləri Azərbaycanda, eyni zamanda Mərkəzi Asiya xalqları arasında da çox geniş yayılmışdır. Müəllim məşhur xanəndə, Xalq artisti Arif Babayevin tar, kamança üçlüyündəki şəklini

şagirdlərə göstərir və onların diqqətini xanəndənin əlindəki qaval çalğı alətinə yönəldir. Tədqiqat aparmaq üçün müəllim şagirdlərə bu sualla müraciət edir: ***«Uşaqlar, nə üçün xanəndə Arif Babayevin əlində qaval çalğı aləti vardır?»***

3

Müəllim cavabı gözləmədən qeyd olunan üçlüyün ifasında «Dilkeş təsnifi»ni səsləndirir.

Bundan sonra müəllimin iştirakı ilə verilən sual ətrafında müzakirələr aparılır.

**DİFERENSİAL TƏLİM**

1. Rəqslərə əl çalmaqla ritm tutur.
2. Zərb alətlərinin adlarını söyləyir.

13-cü mövzu

*Musiqi dinləyək*

**«Dilkeş təsnifi». İfa edir Xalq artisti Arif Babayev, müşayiət edirlər tarda — Bəhram Mansurov, kamançada — Elman Bədəlov**



*Notla oxuyaq*

**«Bayatı-Şiraz» rəngindən bir parça. Musiqisi Əhsən Dadaşovundur**




**BUNU DA BİLİN**

Notla ifa edilən «Bayatı-Şiraz» rəngini məşhur tarzən və ud ifaçısı Əhsən Dadaşov yazmışdır.

Qaval Azərbaycanın ən qədim milli zərb alətidir. Bu alət Azərbaycanda, Türkiyədə, Mərkəzi Asiya xalqları arasında geniş yayılmış çaldırma, qaval, çirmenda, dangira kimi tanınan birüzlü zərb alətləri qrupuna aiddir. Qavalın sağanağı, bir qayda olaraq, qoz ağacından hazırlanır. Eni 60—75, diametri 340—450 millimetrə çatır. Onun daxili hissəsinə çevrə boyu 60—70 halqa bərkidilir. Üzərinə nərə balığının xüsusi üsulla aşılanmış dərisi çəkilir.

«Qaval» sözü «içi boş əşya» mənasını verən «qav» (qab) türk kəlməsindən əmələ gəlmişdir.

43

**NƏTİCƏ**

Azərbaycan tar, kamança və xanəndə üçlüyündə xanəndələr həmişə zərb aləti olan qavaldan istifadə edirlər. Belə olduqda xanəndə həm oxuyur, həm də ifa olunan musiqinin ritmini tutur.

Şagirdlər musiqisi Əhsən Dadaşova aid olan «Bayatı-Şiraz» rəngindən bir parçanı notla oxuyurlar. Müəllim muğamlara aid olan «rəng» haqqında və eyni zamanda dümbək, dəf zərb alətləri ilə əlaqədar bilikləri şagirdlərin diqqətinə çatdırır. Sonra məşhur rəqqasə Əminə Dilbazinin şəklini göstərir və «Qavalla rəqs» musiqisi dinlənilir.

**Yaradıcı tətbiqetmə.** Əfsər Cavanşirovun Hikmət Ziyanın sözlərinə yazdığı «Mübarək» mahnısının öyrənilmə prosesi solo və ikisəsli kimi oxunmaqla davam etdirilir.

**Tapşırıq 1.** «Mübarək» mahnısına adıçəkilən zərb alətləri vasitəsilə ritmik müşayiət yaradın.

13-cü mövzu



*Əminə Dilbazi*

***Ekranda rəqsə tamaşa edək və dinləyək***

**«Qavalla rəqs». İfa edir Xalq artisti Əminə Dilbazi**

Dümbək — milli musiqi mədəniyyətimizə aid olan bu zərb aləti Cənubi Qafqazda ancaq azərbaycanlılara mənsubdur.

Türk xalqları arasında dümbələk, donbek, tombak, dumbəy, darbaki, debulak kimi adlandırılan bu zərb musiqi aləti Türkiyədə və Yunanıstanda darbuka kimi tanınır.

Alman səyyahı və diplomatı Adam Oleari (XVII əsr) dümbəyin gildən dibsiz küp şəklində hazırlandığını yazıb. Səyyah qeyd edib ki, Novruz bayramında uşaqlar və gənclər dümbəyin müşayiətində oxuyub, rəqs edirdilər.

Bu musiqi aləti XX əsrin əvvəllərində unudulsa da, hazırda Xalq Çalğı Alətləri Ansamblı və Orkestrinin tərkibində öz yerini tapmışdır.

Dümbək zərb aləti vasitəsilə rəqs musiqisinin ritmi bütün xırdalıqlarına qədər səsləndirilə bilir.

Bəstəkar Nəriman Məmmədovun Xalq Çalğı Alətləri Orkestri üçün yazdığı «Zərbi-muğam» əsərində dümbək zərb alətindən məharətlə istifadə edilmişdir.

***Mahnını yada salaq, solo və ikisəsli oxuyaq***

**MÜBARƏK**

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Hikmət Ziyanındır.*

**SUALLAR**

1. Hansı Azərbaycan zərb alətlərini tanıyırsan?
2. Dəf zərb çalğı aləti haqqında nə deyə bilərsən?
3. Qaval və dümbək zərb musiqi alətləri haqqında nə bilirsən?

**TAPŞIRIQ:** Azərbaycan zərb çalğı alətləri haqqında şifahi təqdimat hazırla.

44

**Tapşırıq 2.** Qeyd olunan zərb çalğı alətlərinin şəkillərini çəkin.

**Dinlənilmiş musiqi nümunələri haqqında məlumatlar müxtəlif cür verilə bilər:**

1. Məktəblilərin mövzu üzrə artıq mövcud bilikləri ilə.
2. Müəllimin şifahi təqdimatı ilə.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Rəng – hansı musiqi janrına aiddir?**

a) simfoniya ☐ b) opera ☐ c) muğam ☐

**2. «Qaval daşı» adlanan qaya parçası harada yerləşir?**

a) Salyanda ☐ b) Qobustanda ☐ c) Qusarda ☐

## 16-cı MÖVZU. SİNİF KONSERTİNƏ HAZIRLIQ

## 17-ci MÖVZU. BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

***Şəkildəki musiqi alətlərinin adları qarşısında «+» işarəsi qoy.***



1. Kamança ☐
2. Tar ☐
3. Qanun ☐



1. Zurna ☐
2. Balaban ☐
3. Kamança ☐



1. Qanun ☐
2. Zurna ☐
3. Tar ☐



1. Kamança ☐
2. Dümbək ☐
3. Balaban ☐



1. Tar ☐
2. Kamança ☐
3. Zurna ☐



1. Nağara ☐
2. Qoşanağara ☐
3. Qaval ☐



1. Zurna ☐
2. Nağara ☐
3. Tar ☐



1. Qanun ☐
2. Kamança ☐
3. Qoşanağara ☐

## 18-ci MÖVZU. AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

**MƏQSƏD:**

1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

14-cü mövzu

### AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI



*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

1920-ci ildə Azərbaycanda Birləşmiş Dövlət Teatrı adlı mədəniyyət ocağı yaradılıb. Artıq 1924-cü ildən opera truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başlayıb. 1928-ci ildən teatra Mirzə Fətəli Axundovun adı verilir və 1959-cu ildən bu teatr Akademik Opera və Balet Teatrı adlanır. Bu gün xalqımızın sahib olduğu Akademik Opera və Balet Teatrının binasının inşa etdirilməsinin çox maraqlı tarixi var. Belə ki, 1910-cu ilin sonlarında Rusiyadan Bakıya çox məşhur opera müğənnisi olan bir qadın qastrol səfərinə gəlir. Müğənninin şərəfinə verilən ziyafətlərin birində neft milyonçuları Mayılov qardaşlarından biri qonaqdan Bakıya bir də nə vaxt gələcəyini soruşduqda, o: «Heç vaxt», — deyə cavab verir. Bunun səbəbini isə müğənni belə açıqlayır: «Belə böyük şəhərdə oxumağa opera teatrı yoxdursa, gəlməyimin nə mənası var?»

Milyonçu Mayılova bu cavab çox pis təsir edir və o, qonağa söz verir ki, bir il ərzində opera teatrı üçün əzəmətli bina tikdirəcək. Bu fikri dəstəkləyən xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev belə bir binanı bir ilə inşa etdirməyin qeyri-mümkün olduğunu iddia edir və əgər bu teatr binası deyilən müddətdə tikilib sona çatarsa, onun bütün xərclərini öz üzərinə götürəcəyini bildirir.

İki milyonçu mərc gəlirlər və nəticədə teatrın binası bir ilə deyil, on aya hazır olur.

Beləliklə, artıq 1920-ci ildən bu günə kimi Opera və Balet Teatrı bu möhtəşəm binada fəaliyyət göstərir.

46

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müsahibə, müzakirə

**1**

Şagirdlər «Çayımızın adı var» Azərbaycan xalq mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim Bakı şəhərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasının tikilmə tarixi və orada tamaşaya qoyulmuş opera-balet

əsərləri haqqında məlumat verir. Tədqiqatın aparılması üçün şagirdlərə belə bir sualla müraciət edir: ***«Uşaqlar, sizcə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrını tikdirən Bakı milyonçusunun Azərbaycan xalqının həyatında rolu nədən ibarətdir?»***

3

Verilmiş suala müxtəlif cavablar verən şagirdlərin ümumi fikri belə olur ki, Bakı neft milyonçusunun teatr binasını tikdirməsi Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafına köməkdir. Əslində, bu milyonçu öz xalqına, mədəniyyətinə qiyməti olmayan bir hədiyyə etmişdir.

Bu mövzuda aparılan müzakirələr arasında şagirdlər Müslüm Maqomayevin «Şah İsmayıl» operasından, Əfrasiyab Bədəlbəylinin «Qız qalası» baletindən musiqi nümunələri dinləyirlər.


14-cü mövzu

Azərbaycanın opera sənətinin tarixi 1908-ci il yanvarın 12-dən, yəni Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» operasının tamaşaya qoyulduğu gündən başlayır.

Sonralar Zülfüqar Hacıbəyovun «Aşıq Qərib» (1913), Müslüm Maqomayevin «Şah İsmayıl» (1919) kimi operaları da tamaşaya qoyulur. Daha sonra teatrın repertuarı Reynqold Qliyerin klassik opera janrında yazılmış «Şahsənəm» (1927), Müslüm Maqomayevin «Nərgiz» (1935), Üzeyir Hacıbəylinin «Koroğlu» operaları ilə zənginləşdi.

*Musiqi dinləyək*

**Müslüm Maqomayev. «Şah İsmayıl» operasının «Uvertüra»sından bir parça**

Keçən əsrin 40-cı illərində Əfrasiyab Bədəlbəylinin «Qız qalası» (1940) baleti və «Nizami» (1948) operası, Qara Qarayevin və Cövdət Hacıyevin «Vətən» (1945), Niyazinin «Xosrov və Şirin» (1942) operaları, Fikrət Əmirovun «Min bir gecə» (1979) baleti də məhz Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulur.



*Notla oxuyaq*

**Əfrasiyab Bədəlbəyli. «Qız qalası» baleti. «Müqəddimə»dən bir parça**



Keçən əsrin 50-ci illərində Fikrət Əmirovun «Sevil» (1953), Cahangir Cahangirovun «Azad» (1957) operaları Opera və Balet Teatrının səhnəsində oynanılıb.

Soltan Hacıbəyovun «Gülşən» (1950), Qara Qarayevin «Yeddi gözəl» (1952), «İldırımlı yollarla» (1961), Arif Məlikovun «Məhəbbət əfsanəsi» (1962), Əşrəf Abbasovun «Qaraca qız» (1965) baletləri də bu teatrda böyük müvəffəqiyyətlə tamaşaya qoyulub.

47

## DİFERENSİAL TƏLİM

1. «Çayımızın adı var» mahnısının ritmini əl ilə çalır.
2. Mahnıya uyğun şəkil çəkir.

## NƏTİCƏ

Bakı milyonçusunun Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı binasını tikdirməsi XX əsr Azərbaycan professional musiqisinin, xüsusilə də milli opera və balet janrının inkişafına böyük təsir göstərmişdir.

**Yaradıcı tətbiqetmə.** «Çayımızın adı var» Azərbaycan xalq mahnısı notla birsəsli ifa olunur.

**Tapşırıq 1.** «Çayımızın adı var» Azərbaycan xalq mahnısının məzmununa uyğun şəkil çəkin.


14-cü mövzu

Sonradan digər bəstəkarlarımızın yazdığı opera və balet əsərləri də məhz bu teatrda səhnə həyatının başlanğıcını qoymuşdur.

*Musiqi dinləyək*
**Fikrət Əmirov. «Sevil» operası. «Vals»dan bir parça**

*Mahnını notla birsəsli oxuyaq*

ÇAYIMIZIN ADI VAR
*(Azərbaycan xalq mahnısı)*

Allegretto

mf

Mahnı şən xarakterlidir və əvvəldən sonadək unison kimi ifa olunur.
Mahnının melodiyasını oxuyarkən liqaları dəqiq yerinə yetirmək lazımdır.

SUALLAR
1. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasını kim tikdirib?
2. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında ilk dəfə hansı opera səhnələşdirilib?
3. «Çayımızın adı var» mahnısının müəllifi kimdir?

TAPŞIRIQ: Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı haqqında şifahi təqdimat hazırla.

48

**Tapşırıq 2.** «Çayımızın adı var» xalq mahnısına ritmik müşayiət yaradın.

**Musiqi nümunələrinin müəllifləri haqqında məlumat müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin internetdən topladıqları məlumatlara əsasən.
2. Müəllimin şifahi şərhi ilə.

MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası neçənci ildə tikilmişdir?**

a) 1910 ☐ b) 1920 ☐ c) 1912 ☐

**2. «Qız qalası» baletini kim yazmışdır?**

a) Əfrasiyab Bədəlbəyli ☐ b) Fikrət Əmirov ☐ c) Tofiq Quliyev ☐

# 19-cu MÖVZU. «ŞAHSƏNƏM» OPERASI VƏ RUS BƏSTƏKARI REYNQOLD QLİYER

**MƏQSƏD:**

1. Azərbaycan musiqi folklor nümunələrinin Qərbi Avropa və rus bəstəkarlarının yaradıcılığına təsiri barədə münasibətini bildirir. 2. Azərbaycan və dünya bəstəkarlarının musiqili səhnə əsərlərində istifadə olunmuş bədii nümunələr haqqında təqdimat edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur. 4. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müsahibə, müqayisə

**1**

Şagirdlər «Çayımızın adı var» Azərbaycan xalq mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Böyük rus bəstəkarı (milliyyətcə alman olan) Reynqold Qliyer haqqında müəllim müəyyən məlumatlar verdikdən sonra şagirdlərə belə bir tədqiqat sualı verir: ***«Uşaqlar, nəyə gö-***



15-ci mövzu

«ŞAHSƏNƏM» OPERASI VƏ RUS BƏSTƏKARI REYNQOLD QLİYER

Reynqold Qliyer

Cabbar Qaryağdıoğlu

Qurban Pirimov

Cəfər Cabbarlı

Hələ 1924—1928-ci illərdə Azərbaycan incəsənəti, xüsusilə də milli opera janrı ətrafında çoxlu sayda mübahisələr aparılırdı. Milliyyətcə alman olan rus bəstəkarı Reynqold Qliyerin yazdığı «Şahsənəm» operası bu mübahisələrə son qoydu. «Şahsənəm» — Azərbaycan mövzusunda yazılmış ilk klassik tipli operadır.

Belə ki, o vaxta kimi Azərbaycanda başda Üzeyir Hacıbəyli olmaqla bir sıra bəstəkarlar, əsasən, muğam-operaları yazmışdılar. Dahi Üzeyir Hacıbəyli 1927-ci ildə «Şahsənəm» operası haqqında belə yazırdı: «Şahsənəm» operası ilə Azərbaycanda yeni opera mədəniyyətinin əsası qoyuldu». Reynqold Qliyer «Şahsənəm» operasının məzmununu qədim «Aşıq Qərib» dastanından götürmüşdür. Qeyd etmək lazımdır ki, vaxtilə bu xalq dastanına rus şairi Mixail Lermontov da müraciət etmişdi. Bu operanın yaradılması mərhələsində məşhur xanəndə Cabbar Qaryağdıoğlu, tarzən Qurban Pirimov və dramaturq Cəfər Cabbarlı məşhur bəstəkara kömək etmiş, ona milli musiqimiz, xalq mahnı və rəqslərimiz, aşıq musiqimiz və digər Azərbaycan xalq musiqi janrları haqqında məlumatlar vermişlər. Bu opera 1927-ci ildə ilk dəfə Azərbaycanda rus dilində, 1934-cü ildə isə böyük dramaturq Cəfər Cabbarlının librettosu əsasında Azərbaycan dilində tamaşaya qoyulmuşdur.

1938-ci ildə «Şahsənəm» operası Moskvada keçirilən Azərbaycan İncəsənəti Günlərində Azərbaycan dilində tamaşaya qoyulmuşdur.

49

***rə milliyyətcə alman olan rus bəstəkarı Reynqold Qliyer Azərbaycan şifahi folkloruna əsaslanaraq «Şahsənəm» operasını yazmışdır?»***

3

Suala müxtəlif cavablar verən şagirdlərin fikirləri ümumiləşdirilir və onlara aydınlaşdırılır ki, keçən əsrin əvvəllərində bəstəkarlarımız, əsasən, muğam operaları yaradırdılar,  lakin klassik opera janrında milli mövzuda heç bir milli bəstəkar əsər yaratmamışdı. Bu mənada «Şahsənəm» operası klassik opera janrında ilk nümunə hesab olunur. Müəllim və şagirdlərin verilən sualla əlaqədar müzakirələrindən məlum olur ki, «Şahsənəm» operası Azərbaycanda ilk klassik opera nümunəsidir. Uşaqlar operadan «Ənzəli»  rəqsini notla oxuyurlar.


15-ci mövzu

*Musiqi dinləyək*

**Reynqold Qliyer. «Şahsənəm» operasından «Ənzəli» rəqsi**

Qeyd etmək lazımdır ki, Reynqold Qliyer «Şahsənəm» operasında 30-dan çox Azərbaycan xalq mahnı və rəqslərindən, zərbi-muğamlardan çox geniş istifadə etmişdir. Məhz «Şahsənəm» operası sonradan respublikamızda sırf Avropa operası janrında yeni milli operalarımızın yaranmasına səbəb olmuşdur. Məşhur opera vokal ifaçısı Şövkət Məmmədova bu operada Şahsənəm obrazını böyük məharətlə ifa etmişdir.

*Şövkət Məmmədova*

*Musiqi dinləyək*

**Reynqold Qliyer. «Şahsənəm» operasından «Şahsənəmin ariyası»**

*Notla oxuyaq*

**«Ənzəli» xalq rəqsindən bir parça. Not yazısı Reynqold Qliyerindir**



Reynqold Qliyer «Şahsənəm» operasının uvertürasında «Arazbarı», «Toy yürüşü» musiqisindən, «Qarabağ şikəstəsi» ritmik muğamından, «Çahargah» muğam improvizasiyasından, «Sus, mənim çiçəyim» Azərbaycan xalq mahnısından istifadə etmiş və bununla da dahi rus bəstəkarı Mixail Qlinkanın ənənələrini məharətlə davam etdirmişdir.

**BUNU DA BİLİN**

«Ənzəli» Azərbaycan milli rəqsi təqribən 1880–1890-cı illərdə Bakıda yaranmış rəqs melodiyasıdır. İfa tərzi aramlı, süzgün, melodiyası «qocayana»dır. «Ənzəli» toyun əvvəlində oynanan ənənəvi rəqsdir. Bu rəqsi, adətən, yaşlılar oynayır. Xanə ölçüsü 3/4-dür, animato tempində və minor tonallığında səslənir.

50

**DİFERENSİAL TƏLİM**

1. Mahnını notla oxuyur.
2. Mahnının ritminə uyğun rəqs edir.

**NƏTİCƏ**

Müzakirə və müqayisə aparılır və belə bir nəticəyə gəlinir ki, «Şahsənəm» operası sonradan respublikamızda klassik operaların yaranmasına səbəb olmuşdur.

**Yaradıcı tətbiqetmə.** «Çayımızın adı var» Azərbaycan xalq mahnısı notla və sözləri ilə birlikdə ifa olunur.

**Tapşırıq 1.** «Şahsənəm» operasının hansı aşıq dastanımız əsasında yazıldığını müəyyənləşdirin.

**Tapşırıq 2.** «Aşıq Qərib» dastanından aşıq Qərib obrazının şəklini çəkin.

**Musiqi nümunələrinin müəllifləri haqqında məlumat müxtəlif cür verilə bilər:**

1. Müəllimin şifahi təqdimatı ilə.
2. Şagirdlərin öz araşdırmaları əsasında.


15-ci mövzu

*Mahnını notla və sözləri ilə oxuyaq*

ÇAYIMIZIN ADI VAR
*(Azərbaycan xalq mahnısı)*



I
Çayımızın adı var, yar, yar,
Ətirli xoş dadı var, yar, hey.
Çayda bizim qızların, yar, yar,
Canlarının odu var, yar, hey.

II
Xoş çayımız var bizim, yar, yar,
Çay bağımız var bizim, yar, hey.
Bu şərəfli əməyə, yar, yar,
Marağımız var bizim, yar, hey.

III
Çay gülü gül yarpağı, yar, yar,
Qızların gül yanağı, yar, hey.
Məxmər çayı bəyənir, yar, yar,
Bizim yerin qonağı, yar, hey.

IV
Çayları saya-saya, yar, yar,
Gözümü saldım çaya, yar, hey.
Armudu fincan ilə, yar, yar,
Çay gətirin ortaya, yar, hey.

SUALLAR

1. «Şahsənəm» operasının müəllifi kimdir və onun haqqında nə bilirsən?
2. «Şahsənəm» operası üzərində işləyərkən Reynqold Qliyerə kimlər kömək göstərmişdir?
3. «Çayımızın adı var» mahnısında Azərbaycan çayının hansı keyfiyyətləri sadalanır?

TAPŞIRIQ: Reynqold Qliyer haqqında şifahi təqdimat hazırla.

51

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Şahsənəm» operasının libretto müəllifi kimdir?**

a) Cəfər Cabbarlı ☐ b) Mikayıl Müşfiq ☐ c) Süleyman Rüstəm ☐

**2. Reynqold Qliyer «Şahsənəm» operasını hansı dastan əsasında yazıb?**

a) «Aşıq Qərib» ☐ b) «Əsli və Kərəm» ☐ c) «Qaçaq Kərəm» ☐

## 20-ci MÖVZU. MÜASİR MÖVZUDA İLK AZƏRBAYCAN OPERASI

**MƏQSƏD:**

1. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 2. Azərbaycan və dünya bəstəkarlarının musiqili səhnə əsərlərində istifadə olunmuş bədii nümunələr haqqında təqdimat edir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.



16-cı mövzu

**MÜASİR MÖVZUDA İLK AZƏRBAYCAN OPERASI**

*Müslüm Maqomayev*

*Niyazi*

Azərbaycanda müasir mövzuda yazılmış ilk opera böyük bəstəkar Müslüm Maqomayevin Hüseyn Cavidin «Çobanlar» radio-pyesinin süjeti əsasında yazdığı «Nərgiz» operasıdır. Bu əsərdə müasir mövzu klassik opera janrı ilə bir-birini tamamlamışdır. Operada Azərbaycan kəndlərinin birində xalqın onları istismar edənlərə qarşı mübarizəsi musiqi dili vasitəsilə təsvir olunur.

Əsərin əsas qəhrəmanları kəndli qız Nərgiz və çoban Əlyardır. Opera tamaşaya qoyulduqdan sonra bəstəkar «Nərgiz» əsəri üzərində bir daha işləmək və onun ikinci redaksiyasını yazmaq qərarına gəlir. Lakin Müslüm Maqomayevin 1937-ci ildə qəfil ölümü onun arzusunun həyata keçməsinə mane olur və əsəri Reynqold Qliyer və Niyazi tamamlayırlar. 1938-ci ildə «Nərgiz» operası Moskva şəhərində keçirilən Azərbaycan Musiqisi Dekadasında, elə həmin ildə də Azərbaycan Dövlət Opera Balet Teatrında tamaşaya qoyulur. Bəstəkar operada mahnı janrına yaxın təsniflərdən, rənglərdən geniş istifadə etmişdir.

*«Nərgiz» operasından «Əlyarın ariyası». İfa edir Rəşid Behbudov*

Nərgiz və Əlyarın ariyalarında Müslüm Maqomayev müxtəlif muğam intonasiyalarına müraciət edir.

*Musiqi dinləyək*

**Müslüm Maqomayev. «Nərgiz» operasından «Əlyarın ariyası» (I pərdədən)**

«Əlyarın ariyası» intonasiyasına görə xalqımızın çox sevdiyi «Çoban bayatısı»na yaxındır.

52

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müqayisə, müzakirə

**1**

Şagirdlər bəstəkar Rauf Hacıyevin şair Tofiq Mütəllibovun sözlərinə yazdığı «Gəncliyimiz» mahnısının tərənələri altında sinfə daxil olurlar.

**2**

Müəllim şagirdlərə Azərbaycanda ilk dəfə olaraq müasir mövzuya həsr olunmuş bəstəkar Müslüm Maqomayevin «Nərgiz» operası, burada istifadə olunmuş çoxlu sayda muğam, xalq mahnı və rəqslərindən məlumatlar verir. Uşaqlar bu operadan «Əlyarın ariyası»nı (I pərdədən) dinləyirlər və sonra onu notla oxuyurlar.

Bundan sonra müəllim tədqiqat aparmaq üçün şagirdlərə bu sualla müraciət edir: ***«Uşaqlar, bu melodiya sizə hansı xalq musiqisini xatırladır?»***

3

Müəllim «Çoban bayatısı» xalq musiqisindən bir qədər özü oxuyur, sonra müəllimin köməyi ilə şagirdlər «Əliyarın ariyası»nın «Çoban bayatısı»na bənzədiyini müəyyənləşdirirlər.

Bundan sonra şagirdlər «Nərgiz» operasının III pərdəsindən «Nərgizin qəmli mahnısı»nı dinləyərək orada istifadə olunmuş «Şüştər» muğamı intonasiyalarını müəyyənləşdirirlər.


16-cı mövzu

*Notla və sözləri ilə oxuyaq*

**Müslüm Maqomayev. «Nərgiz» operası. «Əlyarın ariyası»ndan bir parça**



*Musiqi dinləyək, onu notla və sözləri ilə oxuyaq*

**Müslüm Maqomayev. «Nərgiz» operasının III pərdəsindən «Nərgizin qəmli mahnısı»**



Lirik xarakterli bu ariyada operanın qəhrəmanı Nərgizin çoban Əlyara olan sevgisi çox emosional şəkildə öz əksini tapır.

Çox qəmli melodiyası olan «Nərgizin qəmli mahnısı» «Şüştər» Azərbaycan klassik muğamının intonasiyalarına əsaslanır və kədərli xarakterə malikdir.

Qeyd etmək lazımdır ki, bəstəkar xor üçün yazdığı musiqidə «Turacı» Azərbaycan xalq rəqsinin melodiyasından, «Nərgizin qəmli mahnısı»nda «Çıxdım qaya başına», III pərdədə səslənən xorda «Bağçadan gələn səs», I pərdənin final xorunda isə «Gün, çıx» Azərbaycan xalq mahnılarından istifadə etmişdir.

53

**DİFERENSİAL TƏLİM**

1. Mahnının ritmini əl çalmaqla tutur.
2. Mahnının məzmununa uyğun şəkil çəkir.

**NƏTİCƏ**

Bu aparılmış müzakirələrdən sonra şagirdlər belə bir nəticəyə gəlirlər ki, bəstəkar Müslüm Maqomayev keçən əsrin 30-cu illərində yazdığı «Nərgiz» operasında muğamlardan, xalq mahnı və rəqslərindən ona görə istifadə etmişdir ki, geniş dinləyici kütləri onun musiqisini başa düşsün.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Rauf Hacıyevin şair Tofiq Mütəllibovun sözlərinə yazdığı «Gəncliyimiz» mahnısı öyrədilir.

**Tapşırıq 1.** «Gəncliyimiz» mahnısına ritmik müşayiət yaradın.



16-cı mövzu

*Yeni mahnı öyrənək*

**GƏNCLİYİMİZ**

*Musiqisi Rauf Hacıyevin, sözləri Tofiq Mütəllibovundur.*

I

Gündə yeni zəfər çalır,
Səhralarda şəhər salır,
Dalğalardan işıq alır
Gəncliyimiz, gəncliyimiz.

*Nəqərat:*
Bayraq kimi ucalmışdır
Gəncliyimiz, gəncliyimiz.
Vətənimdən dərs almışdır
Gəncliyimiz, gəncliyimiz.

II

Xam torpağa həyat verir,
Boz düzlərə nicat verir,
Hər bir zaman öndə gedir
Gəncliyimiz, gəncliyimiz.

*Nəqərat:*

Marciale

**SUALLAR**

1. «Nərgiz» operasını hansı bəstəkar yazmışdır?
2. «Nərgiz» operasında hansı xalq musiqilərimizdən istifadə olunub?
3. Müslüm Maqomayevin vəfatından sonra «Nərgiz» operası üzərində işi kimlər davam etdirmişdir?
4. «Gəncliyimiz» mahnısının müəllifləri kimdir?

**TAPŞIRIQ:** «Gəncliyimiz» mahnısının müəllifləri haqqında təqdimat hazırla.

54

**Tapşırıq 2.** «Gəncliyimiz» mahnısının xüsusiyyətləri ilə əlaqədar şifahi təqdimat hazırlayın.

**Musiqi əsərlərinin müəllifləri haqqında məlumatları müxtəlif cür vermək olar:**

1. Dərslikdə verilən materiallar əsasında.
2. Televiziya və radiodan eşidilmiş materiallar əsasında.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Nərgiz» operasının müəllifi kimdir?**

a) Üzeyir Hacıbəyli ☐ b) Müslüm Maqomayev ☐ c) Asəf Zeynallı ☐

**2. «Gəncliyimiz» mahnısının xarakteri necədir?**

a) lirik ☐ b) marş ☐ c) faciəvi ☐

## 21-ci MÖVZU. MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

**MƏQSƏD:**

1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə

**1**

Şagirdlər «Babanın yolu daşdı» Azərbaycan xalq mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası və orada fəaliyyət göstərən musiqi kollektivləri haqqında məlumat verir. Bundan



17-ci mövzu

MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI

Xalq və professional musiqimizin inkişafında Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının əvəzolunmaz xidmətləri var.

Dövlət Filarmoniyası 25 may 1936-cı ildə yaradılıb. Filarmoniyanın binası 1910–1912-ci illərdə «İctimai iclasların yay evi» adı ilə tikilib. Qeyd etmək lazımdır ki, bu binada konsert və əyləncə tədbirləri tez-tez keçirilirdi. Bina bu məqsədlə 1936-cı ilədək istifadə edilmişdir.

1937-ci ilin avqust ayının 11-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə bu binada yerləşən Azərbaycan Dövlət Filarmoniyasına görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin adı verilib.

Azərbaycan Dövlət Filarmoniyasında yeddi müxtəlif tərkibli musiqi kollektivi fəaliyyət göstərir. Bunlardan Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrini xüsusilə qeyd etmək lazımdır. Belə ki, Azərbaycanda yaranan ilk simfonik orkestr məhz bu musiqi kollektividir.

Respublikamızın aparıcı musiqi kollektivlərindən biri də Azərbaycan Dövlət Xor Kapellasıdır. Bu kollektiv 1966-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının tərkibində yaradılmışdır.

*Azərbaycan Dövlət Filarmoniyası*

*Müslüm Maqomayev, Niyazi və Simfonik Orkestr*

*Azərbaycan Dövlət Xor Kapellası*

55

sonra Azərbaycan Dövlət Xor Kapellasının ifasında Cahangir Cahangirovun «Çahargah» xor əsərindən və Fikrət Əmirovun «Nizami» simfoniyasının «Skertso»su adlanan II hissəsindən bir parça səsləndirilir. Müəllim belə bir tədqiqat sualı ilə şagirdlərə müraciət edir: ***«Uşaqlar, eşitdiyiniz bu musiqi nümunələrini yüngül, yoxsa ciddi musiqi növlərinə aid etmək olar?»***

3

Müəllim və şagirdlər tərəfindən ciddi və yüngül musiqi növləri ilə əlaqədar müzakirə aparılır. Şagirdlər müəllimin köməyi ilə bu illər ərzində eşitdikləri ciddi və yüngül musiqi nümunələrini yada salaraq onlara adını söyləyirlər.


17-ci mövzu

*Musiqi dinləyək*

**Cahangir Cahangirov. «Çahargah» xor əsərindən bir parça**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük rolu olan musiqi kollektivlərindən biri də Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestridir. Bu orkestr 1964-cü ildə Qara Qarayev və Fikrət Əmirovun təşəbbüsü ilə yaradılıb.

*Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri*

1969-cu il dekabrın 1-də Azərbaycan Dövlət Filarmoniyasının tərkibində Azərbaycan Dövlət Rəqs Ansamblı yarandı.

*Musiqi dinləyək*

**Fikrət Əmirov. «Nizami» simfoniyası. «Skertso» adlanan II hissədən bir parça**

Adları qeyd olunan musiqi kollektivlərindən başqa, Dövlət Filarmoniyasının tərkibində Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Azərbaycan Dövlət Fortepiano Triosu, Azərbaycan Dövlət Simli Kvarteti də fəaliyyət göstərir.

*Notla oxuyaq*

**BƏH-BƏH**

*(Azərbaycan xalq mahnısı)*

Allegretto

56

## DİFERENSİAL TƏLİM

1. Tanıdığı musiqi kollektivlərinin adlarını söyləyir.
2.«Bəh-bəh» xalq mahnısına ritm tutur.

## NƏTİCƏ

Aparılan müzakirələrin yekunu kimi məktəblilər belə bir fikrə gəlirlər ki, istər yüngül, istərsə ciddi musiqi olsun, insanlar yaxşı, keyfiyyətli musiqi nümunələri dinləyərlərsə, onların zövqləri inkişaf etmiş olar.

Bundan sonra şagirdlər Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının repertuarından «Bəh-bəh» Azərbaycan xalq mahnısını notla oxuyurlar.

**Yaradıcı tətbiqetmə.** Şagirdlər «Babanın yolu daşdı» adlı Azərbaycan xalq mahnısını sözləri ilə və notla oxuyurlar. Notda olan glissandolara xüsusi diqqət verilməlidir.

**Tapşırıq 1.** «Babanın yolu daşdı» mahnısının məzmunu və xarakteri haqqında fikir söyləyin.

**Tapşırıq 2.** «Babanın yolu daşdı» mahnısına ritmik müşayiət yaradın.

**Musiqi nümunələri haqqında məlumatlar müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin internetdən əldə etdikləri məlumatlarla.
2. Müəllimin şifahi təqdimatı ilə.



17-ci mövzu

Qeyd etmək lazımdır ki, bu mahnı uzun illər Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının repertuarında uğurla ifa edilmişdir.

*Yeni mahnını sözləri ilə və notla oxuyaq*

**BABANIN YOLU DAŞDI**
*(Azərbaycan xalq mahnısı)*

Babanın yolu daşdı,
Zəhməti bizə xoşdu.
Qurban olaq Babaya,
Baba hamıdan başdı,
Hey Baba, can Baba,
Hey Baba, can Baba.



**SUALLAR**

1. Azərbaycan Dövlət Filarmoniyasına nə vaxt görkəmli bəstəkar Müslüm Maqomayevin adı verilib?
2. Azərbaycan Dövlət Filarmoniyasının tərkibində hansı musiqi kollektivləri var?
3. «Babanın yolu daşdı» mahnısının müəllifi kimdir?

**TAPŞIRIQ:** «Babanın yolu daşdı» xalq mahnısının xarakteri, melodiyası, ritmi haqqında danış.

57

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Azərbaycan Dövlət Filarmoniyası kimin adını daşıyır?**

a) Üzeyir Hacıbəylinin ☐ b) Cahangir Cahangirovun ☐ c) Müslüm Maqomayevin ☐

**2. C.Cahangirovun «Çahargah» əsəri hansı musiqi kollektivi tərəfindən ifa olunur?**

a) Azərbaycan Dövlət Simfonik Orkestri ☐ b) Azərbaycan Dövlət Xor Kapellası ☐

c) Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı ☐

## 22-ci MÖVZU. ÜZEYİR HACIBƏYLİ ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 2. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadələrə dair kiçik təqdimatlar edir. 3. Simfonik orkestrdə ifa olunan musiqinin emosional təsiri haqqında fikrini izah edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

18-ci mövzu

**ÜZEYİR HACIBƏYLİ ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ**



*Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellası*

Keçən əsrin 30-cu illərində Azərbaycan musiqi mədəniyyətində gənc bəstəkarlardan Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov və digərləri Simfonik Orkestr üçün müxtəlif janrlarda və olduqca məzmunlu əsərlər yazırdılar. Əlbəttə ki, gənc bəstəkarların Üzeyir Hacıbəylinin rəhbərliyi və məsləhətilə yaranan əsərlərini ifa etmək lazım idi.

Məhz bu baxımdan, 1936-cı ildə yaranan Azərbaycan Dövlət Filarmoniyasında 1938-ci ildə sərbəst bir yaradıcı kollektiv — Simfonik Orkestr fəaliyyətə başlayır. Uzun illər ərzində bu kollektivin bədii rəhbəri və baş dirijoru maestro Niyazi olmuşdur. Çingiz Hacıbəyov, Əfrasiyab Bədəlbəyli də bu kollektivə dirijorluq etmişlər. 1984-cü ildən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Xalq artisti, Dövlət mükafatı və «Şöhrət» ordeni laureatı Rauf Abdullayev olmuşdur. Məhz belə bir Simfonik Orkestrin yaranması ilə o dövrdə fəaliyyət göstərən gənc bəstəkarlar qarşısında yeni simfonik əsərlərin yazılması tələbi qoyuldu. Müxtəlif filmlərə yazılmış musiqi əsərləri Simfonik Orkestrin ifasında səsləndirildi. Maqnit lentinə yazdırıldı. Məhz bu orkestr Qara Qarayevin «Leyli və Məcnun» simfonik poemasının, «Yeddi gözəl» baletindən süitanın, Fikrət Əmirovun «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarının, Soltan Hacıbəyovun «Karvan» simfonik şəklinin, Cövdət Hacıyevin «Sülh uğrunda» simfonik poemasının, Niyazinin «Rast» simfonik muğamının və digər Azərbaycan simfonik musiqisinin ilk ifaçısı olmuşdur.

58

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə, Venn diaqramı

**1**

Şagirdlər Fikrət Əmirovun «Kürd-ovşarı» simfonik muğamının giriş musiqisi ilə sinfə daxil olurlar.

**2**

Müəllim Azərbaycan Dövlət Simfonik Orkestri haqqında məlumat verir.

Məlumatdan aydın olur ki, Simfonik Orkestrin yaranması respublikamızın mədəni həyatı üçün böyük hadisə olub. Bu kollektiv üçün əsərlər həm yaşlı, həm də gənc bəstəkarlar tərəfindən yazılıb. Eyni zamanda müəllim qeyd edir ki, bu gün də bu sahədə yaradıcılıq prosesi davam edir.

Tədqiqatın aparılması üçün müəllim sinfə aşağıdakı sualla müraciət edir: ***«Simfonik Orkestr üçün yazılan əsərlər, əsasən, hansı xalq musiqisi nümunələrinə əsaslanır və bunun başlıca səbəbi nədir?»***

3

Müəllim «Kürd-ovşarı» simfonik muğamından bir parça dinlətdirəndən sonra Niyazinin «Rast» muğamından «Əlində sazın qurbanı» mahnısını səsləndirir. Bundan sonra müəllim qeyd olunan xalq mahnısını şagirdlərə notla oxutdurur və Venn diaqramından istifadə etməklə bu iki musiqi nümunəsinin oxşar və fərqli cəhətləri aydınlaşdırılır.


18-ci mövzu

*Musiqi dinləyək*
**Fikrət Əmirov. «Kürd-ovşarı» simfonik muğamından bir parça**

Qeyd etmək lazımdır ki, o dövrdə yazılan simfonik əsərlər xalq mahnılarına, təsniflərə, rənglərə əsaslanırdı. Bəstəkar-dirijor Niyazinin «Rast» simfonik muğamında «Əlində sazın qurbanı» adlı xalq mahnısından təsnif əvəzinə istifadə edilmişdir.

*Musiqi dinləyək*
**Niyazi. «Rast» simfonik muğamından «Əlində sazın qurbanı»**

*Notla oxuyaq*

ƏLİNDƏ SAZIN QURBANI
*(Azərbaycan xalq mahnısı)*



Dinlədiyimiz və notla oxuduğumuz musiqi nümunəsindən görünür ki, bəstəkar-dirijor Niyazinin «Rast» simfonik muğamında xalq mahnısının melodiyasından olduğu kimi, heç bir dəyişiklik olunmadan istifadə edilmişdir.

59

**DİFERENSİAL TƏLİM**

1. Mahnıya əl çalmaqla ritm tutur.
2. Mahnının xarakteri haqqında fikir söyləyir.

**NƏTİCƏ**

Beləliklə, müəllimlə birlikdə Venn diaqramını araşdıran şagirdlər belə nəticəyə gəlirlər ki, notla oxunan melodiya və «Rast» muğamından səslənən musiqi nümunələri «Əlində sazın qurbanı» adlı Azərbaycan xalq mahnısına əsaslanır.

Eyni zamanda şagirdlər belə bir fikir də söyləyirlər ki, çoxlu sayda nümunələr var ki, orada bəstəkar yazdığı simfonik əsərdə xalq musiqisindən istifadə etmişdir.

**Yaradıcı tətbiqetmə.** Müəllimlə birlikdə məktəblilər bəstəkar Ədilə Hüseynzadənin Ramiz Məmmədovun sözlərinə yazdığı «Əziz ana» mahnısını öyrənirlər.

**Tapşırıq 1.** «Əziz ana» mahnısının xarakterini müəyyənləşdirin.

18-ci mövzu

*Yeni mahnı öyrənək*

ƏZİZ ANA

*Musiqisi Ədilə Hüseynzadənin,*
*sözləri Ramiz Məmmədovundur.*

I

Getsəm hər yana,
Sevimli ana,
Səni anaram,
Alovlanaram.

*Nəqərat:*
Bu ömrüm, günüm,
Başına dönüm,
Bircə sənsən, əziz ana,
Ey ürəyi təmiz ana.

II

Laylan səsidir
Kürün, Arazın.
Bircə günüm də
Sənsiz olmasın.

*Nəqərat:*



*Vije-Lebren, Mari Elizabet Luiza.*
*Paris, XVIII—XIX əsr.*
*Avtoportret. «Ana və uşaq»*

SUALLAR

1. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri nə vaxt yaradılmışdır?
2. Uzun illər Azərbaycan Dövlət Simfonik Orkestrinə kim rəhbərlik etmişdir?
3. «Əziz ana» mahnısının müəllifləri kimdir?

**TAPŞIRIQ:** «Ədəbiyyatda və musiqidə ana obrazı» mövzusunda təqdimat hazırla.

60

**Tapşırıq 2.** Mahnının məzmununa uyğun şəkil çəkin.

**Musiqi nümunələri haqqında məlumat müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin biliklərinə əsaslanaraq sual-cavab yolu ilə.
2. Şagirdlərin internetdən yığdığı materiallar əsasında.

MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Əlində sazın qurbanı» hansı musiqi janrına aiddir?**

a) təsnif ☐ b) xalq mahnısı ☐ c) rəng ☐

**2. «Rast» simfonik muğamını hansı bəstəkar yazmışdır?**

a) Cahangir Cahangirov ☐ b) Niyazi ☐ c) Fikrət Əmirov ☐

## 23-cü MÖVZU. AZƏRBAYCAN DÖVLƏT XOR KAPELLASI

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 2. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 3. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 4. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 5. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müsahibə, müqayisə

**1**

Şagirdlər bəstəkar Rəşid Şəfəqin Sabir Mustafanın sözlərinə yazdığı «Novruz bayramı» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim Azərbaycan Dövlət Xor Kapellasının yaranması, inkişafı, repertuarı, onun quruluşu haqqında məlumat verir. Bundan sonra bəstəkar Cahangir Ca-

19-cu mövzu

### AZƏRBAYCAN DÖVLƏT XOR KAPELLASI

Azərbaycan Dövlət Xor Kapellası 1966-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində yaradılmışdır. Yarandığı gündən 1996-cı ilə qədər bu kollektivə Əməkdar incəsənət xadimi, xormeystr Eduard Novruzov rəhbərlik etmişdir. 1996-cı ildən Azərbaycan Dövlət Xor Kapellasına Xalq artisti, professor Gülbacı İmanova rəhbərlik edir. Bu kollektiv mövcud olduğu illər ərzində Azərbaycan və bir sıra xarici ölkə bəstəkarlarının xor əsərlərini məharətlə ifa etmişdir.



*Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası*

Azərbaycan Dövlət Xor Kapellası bəstəkarlardan Cahangir Cahangirovun «Füzuli» kantatasını, «Çahargah» əsərini, Nazim Əliverdibəyovun «Bayatı-Şiraz» xor kompozisiyasını, Oqtay Rəcəbovun «Segah-zabul» muğam kompozisiyasını, «Çingiz» simfoniya-rekviyem əsərini, Vasif Adıgözəlovun «Qarabağ» oratoriyasını, Volfqanq Motsartın «Rekviyem»ini və digər mürəkkəb quruluşlu əsərləri ifa etmişdir.



*Azərbaycan Xor Kapellası. Dirijor Gülbacı İmanova*

61

hangirovun «Füzuli» kantatasının II hissəsindən bir parça səsləndirilir və həmin parça notla və sözləri ilə ifa edilir. Müəllim belə bir tədqiqat sualı ilə şagirdlərə müraciət edir: ***«Uşaqlar, bu tipli musiqi əsərlərinin Azərbaycanda xor sənətinin inkişafında rolu nədən ibarətdir?»***

3

Bundan sonra müəllim müşayiəti olmayan, bəstəkar Nazim Əliverdibəyovun «Bayatı-Şiraz» əsərindən bir parça səsləndirir. Şagirdlər aydınlaşdırırlar ki, dinlədikləri birinci əsərdə vokalı və xoru Simfonik Orkestr müşayiət edir, amma ikinci əsərdə xorun müşayiəti yoxdur.

Müəllim başa salır ki, müşayiətsiz xor kollektivinə a kapella deyilir.



19-cu mövzu

Azərbaycan Dövlət Xor Kapellasında soprano, alt, tenor və bas kimi səs qrupları var.

Əgər Xor Kapellasını Simfonik Orkestr, yaxud royal musiqi aləti müşayiət etmirsə, ona «a kapella» (müşayiətsiz) deyilir.

Cahangir Cahangirov

*Musiqi dinləyək*

**Cahangir Cahangirov. «Füzuli» kantatasının II hissəsi**

Dinlənilən Cahangir Cahangirovun «Füzuli» kantatasının II hissəsində solo, Xor Kapellası və Simfonik Orkestr ifa prosesində birgə iştirak edirlər. İlk dəfə kantatanın II hissəsi Xalq artisti Şövkət Ələkbərovanın solo ifasında səslənmişdir. Əsərin dirijoru isə maestro Niyazi olmuşdur.

*Notla və sözləri ilə oxuyaq*

**Cahangir Cahangirov. «Füzuli» kantatasının II hissəsindən bir parça**



62

## DİFERENSİAL TƏLİM

1. «Novruz bayramı» mahnısına ritm tutur.
2. Mahnının xarakteri haqqında fikir söyləyir.

**NƏTİCƏ**

Aparılan müzakirələrdən, müqayisələrdən belə bir yekun rəyə gəlinir ki, müşayiət olmadan ifa olunan xor əsərinə a kapella deyilir.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Rəşid Şəfəqin Sabir Mustafanın sözlərinə yazdığı «Novruz bayramı» mahnısı öyrədilir.

**Tapşırıq 1.** «Novruz bayramı» mahnısına ritmik müşayiət yaradın.

**Tapşırıq 2.** Mahnının məzmununa, bayramın xüsusiyyətlərinə uyğun şəkillər çəkin.

**Musiqi nümunələrinin müəllifləri haqqında əlaqədar məlumatlar müxtəlif cür verilə bilər:**

1. Müəllimin şərhi ilə.
2. Şagirdlərin əvvəlki biliklərinə əsaslanaraq.

19-cu mövzu

*Musiqi dinləyək*

**Nazim Əliverdibəyov. A kapella xor kollektivi üçün «Bayatı-Şiraz»**

Bu əsər müşayiətsiz Xor Kapellası üçün yazılmışdır.

*Yeni mahnı öyrənək*

**NOVRUZ BAYRAMI**

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Sabir Mustafanındır.*

I

Səməni gətirin,
Miz üstünə qoyun, hey!
Kos-kosanı başlayaq,
Gözəldir bu oyun, hey!

*Nəqərat (xor):*
Yaz coşdurur adamı,
Gəlir Novruz bayramı!

II

Bir nimçəyə düzülsün
Yeddi löyün şirniyyat:
Qoğal, qovut, paxlava,
İydə, badam, qoz, nabat.

*Nəqərat (xor):*



**SUALLAR**

1. Azərbaycan Dövlət Xor Kapellası nə vaxt yaranmışdır?
2. Azərbaycan Dövlət Xor Kapellası üçün hansı bəstəkarlar əsərlər yazmışdır?
3. A kapella nədir?

**TAPŞIRIQ:** «Novruz bayramı digər ölkələrdə» mövzusunda təqdimat hazırla.

63

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Füzuli» kantatasını kim bəstələyib?**

a) Fikrət Əmirov ☐ b) Cahangir Cahangirov ☐ c) Asəf Zeynallı ☐

**2. «A kapella» hansı ifa tərzinə deyilir?**

a) müşayiətli ☐ b) müşayiətsiz ☐ c) həm müşayiətli, həm müşayiətsiz ☐

## 24-cü MÖVZU. QARA QARAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT KAMERA ORKESTRİ

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 2. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 3. Azərbaycan və dünya bəstəkarlarının musiqili səhnə əsərlərində istifadə olunmuş bədii nümunələr haqqında təqdimat edir. 4. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 5. Mahnını not və mətni ilə oxuyur.

20-ci mövzu

### QARA QARAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT KAMERA ORKESTRİ



*Nazim Rzayev*

Azərbaycan Dövlət Filarmoniyasının tərkibində olan musiqi kollektivlərindən biri də Dövlət Kamera Orkestridir. Bu musiqi kollektivi məşhur Azərbaycan bəstəkarları Fikrət Əmirov və Qara Qarayevin təşəbbüsü ilə 1964-cü ildə yaradılıb. 1964-cü ildən 1992-ci ilə qədər orkestrin bədii rəhbəri Dövlət Mükafatı laureatı, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Nazim Rzayev, 1995-ci ildən 1997-ci ilədək Əməkdar incəsənət xadimi Yaşar İmanov olmuşdur. 1998-ci ildən bu günə qədər isə kollektivə Xalq artisti Teymur Göyçayev rəhbərlik edir.

Kollektivin repertuarında 200-dən çox Qərbi Avropa, rus və Azərbaycan bəstəkarlarının əsərləri öz əksini tapmışdır. Yüksək peşəkarlıq xüsusiyyətlərinə malik olan Azərbaycan Dövlət Kamera Orkestrinin musiqiçiləri müxtəlif janrlı musiqi nümunələrindən ibarət zəngin repertuarları ilə xalqın zövqünün düzgün formalaşmasında böyük rol oynamışlar. Orkestr təkcə Azərbaycanda deyil, eyni zamanda Rusiyanın Moskva, Sankt-Peterburq və digər şəhərlərində, həm də Qərbi Avropa ölkələrində qastrol səfərlərində böyük yaradıcılıq imkanlarına malik olduğunu nümayiş etdirmişdir.



*Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri*

64

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə, müsahibə

**1**

Məktəblilər sinfə «Qarabağ şikəstəsi» zərb-muğamının təranələri altında daxil olurlar.

**2**

Müəllim Azərbaycanda Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, onun yaranması, inkişafı, repertuarı haqqında məlumat verir, həm də belə bir musiqi kollektivinin zəruriliyini göstərir. Orkestrin ifasında Qara Qarayevin «İldırımlı yollarla» baletindən «Afrikalı qızların rəqsi»

dinlənilir. Tədqiqat aparmaq üçün müəllim uşaqlara belə bir sualla müraciət edir: ***«Uşaqlar, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında daha hansı musiqi nümunələri səslənə bilər?»***

**3**

Müəllim qeyd edir ki, onların dinlədiyi musiqidən başqa bu orkestr çoxlu sayda ritmik muğam ifalarını da müvəffəqiyyətlə müşayiət edir. Məşhur xanəndə Alim Qasımovun Kamera Orkestri ilə birlikdə ifa etdiyi «Qarabağ şikəstəsi» zərbi-muğamı da belə musiqi nümunəsidir.

Şagirdlər bu əsəri də dinləyirlər.

20-ci mövzu

*Musiqi dinləyək*

**Qara Qarayev. «İldırımlı yollarla» baletindən «Afrikalı qızların rəqsi»**

Azərbaycan Dövlət Kamera Orkestri, eyni zamanda müxtəlif janrlı Azərbaycan xalq musiqisi nümunələrini ifa edir, xanəndələri müşayiət edir. Ritmik muğamlarımızdan biri olan «Qarabağ şikəstəsi»ni Seyid Şuşinski, Xan Şuşinski, Şövkət Ələkbərova, Arif Babayev, Canəli Əkbərov, Baba Mirzəyev və digər məşhur xanəndələr Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin və ya ansamblının müşayiəti ilə ifa etmişlər. Lakin Xalq artisti Teymur Göyçayev bu əsəri Azərbaycan Dövlət Kamera Orkestri üçün işləmiş və onlarla gənc xanəndə bu orkestrin müşayiəti ilə bu gün də «Qarabağ şikəstəsi» oxuyur. Bu xanəndələrdən biri də Xalq artisti Alim Qasımovdur.



*Teymur Göyçayev*



*Alim Qasımov*

*Musiqi dinləyək*

**«Qarabağ şikəstəsi». İfa edir Xalq artisti Alim Qasımov**

*Notla oxuyaq*

**«Qarabağ şikəstəsi» zərbi-muğamından bir parça**




Azərbaycan Dövlət Kamera Orkestri üçün Azərbaycan bəstəkarlarından Qara Qarayev, Fikrət Əmirov, Azər Dadaşov, Faiq Nağıyev, Oqtay Rəcəbov və başqaları maraqlı əsərlər yazmışlar. Digər tərəfdən Azərbaycan bəstəkarlarının filmlərə, o cümlədən cizgi filmlərinə yazdıqları musiqi əsərlərinin səsləndirilməsi də Azərbaycan Dövlət Kamera Orkestrinin öhdəsinə düşmüşdür.

65

**DİFERENSİAL TƏLİM**

1. Mahnının ritmini tutur.
2. Mahnıya uyğun şəkillər çəkir.

**NƏTİCƏ**

Bu haqda müzakirələrdən sonra belə bir yekun qərara gəlirlər ki, Kamera Orkestrinin çox azsaylı kollektivi imkan verir ki, onlar həm də kiçik konsert zallarında da öz ustalıqlarını göstərsinlər.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Rəşid Şəfəqin Sabir Mustafanın sözlərinə yazdığı «Novruz bayramı» mahnısı notla və sözləri ilə bir-ikisəsli ifa edilir.

**Tapşırıq 1.** «Novruz bayramı» haqqında kiçik şifahi təqdimat hazırlayın.


20-ci mövzu

*Yeni mahnını notla və sözləri ilə bir və ikisəsli oxuyaq*

NOVRUZ BAYRAMI

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Sabir Mustafanındır.*

Oynaq, şən

Sə-mə-ni-ni__ gə-ti - rin, gə-ti - rin, Miz üs - tü-nə__ qo-yun, hey,
qo- yun, hey. Kos-ko-sa-nı__ baş-la-yaq, baş- la-yaq, Gö- zəl - dir bu__
o- yun, hey. o- yun, hey. Gö-zəl - dir bu__ o- yun,__hey, o- yun,_ hey.
Vivo
Yaz coş - du- rur__ a - da - mı, Gə- lir__ Nov- ruz__ bay - ra- mı!

SUALLAR

1. Azərbaycan Dövlət Kamera Orkestri nə vaxt və kim tərəfindən yaradılıb?
2. Azərbaycan Dövlət Kamera Orkestrinə hansı dirijorlar rəhbərlik edib?
3. «Novruz bayramı» mahnısının müəllifləri kimdir və mahnının xarakteri necədir?

TAPŞIRIQ: «Novruz bayramı və milli adətlərimiz təsviri incəsənətdə və musiqidə» mövzusunda təqdimat hazırla.

66

**Tapşırıq 2.** «Novruz bayramı»nın məzmununa uyğun şəkil çəkin.

**Dinlənilən musiqi nümunələri haqqında məlumatlar müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin şifahi təqdimatları ilə.
2. Müəllimin verdiyi şərhlərlə.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ilk bədii rəhbəri və baş dirijoru kim olub?**

a) Fikrət Əmirov ☐ b) Tofiq Quliyev ☐ c) Nazim Rzayev ☐

**2. Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri nə vaxt yaradılıb?**

a) 1964 ☐ b) 1974 ☐ c) 1984 ☐

## 25-ci MÖVZU. SİNİF KONSERTİNƏ HAZIRLIQ

## 26-cı MÖVZU. KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*(Düzgün cavablar qarşısında «+» işarəsini yazın.)*

*1. Azərbaycan Dövlət Opera və Balet Teatrının binasını hansı Bakı milyonçusu tikdirib?*

a) Mayılov qardaşları ☐
b) Hacı Zeynalabdın Tağıyev ☐
c) Musa Nağıyev ☐

*2. «Nərgiz» operasının bəstəkarı kimdir?*

a) Asəf Zeynallı ☐
b) Müslüm Maqomayev ☐
c) Üzeyir Hacıbəyli ☐

*3. «Qız qalası» baletinin bəstəkarı kimdir?*

a) Arif Məlikov ☐
b) Aqşin Əlizadə ☐
c) Əfrasiyab Bədəlbəyli ☐

*4. «Şahsənəm» operasının liberetto müəllifi kimdir?*

a) Səməd Vurğun ☐
b) Cəfər Cabbarlı ☐
c) Mikayıl Müşfiq ☐

*5. «Füzuli» kantatasının II hissəsində solo oxuyan müğənninin adı nədir?*

a) Sara Qədimova ☐
b) Şövkət Ələkbərova ☐
c) Zeynəb Xanlarova ☐

*6. Fikrət Əmirovun «Nizami» simfoniyası hansı musiqi kollektivi üçün yazılıb?*

a) Simfonik orkestr ☐
b) Simli orkestr ☐
c) Kamera orkestri ☐

## 27-ci MÖVZU. AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ TEATRI

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 2. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 3. Azərbaycan və dünya bəstəkarlarının musiqili səhnə əsərlərində istifadə olunmuş bədii nümunələr haqqında təqdimat edir. 4. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 5. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

21-ci mövzu

### AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ TEATRI



*Azərbaycan Dövlət Musiqili Teatrı*

Keçən əsrin əvvəllərində Azərbaycanda dahi Üzeyir Hacıbəyli tərəfindən yeni bir musiqi janrı — milli musiqili komediya yaranır. Bəstəkarın 1909-cu ildə yazdığı «Ər və arvad» musiqili komediyasının ilk tamaşası 1910-cu il mayın 24-də Bakıda Nikitin qardaşlarının sirk binasında baş tutur. Elə bu tamaşa ilə də Azərbaycanda Musiqili Komediya Teatrının əsası qoyulur.

1911-ci ildə Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun», 1913-cü ildə «Arşın mal alan» musiqili komediyaları da məhz bu teatrda öz səhnə təcəssümünü tapır. Üzeyir Hacıbəylidən sonra Zülfüqar Hacıbəyovun «Əlli yaşında cavan», «Evliykən subay», Mirmahmud Kazımovskinin «Molla Cəbi», «Vurhavur» musiqili komediyaları da tamaşaya qoyulur. 1938-ci ildə bəstəkar Zülfüqar Hacıbəyovun «Evliykən subay» operettasını rejissor Soltan Dadaşov yeni redaksiyada tamaşaya qoyur. Bu operettanın ilk tamaşası 1938-ci il mayın 30-da indiki Nizami adına Mədəniyyət və İstirahət Parkında göstərilir.

Böyük Vətən müharibəsi illərində teatrın işi yenidən qurulur və bu teatra Azərbaycan Dövlət Təbliğat Teatrı adı verilir.

Lakin 1942-ci il avqustun 29-da Təbliğat Teatrı yenidən Azərbaycan Dövlət Musiqili Komediya Teatrı adlandırılır və görkəmli rejissor Şəmsi Bədəlbəyli bu teatra direktor və bədii rəhbər təyin edilir. 1943-cü ilin avqust ayında teatra «Molla Nəsrəddin» jurnalının banisi dramaturq, publisist Cəlil Məmmədquluzadənin adı verilir.

1938-ci ilə qədər musiqili komediya tamaşaları Azərbaycan Dövlət Opera və Balet Teatrının binasında oynanılırdı. 1938-ci ildə Musiqili Komediya Teatrı rəsmi olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrı statusu alır. 1939-cu ildən Azərbaycan bölməsində Səid Rüstəmovun «Beş manatlıq gəlin», Ağası Məşədibəyovun «Toy kimindir», Soltan Hacıbəyovun «Qızılgül» və rus bölməsində isə Frans Leqarın «Mavi mazurka», Üzeyir Hacıbəylinin «Arşın mal alan», İmre Kalmanın «Sirk şahzadəsi», Boris Aleksandrovun «Malinovkada toy» və digər tamaşalar qoyulur. 1944-cü ildə Fikrət Əmirovun «Ürəkaçanlar»,

68

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə, müsahibə

**1**

Şagirdlər bəstəkar Emin Sabitoğlunun şair Bəxtiyar Vahabzadənin sözlərinə yazdığı «Azərbaycan» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim Azərbaycanda Dövlət Musiqili Teatrının yaradılması, orada hansı bəstəkarların əsərlərinin tamaşaya qoyulması, müasir dövrə qədər

yaranmış əsərlər haqqında, məşhur aktyorlarla əlaqədar məlumat verir. Şagirdlər «Arşın mal alan» operettasından «Əsgərin ariyası»nı dinləyirlər.

**3**

Bundan sonra şagirdlər Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun» operettasından «Məşədi İbadın mahnısı»nın melodiyasını notla oxuyur və onun «Uzundərə» Azərbaycan xalq rəqsinə oxşadığını müəyyənləşdirirlər.

Tədqiqat aparmaq üçün müəllim şagirdlərə belə bir sualla müraciət edir: ***«Azərbaycan Dövlət Musiqili Teatrının repertuarı, əsasən, hansı əsərlərdən ibarətdir?»***



21-ci mövzu

1946-cı ildə «Gözün aydın», 1947-ci ildə Səid Rüstəmovun «Durna», 1948-ci ildə Süleyman Ələsgərovun «Ulduz» operettaları da teatrın repertuarını zənginləşdirir.

Bu illərdə digər operettalarla yanaşı, Üzeyir Hacıbəylinin operettaları da tamaşaya qoyulur.

*«Əsgərin ariyası». Əsgər rolunda Rəşid Behbudov*

*Musiqi dinləyək*

**Üzeyir Hacıbəyli. «Arşın mal alan». «Əsgərin ariyası»**

Bir müddət fasilədən sonra, 1956-cı ildən teatr yenidən fəaliyyətə başlayır.

1970-ci ilə qədər teatrda Tofiq Quliyevin «Qızılaxtaranlar», Şəfiqə Axundovanın «Ev bizim, sirr bizim», Zakir Bağırovun «Qayınana», Vasif Adıgözəlov və Ramiz Mustafayevin «Hacı Qara», Azər Rzayevin «Hacı Kərimin Aya səyahəti», Əşrəf Abbasovun «Səndən mənə yar olmaz», Tofiq Bakıxanov və Nəriman Məmmədovun «Altı qızın biri Pəri», Nəriman Məmmədovun «Bir dəqiqə» operettaları müvəffəqiyyətlə tamaşaya qoyulur.

Bu dövrdə teatrda Nəsibə Zeynalova, Bəşir Səfəroğlu, Hacıbaba Bağırov, Səyavuş Aslan, Mobil Əhmədov, orkestr dirijorlarından Süleyman Ələsgərov, Soltan Hacıbəyov, Kamal Abbasov və digər sənət korifeyləri çalışırdı. 1988–1998-ci illərdə respublikamızdakı gərgin ictimai-siyasi şərait kollektivin işində çətinliklər yaratdı, amma bu, yeni musiqili komediyaların səhnəyə qoyulmasına mane olmadı.

*Musiqi dinləyək, notla və sözləri ilə oxuyaq*

**Üzeyir Hacıbəyli. «O olmasın, bu olsun». «Məşədi İbadın mahnısı»**



69

## DİFERENSİAL TƏLİM

1. Mahnının ritmini əl çalmaqla tutur.
2. Mahnının xarakteri haqqında fikir söyləyir.

**NƏTİCƏ**

Bununla əlaqədar müzakirələrdən belə yekun rəyə gəlinir ki, bəstəkar Üzeyir Hacıbəyli özünün operettalarında Azərbaycan xalq rəqslərinin melodiyalarından istifadə etmişdir.

**Yaradıcı tətbiqetmə.** Şagirdlər müəllimin köməyi ilə bəstəkar Emin Sabitoğlunun Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi «Azərbaycan» mahnısını öyrənirlər.

**Tapşırıq 1.** «Azərbaycan» mahnısının xarakterik xüsusiyyətləri haqqında fikir söyləyin.

21-ci mövzu



Bəstəkar «Məşədi İbadın mahnısı» üçün «Uzundərə» Azərbaycan xalq rəqsinin melodiyasından istifadə etmişdir.

XX əsrin əvvəllərində Bakı neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binasında 18 aprel 2013-cü ildə əsaslı təmir və yenidənqurma işləri aparıldı və bu incəsənət ocağı Azərbaycan Dövlət Musiqili Teatrı adlandırıldı.

***Hacı Zeynalabdin Tağıyev***

*Yeni mahnı öyrənək*

**AZƏRBAYCAN**

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*

**I**

Azərbaycan, sənsən mənim
Ülviyyətim, şan-şöhrətim.
Adın mənim öz adımdır,
Sənsiz mənim nə qiymətim,
Azərbaycan, Azərbaycan.

***Nəqərat:***
Biz tarixə sığınmadıq,
Dünən vardıq, bu gün varıq.
Biz dostluğa güvənərək
Gələcəyə addımlarıq,
Azərbaycan, Azərbaycan.

**II**

Nəfəsimiz Babəklərin,
Sabirlərin od nəfəsi.
Mahnımızda yaşar bizim
Babaların addım səsi,
Azərbaycan, Azərbaycan.

***Nəqərat:***

**III**

Azərbaycan mənim eşqim,
Mənim andım, mənim anam.
Biz ikimiz bir torpağıq,
Mən də sənin bir parçanam,
Azərbaycan, Azərbaycan.

**SUALLAR**

1. Azərbaycanda tamaşaya qoyulan ilk operetta necə adlanır və onun müəllifi kimdir?
2. Bu gün Azərbaycan Dövlət Musiqili Teatrının yerləşdiyi binanı kim tikdirib?
3. Üzeyir Hacıbəylinin hansı operettalarını tanıyırsan?

**TAPŞIRIQ:** Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun» operettasının baş qəhrəmanı Məşədi İbad obrazı haqqında danış.

70

**Tapşırıq 2.** Emin Sabitoğlunun bildiyiniz vətənpərvərlik mövzulu mahnıları haqqında şifahi təqdimat hazırlayın.

**Mahnı müəllifləri haqqında məlumatlar müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin köhnə biliklərinə əsaslanaraq müəllimin sual-cavabı ilə.
2. Şagirdlərin internetdən əldə etdikləri məlumatlara əsasən.

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun» operettasının digər adı necədir?**

a) «Məşədi Qulu» ☐ b) «Məşədi İbad» ☐ c) «Məşədi İbrahim» ☐

**2. Emin Sabitoğlunun «Azərbaycan» mahnısının xarakteri hansı rəqsə uyğundur?**

a) lirik rəqsə ☐ b) «Yallı» rəqsinə ☐ c) «Cəngi» rəqsinə ☐

## 28-ci MÖVZU. ƏMƏKDAR KOLLEKTİV, SƏİD RÜSTƏMOV ADINA AZƏRBAYCAN DÖVLƏT XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 2. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 3. Musiqi əsərlərinin emosional hisslərə təsiri ilə əlaqədar təqdimat edir. 4. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 5. Mahnını birsəsli (solo), qrup və xor tərkibində oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müqayisə, müzakirə, müsahibə

**1**

Şagirdlər bəstəkar Oqtay Rəcəbovun Ənvər Əhmədin sözlərinə yazdığı «Komandanım, əmr et» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim Azərbaycanda Xalq Çalğı Alətləri Orkestrinin yaranması, inkişafı və bu kollektiv üçün əsərlər yazmış bəstəkarlar haqqında məlumat verir. Üzeyir

22-ci mövzu

### ƏMƏKDAR KOLLEKTİV, SƏİD RÜSTƏMOV ADINA AZƏRBAYCAN DÖVLƏT XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ



*Üzeyir Hacıbəyli və Xalq Çalğı Alətləri Orkestri*

1931-ci ildə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli Azərbaycan Dövlət Konservatoriyasında xalq çalğı alətlərində ifa edən 12 tanınmış ifaçını bir yerə yığır. Məqsədi notla çalan orkestr yaratmaq olur. Lakin o dövrdə hələ milli alətlərimizdə notla çalan musiqiçilər çox az olduğundan bu arzusunu reallaşdıra bilmir. Nəhayət, 1932-ci il may ayının 1-də Üzeyir Hacıbəyli öz ideyasını həyata keçirir və Radio Verilişləri Komitəsinin tərkibində Xalq Çalğı Alətləri Orkestrini yaradır. Orkestr 22 nəfər musiqiçi ilə fəaliyyətə başlayır. Orkestrin bədii rəhbəri və dirijoru bəstəkarın özü, bəstəkar Səid Rüstəmov isə onun köməkçisi və konsertmeystri təyin edilir. Bu orkestr üçün repertuar yaratmaq məqsədilə Üzeyir Hacıbəyli 1932-ci ilin sonlarında I və II fantaziyalarını yazır. Artıq 1933-cü ildə orkestrin tərkibi 30 nəfərə qədər artır və bəstəkarlarımız onun repertuarını yeni-yeni əsərlərlə zənginləşdirirlər.



*Səid Rüstəmov Xalq Çalğı Alətləri Orkestrinin üzvləri ilə birlikdə*

71

Hacıbəylinin bu kollektiv üçün yazdığı «I fantaziya»sı səsləndirilir. Bundan sonra əsərin əsas mövzusu şagirdlər tərəfindən notla ifa olunur. Eyni zamanda «Çahargah» muğamının «Maye-çahargah» şöbəsi səsləndirilir.

3

Tədqiqat sualı kimi şagirdlərə belə bir sual verilir: ***«Uşaqlar, dinlədiyiniz, oxuduğunuz musiqi nümunələri ilə «Maye-çahargah» şöbəsinin melodiyası arasında nə əlaqə vardır?»***

Sinif iki qrupa bölünür. I qrup Üzeyir Hacıbəylinin «Xalq Çalğı Alətləri Orkestri üçün I fantaziya»nın, II qrup isə «Çahargah» muğamının «Maye-çahargah» şöbəsininin oxşar və fərqli cəhətlərini araşdırır.

**22-ci mövzu**

1935-ci ildə Üzeyir Hacıbəylinin təkidi ilə bəstəkar Səid Rüstəmov orkestrə rəhbər təyin edilir. 1937-ci ildə artıq orkestrin tərkibi 40 nəfərə çatır, orkestr konsert proqramları ilə Moskva, Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərində çıxışlar edir.

1938-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan İncəsənəti Ongünlüyündə Xalq Çalğı Alətləri Orkestrinin ifası dinləyicilər tərəfindən böyük maraqla qarşılanır və həmin il aprelin 9-da orkestr Üzeyir Hacıbəylinin «Arşın mal alan» musiqili komediyasında müşayiətçi kimi iştirak edir.

Sonradan bəstəkarlardan Müslüm Maqomayev, Səid Rüstəmov, Fikrət Əmirov, Süleyman Ələsgərov, Arif Məlikov, Əşrəf Abbasov, Cahangir Cahangirov, Hacı Xanməmmədov və digərləri bu kollektiv üçün müxtəlif janrlı əsərlər yazırlar.

Qeyd etmək lazımdır ki, Xalq artistlərindən Bülbül, Firəngiz Əhmədova, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Mobil Əhmədov, Sara Qədimova, Gülağa Məmmədov, Elmira Rəhimova, İlhamə Quliyeva, Yalçın Rzazadə, Flora Kərimova bu orkestrin solistləri olmuşlar.

Bu gün «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin əməkdar kollektiv, Səid Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin heyəti 65 nəfərdir. Bədii rəhbəri və dirijoru Xalq artisti Nəriman Əzimovdur.

***Musiqi dinləyək***

**Üzeyir Hacıbəyli. «Xalq Çalğı Alətləri Orkestri üçün I fantaziya»**

**BUNU DA BİLİN**

Fantaziya yunan sözü olub «təsəvvür», «xəyal» deməkdir. Musiqidə ənənəvi çərçivə üslubundan kənara çıxan orijinal formalı əsərləri fantaziya adlandırırlar. İohann Sebastyan Bax yaradıcılığında orqan fuqaları fantaziyalarından xəbər verirdi. Volfqanq Amadey Motsartın, Lyudviq van Bethovenin, Frederik Şopenin yaradıcılığında da fantaziyalar vardır. XIX əsrdə fantaziyalar proqramlı musiqinin daxilində formalaşır. Pyotr İliç Çaykovskinin «Françesko da Rimini» fantaziyası da bu quruluş əsasında yazılmışdır.

1932-ci ildə bəstəkar Üzeyir Hacıbəyli «Çahargah» və «Şur» fantaziyalarını yazır. Fantaziyalarda bəstəkar fortepianoya solo alət kimi xüsusi yer ayırır. Adlarından məlum olduğu kimi, bəstəkar bu əsərlərində «Çahargah» və «Şur» muğamlarının intonasiyalarından, ritmik xüsusiyyətlərindən, lad kökündən geniş istifadə etmişdir.

72

**DİFERENSİAL TƏLİM**

1. Mahnının ritmini tutur.
2. Mahnının xarakterini müəyyənləşdirir.

**NƏTİCƏ**

Aparılan müzakirələr nəticəsində şagirdlər belə bir rəyə gəlirlər ki, dinlənilən, ifa olunan musiqi nümunələrinin hamısı «Çahargah» Azərbaycan muğamının «Mayeyi-çahargah» şöbəsinə uyğundur.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Oqtay Rəcəbovun şair Ənvər Əhmədin sözlərinə bəstələdiyi hərbi-vətənpərvərlik mövzusunda «Komandanım, əmr et» mahnısı öyrədilir.

**Tapşırıq 1.** «Komandanım, əmr et» mahnısına ritmik müşayiət yaradın.

**Tapşırıq 2.** Mahnının mətninin məzmununa uyğun şəkillər çəkin.

**Musiqi nümunələrinin müəllifləri haqqında məlumatlar müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin internetdən əldə etdikləri məlumatlara əsaslanaraq.
2. Müəllimin şifahi təqdimatı ilə.


22-ci mövzu

*Notla oxuyaq*

**Üzeyir Hacıbəyli. «Çahargah» fantaziyasından bir parça**



Bu melodiya «Çahargah» muğamının «Mayeyi-çahargah» şöbəsinin xarakterinə, əzəmətli səslənməsinə əsaslanır.

*Yeni mahnı öyrənək*

**KOMANDANIM, ƏMR ET**

*Musiqisi Oqtay Rəcəbovun, sözləri Ənvər Əhmədindir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev*

I

Bu millətin qürurun heç bir qüvvə poza bilməz,
Bu fəlakət yuxusunu fələklər yoza bilməz,
Qılınc yazan tarixi, heç bir kəs yaza bilməz.

*Nəqərat:*
Komandanım, əmr et sən, döyüş andı içək biz,
Bu torpağın uğrunda canımızdan keçək biz!

II

Susa bilməz hayqıran bir millətin haqq səsi,
İldırımtək gurlasın Üzeyirin cəngisi,
Qarabağda od alsın düşmənin daş qəfəsi.

*Nəqərat:*

III

Artıq zaman yetişib, bu xalq ayaq üstədir,
Yaramızdan qan sızır, ulu vətən xəstədir,
Torpağın ağrısından milləti qəzəb didir.

*Nəqərat:*

**SUALLAR**

1. Azərbaycan Xalq Çalğı Alətləri Orkestri nə vaxt yaradılıb?
2. Xalq Çalğı Alətləri Orkestri üçün hansı bəstəkarlar əsər yazmışdır?
3. Hansı müğənnilər bu orkestrin solisti olmuşdur?

**TAPŞIRIQ:** Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin tərkibinə daxil olan musiqi alətləri haqqında kiçik şifahi məlumat hazırla.

73

**MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI**

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. Üzeyir Hacıbəylinin «Xalq Çalğı Alətləri Orkestri üçün I fantaziya»sı hansı muğama əsaslanıb?**

a) «Segah» ☐ b) «Çahargah» ☐ c) «Şüştər» ☐

**2. «Komandanım, əmr et» mahnısı hansı tempdədir?**

a) marş ☐ b) moderato ☐ c) adajio ☐

# 29-cu MÖVZU. AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLLARI

**MƏQSƏD:**

1. Azərbaycanın milli folklor nümunələri, muğam və aşıq havalarına dair bilik və bacarıqlar nümayiş etdirir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqdimat edir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.



23-cü mövzu

AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLLARI

XX—XXI əsr Azərbaycan musiqi ifaçılıq mədəniyyətində Xalq Çalğı Alətləri ansamblarının rolu çox böyük olmuşdur. Azərbaycan Xalq Çalğı Alətləri Ansamblını Xalq Çalğı Alətləri Orkestrindən ayıran fərqli cəhətlər aşağıdakılardır:

1. Xalq Çalğı Alətləri ansamblları notsuz şifahi ənənə əsasında ifa edir.

2. Xalq Çalğı Alətləri ansamblarının tərkibindəki musiqiçilərin sayı orkestr musiqiçilərindən üç dəfə az ola bilir.

3. Qastrol səfərləri üçün daha əlverişli və yığcam heyətə malikdir.

XX əsrdə respublikamızda ən tanınmış Xalq Çalğı Alətləri ansamblarından aşağıdakıları göstərmək olar:

1. Xalq artisti Əhməd Bakıxanovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.

2. Xalq artisti Baba Salahovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.

3. Xalq artisti Əlibaba Məmmədovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.

4. Əməkdar artist Əhsən Dadaşovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.

5. Xalq artisti Həbib Bayramovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.

6. Xalq artisti Ceyran Haşımovanın rəhbərlik etdiyi «Lalə» Qızlar Ansamblı.

*Əhməd Bakıxanov*, *Baba Salahov*, *Əlibaba Məmmədov*, *Əhsən Dadaşov*, *Həbib Bayramov*, *Ceyran Haşımova*

74

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə, müsahibə

**1**

Uşaqlar bəstəkar Oqtay Rəcəbovun şair Ənvər Əhmədin «Komandanım, əmr et» mahnısının marş sədaları altında sinfə daxil olurlar.

**2**

Müəllim Azərbaycan Xalq Çalğı Alətləri ansamblları, onların repertuarı üçün yazılmış musiqi nümunələri, onların oxşar və fərqli cəhətləri, bu ansamblların musiqi mədəniyyətimizdəki rolu və bu musiqi kollektivlərini

təşkil edənlər haqqında məlumat verir. Eyni zamanda qeyd olunan ansamblların istedadlı müğənnilərin ortaya çıxarılmasındakı rolundan danışır.

Zeynəb Xanlarovanın ifasında Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının müşayiəti ilə «Çahargah» muğamından bir parça dinlənilir. Rəng haqqında qısa məlumatdan sonra «Şur» muğamının «Simayi-şəms» rəngindən bir parça notla oxunulur.

**3**

Tədqiqat sualı kimi şagirdlərə aşağıdakı sualla müraciət oluna bilər:

***«Azərbaycan Xalq Çalğı Alətləri ansambllarında əsasən hansı janra aid musiqi nümunələri ifa olunur?»***


23-cü mövzu

**BUNU DA BİLİN**

Xalq Çalğı Alətləri Ansamblının tərkibinə simli (tar, ud, kamança, qanun, saz), nəfəsli (zurna, balaban, tütək) və zərb (nağara, qoşanağara, şaxşax və s.) musiqi alətləri daxil ola bilər. Müxtəlif ansambllarda bu qruplardakı alətlərin sayı dəyişə bilər.

Respublikada fəaliyyət göstərən Xalq Çalğı Alətləri ansambllarında həm tanınmış, həm də gənc müğənnilər çıxış edir və öz istedadlarını bir qədər də təkmilləşdirirdilər. Sonradan onlardan Zeynəb Xanlarova, İslam Rzayev, Elmira Rəhimova, Yalçın Rzazadə, İlhamə Quliyeva, Baba Mirzəyev, Anatollu Qəniyev və s. kimi görkəmli müğənnilər xalq tərəfindən tanınmağa başladılar. Onların repertuarına xalq mahnıları, təsniflər ilə bərabər, həm də klassik Azərbaycan muğamları daxil idi.

*Musiqi dinləyək*

**«Çahargah» muğamından bir parça. İfa edir Azərbaycan Respublikasının Xalq artisti Zeynəb Xanlarova, müşayiət edir Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblı**

Ansamblların repertuarında, eyni zamanda Azərbaycan xalq rənglərindən də geniş istifadə olunurdu. Bu rənglərdən biri də «Şur» muğamının «Simayi-şəms I» rəngidir.

**BUNU DA BİLİN**

Rəng muğamın kiçik şöbələri arasında səsləndirilən oynaq rəqs xarakterli musiqi nümunəsidir.

*Musiqi dinləyək və notla oxuyaq*

**Xalq Çalğı Alətləri Ansamblının ifasında «Şur» muğamı. «Simayi-şəms I» rəngindən bir parça**



75

**DİFERENSİAL TƏLİM**

1. Mahnının ritmini əl çalmaqla tutur.
2. Mahnının məzmununa uyğun şəkil çəkir.

**NƏTİCƏ**

Müəllimin köməyi ilə şagirdlər adları çəkilən ansambllarda əsasən xalq mahnılarının, muğamların, o cümlədən bəstəkar mahnılarının ifa olunması nəticəsinə gəlirlər.

**Yaradıcı tətbiqetmə.** Bəstəkar Oqtay Rəcəbovun şair Ənvər Əhmədin sözlərinə bəstələdiyi «Komandanım, əmr et» mahnısı notla ikisəsli kimi və sözləri ilə öyrədilir.

**Tapşırıq 1.** Mahnının tempinə uyğun ritmik müşayiət yaradın.


23-cü mövzu

*Mahnını notla ikisəsli və sözləri ilə oxuyaq*

**KOMANDANIM, ƏMR ET**

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Ənvər Əhmədindir.*



**SUALLAR**

1. Xalq Çalğı Alətləri Orkestri ilə Xalq Çalğı Alətləri Ansamblının fərqi nədədir?
2. Hansı Xalq Çalğı Alətləri ansambllarını tanıyırsan?
3. «Komandanım, əmr et» mahnısının müəllifləri kimdir və bu mahnının xarakteri haqqında nə deyə bilərsən?

**TAPŞIRIQ:** «Vətənpərvərlik ruhunda yazılmış mahnılar» mövzusunda şifahi təqdimat hazırla.

76

**Tapşırıq 2.** «Komandanım, əmr et» mahnısının xarakterini aydınlaşdırın.

**Mahnı müəllifləri haqqında məlumat müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin keçmiş biliklərinə əsaslanaraq.
2. Müəllimin şəxsi təqdimatı ilə.

MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Komandanım, əmr et» mahnısının musiqisi kimindir?**

a) Emin Sabitoğlu ☐ b) Oqtay Rəcəbov ☐ c) Tofiq Quliyev ☐

**2. «Komandanım, əmr et» mahnısının xanə ölçüsü neçədir?**

a) $\frac{2}{4}$ ☐ b) $\frac{3}{4}$ ☐ c) $\frac{4}{4}$ ☐

## 30-cu MÖVZU. «DAN ULDUZU» KAMERA-İNSTRUMENTAL ANSAMBLI

**MƏQSƏD:**

1. Azərbaycan bəstəkarlarının əsərlərində muğamlardan və aşıq musiqisindən istifadəyə dair kiçik təqdimatlar edir. 2. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 3. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müqayisə, müzakirə, müsahibə

**1**

Şagirdlər bəstəkar Emin Sabitoğlunun şair İbrahim Kəbirlinin sözlərinə bəstələdiyi «Nə gözəldir Azərbaycan!» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Bundan sonra müəllim «Dan ulduzu» Kamera-İnstrumental Ansamblı və onun yaradıcısı Əməkdar incəsənət xadimi Gülarə Əliyeva, onun rəhbərlik

24-cü mövzu

### «DAN ULDUZU» KAMERA-İNSTRUMENTAL ANSAMBLI

«Dan ulduzu» Kamera-İnstrumental Ansamblı 1966-cı ildə Azərbaycanın görkəmli musiqiçisi, pianoçusu, sənətşünası, Əməkdar incəsənət xadimi Gülarə Əliyeva tərəfindən Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin tərkibində yaradılmışdır.



*Gülarə Əliyeva*

Əməkdar incəsənət xadimi Gülarə Əliyeva bu ansamblın həm bədii rəhbəri və təşkilatçısı, həm də fortepiano partiyalarının gözəl ifaçısı idi. «Dan ulduzu» ansamblının əsas tələblərindən biri mahnı repertuarının professional Azərbaycan bəstəkarlarına məxsus olması idi. Ansambla «Dan ulduzu» adının qoyulması Xalq şairi Nəbi Xəzrinin təklifi ilə olub. Bu ansamblda Azərbaycan xalq çalğı alətləri ilə bərabər (tar, ud), Avropa musiqi alətlərinin (fortepiano, qoboy, fleyta, skripka, violonçel və s.) olması onun səslənməsini daha maraqlı edirdi. Tezliklə sevilən bu ansambl bir sıra Avropa və Şərq ölkələrində də qastrol səfərlərdə Azərbaycan musiqisini təbliğ etməyə başlayır. Akif İslamzadə, Flora Kərimova, Yalçın Rzazadə, Hüseynağa Hadıyev, Məmmədbağır Bağırzadə və başqa görkəmli ifaçılar bu ansamblın solistləri olmuşlar. 1975-ci ildən Azərbaycan Xalq artisti Zeynəb Xanlarova bu ansambl ilə silsilə konsertlər vermişdir.



*«Dan ulduzu» Kamera-İnstrumental Ansamblı*

«Dan ulduzu» ansamblının yarandığı ilk aylardan Gülarə Əliyeva gənc ifaçıları da ansambla dəvət edirdi. Gülarə Əliyeva özü də «Dan ulduzu» Kamera-İnstrumental Ansamblı üçün «Şüştər» rapsodiyası, «Hümayun» süitası, «Bayatı-kürd», «Şur» fantaziyalarını yazmışdır.

1991-ci ildə Gülarə Əliyeva dünyasını dəyişdi. Onun yaratdığı «Dan ulduzu» Kamera-İnstrumental Ansamblı bu günədək fəaliyyət göstərir və sevilir.

77

etdiyi ansamblın tərkibi, bu musiqi kollektivində yetişmiş və məşhurlaşmış müğənnilər haqqında məlumatları şagirdlərin diqqətinə çatdırır.

**3**

Şagirdlər Gülarə Əliyevanın bəstələdiyi «Şüştər» rapsodiyasını dinləyirlər. Müəllim rapsodiya musiqi janrı haqqında məlumat verir və şagirdlərə belə bir tədqiqat sualı ilə müraciət edir:

***«Uşaqlar, «Dan ulduzu» Kamera-İnstrumental Ansamblının əvvəllər tanış olduğunuz musiqi kollektivlərindən nə fərqi var?»***

Verilən sual ətrafında müəllimin iştirakı ilə müzakirələr başlayır.


24-cü mövzu

*Musiqi dinləyək*

**Gülarə Əliyeva. «Şüştər» rapsodiyası**

«Şüştər» rapsodiyasında fortepiano aləti digər musiqi alətlərinin fonunda xüsusilə fərqlənir. «Şüştər» klassik Azərbaycan muğamının intonasiyaları əsasında yazılmış bu rapsodiyada Gülarə Əliyeva çox mürəkkəb fortepiano passajları etməklə musiqini daha da cəlbedici edə bilmişdir.

**BUNU DA BİLİN**

Rapsodiya yunan sözü olub «nəğmə qoşan» deməkdir. Rapsodiya xalq mövzuları əsasında yazılmış parafraz formasında qurulan virtuoz instrumental pyesdir. Qədim Yunanıstanda epik poemaları (dastanları) nəğmə şəklində oxuyan musiqiçiyə rapsod deyirdilər. Qədim rapsodlardan biri Homer hesab edilib. Onun yazdığı «İliada» və «Odisseya» isə antik rapsodiyalardan sayılıb. XIX əsrdə professional Avropa musiqisinə daxil olan rapsodiya royal və ya orkestr üçün təyin edilmiş müxtəlif xalq melodiyalarının yer aldığı irihəcmli birhissəli əsər idi.

Musiqi tarixində Ferens Listin «Macar rapsodiyaları» ilə yanaşı, Yohans Bramsın fortepiano üçün «Solo-alt, kişi xoru və orkestr üçün rapsodiya»sı, Antonin Dvorjakın orkestr üçün «Slavyan rapsodiyaları», Moris Ravelin orkestr üçün «İspan rapsodiyası» da böyük şöhrət qazanmışdır.

*Notla oxuyaq*

**LAÇIN**

*(Azərbaycan xalq mahnısı)*



78

**DİFERENSİAL TƏLİM**

1. «Dan ulduzu» Kamera-İnstrumental Ansamblının tərkibindəki alətlərin adını söyləyir.
2. Mahnıya əl çalmaqla ritm tutur.

## NƏTİCƏ

Aparılan müzakirələr belə bir yekun nəticəyə gəlməyə imkan yaradır ki, «Dan ulduzu» Kamera-İnstrumental Ansamblı həcmcə kiçik olması ilə, həm də tərkibində milli musiqi alətləri ilə bərabər, Avropa musiqi alətlərindən istifadə olunması ilə digər ansambllardan fərqlənir. «Dan ulduzu» ansamblında sərbəst musiqi əsərləri ifa olunmaqla bərabər, həm də müğənniləri müşayiət etmək mümkündür.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Emin Sabitoğlunun İbrahim Kəbirlinin sözlərinə yazdığı «Nə gözəldir Azərbaycan!» mahnısı notla və sözləri ilə oxunur.

**Tapşırıq 1.** Mahnıya ritmik müşayiət yaradın.

**Tapşırıq 2.** Emin Sabitoğlunun bildiyiniz digər mahnılarının adlarını yadınıza salın.

**Musiqi müəllifləri ilə əlaqədar məlumatlar müxtəlif cür verilə bilər:**

1. Şagirdlərin televiziya və radio dalğalarından öyrəndikləri məlumatlar əsasında.
2. Müəllimin şifahi təqdimatı ilə.


24-cü mövzu

*Musiqi dinləyək*

**«Laçın». Azərbaycan xalq mahnısı. İfa edir Akif İslamzadə**

«Laçın» qədim Azərbaycan xalq mahnısıdır. Bu mahnı bir çox məşhur Azərbaycan müğənnilərinin ifasında səslənmiş və bəstəkarlarımız tərəfindən yazılmış müxtəlif janrlı əsərlərdə istifadə edilmişdir. Məsələn, bəstəkar Süleyman Ələsgərov «Bayatı-Şiraz» simfonik muğamında, bəstəkar Nazim Əliverdibəyov «Laçın» fortepiano pyesində bu xalq mahnısından istifadə etmişlər. «Dan ulduzu» Kamera-İnstrumental Ansamblının rəhbəri Gülarə Əliyeva «Laçın» xalq mahnısını həm instrumental, həm də vokal ifası üçün nota salmışdır.

*Mahnını yada salaq, notla və sözləri ilə oxuyaq*

**NƏ GÖZƏLDİR AZƏRBAYCAN!**

*Musiqisi Emin Sabitoğlunun,*
*sözləri İbrahim Kəbirlinindir.*



79

### MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Dan ulduzu» Kamera-İnstrumental Ansamblını kim yaratmışdır?**

a) Əhsən Dadaşov ☐ b) Gülarə Əliyeva ☐ c) Ceyran Haşımova ☐

**2. «Dan ulduzu» adını bu ansambla kim vermişdir?**

a) Səməd Vurğun ☐ b) Nəbi Xəzri ☐ c) Bəxtiyar Vahabzadə ☐

## 31–32-ci MÖVZULAR. «BƏNÖVŞƏ» UŞAQ XORU

**MƏQSƏD:**

1. Azərbaycan və dünya bəstəkarlarının geniş yayılmış əsərləri haqqında təqdimat edir. 2. Musiqi əsərlərinin emosional hislərə təsiri ilə əlaqədar təqimat edir. 3. Dinlədiyi müxtəlif janrlı əsərlərdən yaranan təəssüratlarını ifadə edir. 4. Mahnını birsəsli (solo), qrup və xor tərkibində (ikisəsli) oxuyur.

25-ci mövzu

### «BƏNÖVŞƏ» UŞAQ XORU

Azərbaycanda uşaq xor kollektivləri XX əsrdən başlayaraq, XXI əsrin əvvəllərinə kimi uzun və şərəfli bir yol keçmişdir.



*Əfsər Cavanşirov*

Uşaq xor kollektivləri respublikamızda XX əsrin 50-ci illərində formalaşmağa başlamışdır. Bəstəkarlarımızdan Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Asəf Zeynallı, Fikrət Əmirov, Qara Qarayev, Cahangir Cahangirov, Ağabacı Rzayeva, Qənbər Hüseynli, Səid Rüstəmov, Tofiq Quliyev, Oqtay Zülfüqarov, Ramiz Mustafayev, Şəfiqə Axundova və digərləri bir-birindən gözəl uşaq mahnıları ilə uşaq xorlarının repertuarını daha da zənginləşdirmişlər. Bəstəkarlarımız o dövrdə böyüməkdə olan gənc nəsil üçün gözəl mahnılar yazırdılar. Bu baxımdan 1958-ci ildə Azərbaycan Televiziya və Radiosu tərkibində «Bənövşə» Uşaq Xorunun yaradılması və bu kollektivə Əməkdar incəsənət xadimi, bəstəkar Əfsər Cavanşirovun rəhbər təyin edilməsi imkan verirdi ki, bəstəkarlarımızın uşaqlar üçün yazdıqları mahnılar professional musiqi kollektivi tərəfindən ifa edilsin və maqnit lentlərinə yazılaraq geniş tamaşaçı kütləsinə çatdırılsın. Bəstəkar Əfsər Cavanşirov «Bənövşə» Uşaq Xorunun repertuarına Azərbaycan xalq və bəstəkar mahnıları ilə yanaşı, rus, Ukrayna, gürcü, eyni zamanda Avropa bəstəkarlarının uşaq mahnılarını da daxil edirdi. Hətta 1979-cu ildə Ukraynada «Bənövşə xor məcmuəsi» rus, Ukrayna və Azərbaycan dillərində çap olunur. Bu məcmuədə olan mahnıların hamısı «Bənövşə» Uşaq Xorunun repertuarından götürülmüşdür.



*«Bənövşə» Uşaq Xoru*

81

**İstifadə olunan iş üsulları**

Beyin həmləsi, müzakirə, müqayisə, müsahibə

**1**

Şagirdlər bəstəkar Azər Dadaşovun Musa Yaqubun sözlərinə yazdığı «Qızıl dan» mahnısının təranələri altında sinfə daxil olurlar.

**2**

Müəllim uşaqların sevimli «Bənövşə» Uşaq Xoru, onun yaradıcısı bəstəkar, Əməkdar incəsənət xadimi Əfsər Cavanşirov, bu kollektivdə yetişmiş məşhur müğənnilər haqqında məlumatları təsvirlərdən istifadə etməklə şagirdlərin diqqətinə çatdırır.

Bundan sonra «Bənövşə» Uşaq Xorunun ifasında bəstəkar Qənbər Hüseynlinin «Cücələrim» (sözləri Tofiq Mütəllibovundur) mahnısı səsləndirilir. Müəllim bu mahnının yaranması və bütün dünyada məşhur olması ilə əlaqədar məlumatları da şagirdlərin diqqətinə çatdırır.

**3**

Tədqiqat aparmaq məqsədilə müəllim məktəblilərə bu sualla müraciət edir: ***«Uşaqlar, dinlədiyiniz «Cücələrim» mahnısı solo, yoxsa çoxsəsli xor kollektivi tərəfindən ifa olunur?»***

Verilən sual ətrafında müəllimlə birlikdə müzakirələr aparılır.


25-ci mövzu

*Musiqi dinləyək*

**CÜCƏLƏRİM**

*Musiqisi Qənbər Hüseynlinin,*
*sözləri Tofiq Mütəllibovundur.*

Mahnı «Bənövşə» Uşaq Xorunun ifasında Azərbaycan Dövlət Televiziya və Radiosunun Simfonik Orkestrinin müşayiəti ilə səslənir.

Dinlədiyimiz mahnını solist və uşaq xoru («Bənövşə» Uşaq Xoru) ifa edir, simfonik orkestr isə onları müşayiət edir.

«Cücələrim» mahnısını 1948-ci ildə bəstəkar Qənbər Hüseynli şair Tofiq Mütəllibovun sözlərinə yazmışdır. Sonradan bu mahnı bütün dünyaya yayılaraq böyük maraqla dinlənilmişdir. «Cücələrim» mahnısı Azərbaycan və rus dillərindən başqa, alman, fransız, italyan, ingilis, hətta yapon dillərində də müxtəlif xalqların uşaqları tərəfindən müvəffəqiyyətlə ifa olunmuşdur.

*Musiqi dinləyək, yada salaraq notla və sözləri ilə bir, ikisəsli oxuyaq*

**QIZIL DAN**

*Musiqisi Azər Dadaşovun,*
*sözləri Musa Yaqubundur.*



82

**DİFERENSİAL TƏLİM**

1. Dinlədiyi mahnının ritmini əl çalmaqla tutur.
2. Mövzuya uyğun şəkil çəkir.

**NƏTİCƏ**

Dinlənilmiş «Cücələrim» mahnısı solo və çoxsəsli kimi ifa olunur. Mahnının bəndi solist, nəqəratı isə üçsəsli xor tərəfindən oxunulur.

Bundan sonra məktəblilər unison və çoxsəsli şəklində bəstəkar Azər Dadaşovun şair Musa Yaqubun sözlərinə yazdığı «Qızıl dan» mahnısını yada salaraq oxuyurlar.

**Yaradıcı tətbiqetmə.** Oqtay Rəcəbovun «Ey Tanrım, arxa ol bizim İlhama» (sözləri Gülağa Tənhanındır) mahnısı öyrədilir. Mahnının əvvəlcə I, sonra II səs partiyası öyrədilir, sonradan birləşdirilmiş halda ikisəsli kimi ifa edilir.

25-ci mövzu

«Şur» muğamı intonasiyalarına əsaslanan bu mahnıda Ana Vətənə olan sevgi tərənnüm edilir. Mahnı ikisəsli ifa olunur və xor üçün nəzərdə tutulmuşdur.



*Ulu öndər Heydər Əliyev*



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*

*Yeni mahnı öyrənək və ikisəsli notla oxuyaq*

**EY TANRIM,
ARXA OL BİZİM İLHAMA**

*Musiqisi Oqtay Rəcəbovun,
sözləri Gülağa Tənhanındır.*

I

A dünya, nə vaxtsa gözləri dolan,
Bəndənin qeydinə qalacaqmısan?
Nələr etdiyini yadına salsan,
Qara bulud kimi dolacaqmısan?

*Nəqərat:*
Ey Tanrım, arxa ol bizim İlhama,
Xalqını çatdırsın arzuya, kama.
Ömrünü bu yolda döndərib şama,
Sən onun qeydinə qalacaqmısan?

II

Özünü unutdu, xalqına yandı,
O, xalqı yaşatdı, xalq onu andı.
Bu ağır itkiyə fələk də yandı,
Sən də bizim kimi yanacaqmısan?

*Nəqərat:*

83

**Tapşırıq 1.** Öyrənilmiş mahnının xarakteri haqqında fikir söyləyin.

**Tapşırıq 2.** Öyrənilmiş mahnıya ritmik müşayiət yaradın.

**Mahnı müəllifləri haqqında məlumatlar iki cür verilə bilər:**

1. Şagirdlərin internet resurslarından istifadə etməklə öyrəndikləri məlumatlar nəticəsində.

2. Müəllimin şifahi təqdimatı ilə.

MÖVZU ÜZRƏ TEST TAPŞIRIQLARI

*(Düzgün cavabın qarşısında «+» işarəsi qoyun)*

**1. «Bənövşə» Uşaq Xorunun yaradıcısı kim olub?**

a) Azər Dadaşov ☐ b) Əfsər Cavanşirov ☐ c) Qənbər Hüseynli ☐

**2. «Sərçənin sərgüzəştləri» uşaq operasının müəllifi kimdir?**

a) Azər Dadaşov ☐ b) Oqtay Rəcəbov ☐ c) Əfsər Cavanşirov ☐

## 33-cü MÖVZU. SİNİF KONSERTİNİN KEÇİRİLMƏSİ

## 34-cü MÖVZU. BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

***Musiqi məbədlərinin adlarını söyləyin.***













### TESTLƏR

*Düzgün cavablar qarşısında «+» işarəsi qoyun.*

*1. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ilk dirijoru kim olmuşdur?*

a) Rauf Abdullayev ☐
b) Niyazi ☐
c) Çingiz Hacıbəyov ☐

*2. «Dan ulduzu» Kamera-İnstrumental Ansamblının yaradıcısı kim olub?*

a) Gülarə Əliyeva ☐
b) Elmira Rəhimova ☐
c) Ceyran Haşımova ☐

*3. Məşhur dirijor, Xalq artisti Nazim Rzayev hansı musiqi kollektivinin yaradıcısı olub?*

a) Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ☐
b) Estrada-Simfonik Orkestri ☐
c) Mahnı və Rəqs Kollektivi ☐

*4. Azərbaycanda ilk xor kollektivini kim yaradıb?*

a) Cahangir Cahangirov ☐
b) Üzeyir Hacıbəyli ☐
c) Soltan Hacıbəyov ☐

*5. «Azad» operasının müəllifi kimdir?*

a) Fikrət Əmirov ☐
b) Qara Qarayev ☐
c) Cahangir Cahangirov ☐

*6. «İldırımlı yollarla» baletinin bəstəkarı kimdir?*

a) Nazim Əliverdibəyov ☐
b) Qara Qarayev ☐
c) Arif Məlikov ☐

*7. «İntizar» operasının bəstəkarı kimdir?*

a) Şəfiqə Axundova ☐
b) Firəngiz Əlizadə ☐
c) Elnarə Dadaşova ☐

*8. «Karvan» simfonik əsərinin müəllifi kimdir?*

a) Soltan Hacıbəyov ☐
b) İbrahim Məmmədov ☐
c) Qara Qarayev ☐

*9. «İldırımlı yollarla» baletinin libretto müəllifi kimdir?*

a) Nazim Hikmət ☐
b) Yuri Solominski ☐
c) Məmməd Araz ☐

# MAHNI REPERTUARI

## HACI XANMƏMMƏDOV. «TAR VƏ SİMFONİK ORKESTR ÜÇÜN 1№-li KONSERT»



## «ŞÜŞTƏR» MUĞAMINDAN BİR PARÇA

Səs qatarı

Not yazısı Arif Əsədullayevindir



### BƏRDAŞT (Əmiri ilə)

**Ad libitum. Senza misura** ♩ ≈ 76



## HACI XANMƏMMƏDOV. «TAR VƏ SİMFONİK ORKESTR ÜÇÜN KONSERT»DƏN ƏSAS MÖVZUDAN BİR PARÇA




## HACI XANMƏMMƏDOV. «TAR VƏ SİMFONİK ORKESTR ÜÇÜN KONSERT»DƏN KÖMƏKÇİ MÖVZUDAN BİR PARÇA



## «BAYATI-ŞİRAZ»
## MUĞAMINDAN BİR PARÇA



## «KOROĞLU» OPERASINDAN
## AŞIQ MAHNISI



## ADİL GƏRAY.
## «BAĞÇAKÜRD»



# VAĞZALI

*(Azərbaycan xalq rəqsi)*

*Fortepiano üçün işləyən Midhəd Əhmədov*



# «QARMON VƏ SİMFONİK ORKESTR ÜÇÜN KONSERT»DƏN BİR PARÇA

*Tofiq Bakıxanov*

## Konsert

(Ə.Bakıxanovun xatirəsinə həsr olunur.)




Meno
Allegretto
mf
f
p


63
65
7
67
70
74
77
8
81
85
9
Meno

## CƏNGİ

*(Azərbaycan xalq rəqsi)*




## C.QULİYEV. «ZURNA VƏ SİMFONİK ORKESTRİ ÜÇÜN UVERTÜRA»NIN ZURNA PARTİYASINDAN BİR PARÇA



# ÇOBAN BAYATISI

*(Azərbaycan xalq musiqisi)*

Moderato



# YALLI

*(Azərbaycan xalq rəqsi)*

## 1. DÖNƏ YALLI




## 2. HAQIŞDA



## «BAYATI-ŞİRAZ» RƏNGİ

*Musiqisi Əhsən Dadaşovundur*



## «QARABAĞ ŞİKƏSTƏSİ»

*(Azərbaycan zərbi-muğamı)*






MÜSLÜM MAQOMAYEVİN «ŞAH İSMAYIL» OPERASINDAN «UVERTÜRA»DAN BİR PARÇA



## ƏFRASİYAB BƏDƏLBƏYLİNİN «QIZ QALASI» BALETİNDƏN «MÜQƏDDİMƏ»



## REYNQOLD QLİYERİN «ŞAHSƏNƏM» OPERASINDAN «ŞAHSƏNƏMİN ARİYASI»




## REYNQOLD QLİYERİN «ŞAHSƏNƏM» OPERASINDAN «ƏNZƏLİ»

*(Azərbaycan xalq rəqsi)*



## MÜSLÜM MAQOMAYEVİN «NƏRGİZ» OPERASINDAN «ƏLYARIN» ARİYASI



## «NƏRGİZ» OPERASININ III PƏRDƏSİNDƏN
## «NƏRGİZİN QƏMLİ MAHNISI»



## FİKRƏT ƏMİROVUN «NİZAMİ» SİMFONİYASINDAN «SKERTSO»



CAHANGİR CAHANGİROVUN «AZAD» OPERASINDAN «ÇAHARGAH» XORU



## FİKRƏT ƏMİROVUN «KÜRD-OVŞARI» SİMFONİK MUĞAMININ GİRİŞİNİN ƏSAS MELODİYASINDAN BİR PARÇA




## NİYAZİNİN «RAST» SİMFONİK MUĞAMINDAN «ƏLİNDƏ SAZIN QURBANI» MAHNISINDAN BİR PARÇA



## CAHANGİR CAHANGİROVUN «FÜZULİ» KANTATASININ İKİNCİ HİSSƏSİNDƏN BİR PARÇA




## NAZİM ƏLİVERDİBƏYOVUN «BAYATI-ŞİRAZ» A KAPELLA ƏSƏRİNDƏN BİR PARÇA



## QARA QARAYEVİN «İLDIRIMLI YOLLARLA» BALETİNDƏN «QARA QIZLARIN RƏQSİ»



## ÜZEYİR HACIBƏYLİNİN
## «ARŞIN MAL ALAN» OPERETTASINDAN
## «ƏSGƏRİN ARİYASI»NDAN BİR PARÇA



## ÜZEYİR HACIBƏYLİNİN
## «O OLMASIN, BU OLSUN» OPERETTASININ
## «MƏŞƏDİ İBADIN MAHNISI»NDAN BİR PARÇA



# LAÇIN

*(Azərbaycan xalq mahnısı)*




f
p
f
f
f

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Abdullayeva S.** Azərbaycan musiqisi və təsviri sənət. «Oğuz eli» nəşriyyatı. Bakı, 2010.
2. **Abdullayeva S.** Azərbaycan xalq çalğı alətləri. «Adiloğlu» nəşriyyatı. Bakı, 2002.
3. Azərbaycan xalq rəngləri (S.Rüstəmov) II dəftər. «İşıq» nəşriyyatı. Bakı, 1980.
4. Azərbaycan incəsənəti. XII Bakı, Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı. Bakı, 1968.
5. **Bədəlbəyli F., Rəcəbov O.** və başqaları. «Uşaq mahnıları antologiyası», III cild. «Mütərcim» nəşriyyatı. Bakı, 2011.
6. **Bədəlbəyli F., Rəcəbov O.** və başqaları. «Uşaq mahnıları antologiyası», V cild. «Mütərcim» nəşriyyatı. Bakı, 2012.
7. **Bədəlbəyli F., Rəcəbov O.** və başqaları. «Azərbaycan bəstəkarlarının həyat və yaradıcılığı». I cild. «Mütərcim» nəşriyyatı. Bakı, 2011.
8. **Bünyadov T.** «Əsrlərdən gələn səslər». «Gənclik» nəşriyyatı. Bakı, 1975.
9. **Dadaşov A.** Mahnılar. «Nəşriyyat və Poliqrafiya şirkəti», Bakı, 2010.
10. **Əliyeva F., Kazımov N.** və başqaları. «Musiqi–7». «Maarif» nəşriyyatı. Bakı, 2007.
11. **Əsədullayev A.** İnstrumental muğam. «Adiloğlu» nəşriyyatı, Bakı, 2009.
12. Göyərçinik biz. «İşıq» nəşriyyatı. Bakı, 1980.
13. **Kərimov Məcnun.** Azərbaycan musiqi alətləri. «Mütərcim» nəşriyyatı. Bakı, 2011.
14. **Qasımova S., Bağırov N.** Azərbaycan Sovet Musiqi Ədəbiyyatı. «Maarif» nəşriyyatı. Bakı, 1984.
15. **Quliyev T., Rəcəbov O., Abdullazadə G.** və başqaları. «Maarif» nəşriyyatı, Bakı, 2007.
16. Odlu ürəklərin nəğmələri. Gənclik nəğmələri, «Gənclik» nəşriyyatı, Bakı, 1980.
17. **Rəcəbov O., İmanova O.** XX əsr Azərbaycan musiqi ədəbiyyatı. «Şirvannəşr», Bakı, 2007.
18. **Rəcəbov O., İmanova O.** Elementar musiqi nəzəriyyəsi. «Çıraq» nəşriyyatı, Bakı, 2008.
19. **Rəcəbov O., Kazımov N.** və başqaları. Azərbaycan xalq musiqisi və müəllim hazırlığı. «Mütərcim» nəşriyyatı. Bakı, 2010.
20. **Rəcəbov O., Kazımov N.** və başqaları. VIII sinif «Musiqi». «Təhsil» nəşriyyatı. Bakı, 2015.
21. **Rəcəbov O.** Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. «Mütərcim» nəşriyyatı. Bakı, 2010.
22. **Rəcəbov O., Miriyeva U.** Musiqi və mənəvi tərbiyə. «Maarif» nəşriyyatı. Bakı, 1995.
23. Uşaq mahnıları antologiyası – I, II, III cild. «Rafiq Xan-Sayadoğlu» nəşriyyatı, Bakı, 2005.
24. Ümumi təhsilin fənn standartları (I–XI siniflər). «Mütərcim» nəşriyyatı. Bakı, 2012.
25. Vətən, Millət, Ordu (Ü.Hacıbəyli). «Əbilov və qardaşları» nəşriyyatı. Bakı, 2005.
26. **Zöhrabov R.** Bəstəkarların portreti. I, II kitab. «Gənclik» nəşriyyatı, Bakı, 2006.
27. Из истории Азербайджанской оперы и балета (1908–1988) изд. «Adiloğlu». Баку, 2006.
28. **Зохрабов Рамиз.** «Азербайджанские теснифы». Москва изд. «Советский композитор». Баку, 1983.

**MUSİQİ 9**

*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*«Musiqi» fənni üzrə müəllim üçün metodik vəsait*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Oqtay Məmmədağa oğlu Rəcəbov**<br>**Nazim Kazım oğlu Kazımov**<br>**Ceyran Emin qızı Mahmudova** |
| Redaktoru | **Sevinc Nuruqızı** |
| Bədii və texniki redaktoru | **Abdulla Ələkbərov** |
| Dizaynerləri | **Səadət Quluzadə, Təhmasib Mehdiyev** |
| Korrektoru | **Ülkər Şahmuradova** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*03.06.2016-cı il tarixli 369 №-li*
*əmri ilə təsdiq edilmişdir.*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2016**

Kağız formatı 70x100 $^1/_{16}$. Fiziki çap vərəqi 8,0. Səhifə sayı 128.
Uçot nəşr vərəqi 7,73. Sifariş 71. Tiraj 7000. Pulsuz.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC-nin
mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 121$^A$

PULSUZ